RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 57 (10077) 7 aprel 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# “Gürcüstana gəlişiniz hamımız üçün xüsusi şərəfdir”

## Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstana dövlət səfəri edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Gürcüstana dövlət səfəri edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Qəhrəmanlar Memorialını və Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət ediblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın paytaxtı Tbilisidə rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək və geniş tərkibdə görüşü olub.

Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

Gürcüstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Gürcüstanın hakim partiyasının ("Gürcü Arzusu") fəxri sədri Bidzina İvanaşvilinin adından lanç verilib.

Aprelin 6-da Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub, Gürcüstan Milli Muzeyini ziyarət edib.

Tbilisidə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın şərəfinə Gürcüstanın birinci xanımı Tamar Baqrationinin adından lanç verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri həmin gün başa çatıb.

2-5

## *Prezident İlham ƏLİYEV:*

### “Həm yaxşı, həm də çətin günlərdə daim bir-birimizin yanında olmağa davam edəcəyik”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana təşəkkür etməsinə münasibət bildirib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin "X" sosial media hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "İran İslam Respublikasının Prezidenti, qardaşım Prezident Məsud Pezeşkianın Azərbaycan xalqına və dövlətinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə etməsi xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Dost və qardaş xalqlarımız əsrlər boyu bir-birinə dayaq olub və həm yaxşı, həm də çətin günlərdə daim bir-birimizin yanında olmağa davam edəcəyik".

## Prezident İlham Əliyevin sosial media hesablarında Gürcüstana dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb



## Mehriban qonşuluq, nümunəvi tərəfdaşlıq

### Azərbaycan-Gürcüstan əməkdaşlığı Cənubi Qafqazda sülh və tərəqqinin qarantıdır

Dövlətimizin başçısının Azərbaycan-Gürcüstan münasibətlərini digər ölkələr üçün nümunə göstərməsi də təsadüfi deyil. Azərbaycan Prezidenti bildirdi ki, hər iki ölkə qlobal ticarətin mərkəzi oyunçusuna çevrilir və bu uğurun təməlində rəsmi Bakı və Tbilisinin eyni hədəflərə istiqamətlənmiş siyasəti, bir-birini tamamlayan infrastruktur layihələri dayanır. Bu, münaqişələrdən əziyyət çəkən digər regionlar üçün əsl əməkdaşlıq modelidir. Eyni zamanda tarixi bağlar, mədəni əlaqələr dövlətlərarası rəsmi əlaqələrin onurğa sütunu kimi təqdim olunur.

5

## TDT institusional və funksional baxımdan yeni mərhələyə qədəm qoyur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi, gələcəyə strateji baxışı, XXI əsrin hər sahədə türk birliyi əsrinə çevrilməsi istiqamətində göstərdiyi əzmkarlıq sayəsində son illər türk dünyasının əsas mərkəzlərindən birinə çevrilmiş Azərbaycanın evsahibliyi ilə keçən bu toplantı həm regional əməkdaşlığın genişləndirilməsi, həm də ortaq strateji hədəflərin müəyyənləşdirilməsi baxımından olduqca vacib toplantı idi.

Tədbirdə Azərbaycanın Baş naziri Əli Əsədov, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel, Qazaxıstanın Baş naziri Oljas Bektenov, Özbəkistanın Baş naziri Abdulla Aripov, Qırğız Respublikasının Baş naziri Adılbek Kasıməliyev, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nökerquli Ataquliyev iştirak edirdilər.

7

## Qarabağ üzərindən siyasi spekulyasiya qəbuledilməzdir

### Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu ola bilməz




Qarabağın Azərbaycanın tərkib hissəsi olması hər hansı kənar dövlətin tanımasından asılı olan bir lütf deyil. Bu, dəyişməz tarixi faktlara, beynəlxalq hüququn prinsiplərinə və Vətən müharibəsinin, antiterror tədbirlərinin yaratdığı yeni reallığa söykənir. Sadəcə, Rusiya və Ermənistan yox, digər ölkələr də öz aralarındakı münasibətləri aydınlaşdırarkən Azərbaycanın daxili işlərindən, ərazi bütövlüyü mövzusundan alət kimi istifadə edə bilməz. XİN xatırladır ki, Rusiya Federasiyası da daxil olmaqla, dünya birliyi heç vaxt Azərbaycanın ərazi bütövlüyünü rəsmi şəkildə şübhə altına almayıb. O səbəbdən, "kim birinci tanıdı" tipli diskussiyalar mənasızdır və regiondakı kövrək sabitliyə xidmət etmir.

8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri

# "Gürcüstana gəlişiniz hamımız üçün xüsusi şərəfdir"

## Tbilisinin Beynəlxalq Hava Limanında qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Gürcüstana dövlət səfərinə gedib.**

AZƏRTAC xəbər verir ki, Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili və digər rəsmi şəxslər qarşıladılar.



## Prezident İlham Əliyev Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Qəhrəmanlar Memorialında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı memorialın önünə əklil qoydu.

Sonra Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirildi.



## Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü





**Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, "yaşıl enerji", nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunuldu.

Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulandı, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edildi.

Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulandı.

Azərbaycan və Gürcüstan prezidentləri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluqlarını bildirdilər, əlaqələrimizin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Görüşdən sonra dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazdı.

## Prezident İlham Əliyev Tbilisidə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib

**Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı abidənin önünə əklil qoydu.



## Prezident İlham Əliyevin Tbilisidə rəsmi qarşılanma mərasimi olub





**Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın paytaxtı Tbilisidə rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirildi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri

# “Gürcüstana gəlişiniz hamımız üçün xüsusi şərəfdir”

## Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub.

## Prezident İlham Əliyevin Baş nazir İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü olub.

## Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış etdi.



### Baş nazir İrakli Kobaxidzenin bəyanatı

- Salam, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Media nümayəndələri.

Əvvəlcə Gürcüstanın əziz dostu cənab İlham Əliyevə Gürcüstana səfər etdiyinə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Onun Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.

Cənab Prezident, Sizi Gürcüstanda qəbul etmək və həm ikitərəfli əməkdaşlığa aid məsələləri, həm də regiondakı cari prosesləri müzakirə etmək imkanından məmnunam. Mən bu fürsətdən istifadə edərək, Bütün Gürcüstanın Katolikos Patriarxı, Zati-müqəddəsləri II İlyanın vəfatı ilə əlaqədar Azərbaycanın və şəxsən Sizin verdiyiniz başsağlığına görə dərin təşəkkürümü bildirirəm.

Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk. Mən həmçinin həmin münasibətlərin inkişafında xüsusi rol oynayan nümayəndə heyətinin üzvlərinə, hökumət üzvlərinə və səfirlərə təşəkkür edirəm.

Mən Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdarı qalacaq. Bu gün keçirilmiş görüşümüz çərçivəsində biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik.



Biz bu xüsusda Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc-yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsləri qəti şəkildə dəstəkləyir. Lazım olan təqdirdə biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq. Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta dəhlizin vacibliyini, o cümlədən Qara dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır.

Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq.

Görüş zamanı biz həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik.

Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etməkdə davam edəcək. Prezidentin səfəri bu baxımdan mühüm rol oynayır.

Yekun olaraq, cənab Prezident, dövlətlərimiz arasında münasibətlərin gücləndirilməsinə verdiyiniz şəxsi töhfəyə, səfərə gəldiyinizə və məhsuldar əməkdaşlığa görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, ikitərəfli münasibətlərin dərinləşməsi və inkişafına verdiyiniz şəxsi töhfəyə görə xüsusən minnətdaram. Çox sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir.

Əziz dostlar.

Cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş Gürcüstanda olmaq mənim üçün böyük şərəfdir. Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Fürsətdən istifadə edərək, Gürcüstanın əldə etdiyi uğurlar münasibətilə Sizi və hökumətinizi təbrik etmək istəyirəm.

Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir. Gürcüstanda çox müsbət sərmayə iqlimi var və məhz buna görə bir çox investorlar, o cümlədən Azərbaycan investorları Gürcüstana böyük maraq göstərirlər. Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək.

Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik.

Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa



üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim.

Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. "Cənub qaz dəhlizi" də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu, bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Fürsətdən istifadə edərək, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik arzulayıram. Dəvətə və qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri

# "Gürcüstana gəlişiniz hamımız üçün xüsusi şərəfdir"

## Azərbaycan Respublikasının Prezidentinin şərəfinə lanç



Aprelin 6-da Gürcüstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Tbilisidə Gürcüstanın hakim partiyasının ("Gürcü Arzusu") fəxri sədri Bidzina İvanaşvilinin adından lanç verilib.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Tbilisidə Gürcüstan Milli Muzeyində olub

**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Gürcüstan Milli Muzeyində olub.**

AZƏRTAC xəbər verir ki, Gürcüstan Milli Muzeyində bu ölkənin tarixinin müxtəlif dövrlərinə aid eksponatlar sərgilənir.

Muzeyin "Gürcüstanda Daş dövrü" ekspozisiyası ölkədə aşkara çıxarılmış ən vacib arxeoloji irsi təqdim edir. İndiyədək Gürcüstanda 500-dən çox Daş dövrü abidəsi qeydə alınıb. Ekspozisiyada Dmanisidə (Kvemo Kartli bölgəsi) aşkarlanan tapıntılar xüsusi yer tutur. Burada təxminən 1,8 milyon il əvvələ aid insan qalıqları və əmək alətləri var. "Arxeoloji xəzinə" ekspozisiyasında isə Gürcüstanda aşkar edilmiş və eramızdan əvvəl III minillikdən eramızın IV əsrinə qədər olan dövrə aid nadir zərgərlik məmulatları nümayiş olunur.

Ekspozisiyalarla tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından Gürcüstan Milli Muzeyinə "Azərxalça"nın istehsalı olan beş nadir xalçadan ibarət "Mədəni irsə yeni baxış" adlı kolleksiya hədiyyə edildi. Kolleksiya qədim xalça nümunələrinin müasir interpretasiyasını təqdim edir. Kolleksiyaya klassik elementlərin, xüsusilə "Xətai" və "Çələbi" motivlərinin müasir kompozisiyada sintezi olan "Naxçıvan", Qarabağ xalça məktəbinin zəngin ornamentləri ilə yenidən işlənən "Açmayumma", ritmik və təkrarlanan elementlərlə kainat harmoniyasını xatırladan "Qarabağ", "Bəndi-Rumi" kompozisiyası və Şərq sənət ənənələrinin müasir ifadəsi olan "Ovçuluq" və 2500 illik tarixə malik, dünyanın ən qədim xovlu xalçasının müasir interpretasiyası olan "Pazırık" xalçaları daxildir.

Muzeyin rəhbərliyi hədiyyələrə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlıq bildirdi.







## Birinci xanım Mehriban Əliyeva Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub

**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımına muzey haqqında məlumat verildi.

Muzeyin binası vaxtilə Tbilisidə yaşayan Mirzə Fətəli Axundzadənin vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən, 1982-ci ildə binada Mirzə Fətəli Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunaraq həmin vaxtdan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.








Gürcüstan Prezidentinin sərəncamına əsasən, 2007-ci ildə mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib və 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Elə həmin il mayın 8-də keçirilmiş muzeyin açılış mərasimi Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunub.

Hazırda muzeyin nəzdində fəaliyyət göstərən mədəniyyət mərkəzində xalçaçılıq, musiqi, o cümlədən muğam, rəsm və dil kursları var.

Əsas məqsədi mədəniyyətimizi və xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq və təbliğ etmək olan muzeydə bu ölkədə fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid əşyalar tədqiq edilir, onların sərgiləri keçirilir.



Burada milli musiqi alətlərimizin və geyimlərimizin, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələrin, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatların və digər maraqlı əşyaların nümayiş olunduğu 6 ekspozisiya zalı var.

Ekspozisiyada Gürcüstanda yaşayan etnik azərbaycanlılar tərəfindən toxunmuş və Milli Muzeydə saxlanılan ənənəvi xalçalar da təqdim olunur. Onların yaradılma tarixi yüzilliklərə gedib çıxır. Bu xalçaların toplanması və elmi cəhətdən öyrənilməsi XIX əsrin ortalarından - məhz Gürcüstan Milli Muzeyinin hüquqi varisi olduğu "Qafqaz Muzeyi" dövründən başlayır.

Azərbaycan-Gürcüstan dostluğuna həsr olunmuş zalda hər iki ölkənin heykəltaraşlarının xalqlarımızın dostluq münasibətlərini əks etdirən əsərləri, Tbilisi şəhərində Ulu Öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, M.F.Axundzadə adına məktəbin və kitabxananın, Bakı şəhərindəki Tbilisi prospektinin və "Dostluq abidəsi"nin fotoşəkilləri yer alıb.

Mədəni tədbirlər və konfransların da keçirildiyi muzeydə Mirzə Şəfi Vazehin 1820-1830-cu illərdə Gəncədə qurduğu "Divani-Hikmət" ədəbi məclisinin fəaliyyətini davam etdirən "Müdriklər Məclisi" yaradılıb. Burada Tbilisi şəhərində yeganə olan Azərbaycan dilində kitabxana və incəsənət qalereyası fəaliyyət göstərir.

Sonra Azərbaycanın birinci xanımı muzeyin xatirə kitabına ürək sözlərini yazdı. Uşaqlar tərəfindən toxunmuş kiçik xalçalar xanım Mehriban Əliyevaya hədiyyə olundu.

## Birinci xanım Mehriban Əliyevanın şərəfinə lanç



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın şərəfinə Gürcüstanın birinci xanımı Tamar Baqrationinin adından lanç verilib.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri

# “Gürcüstana gəlişiniz hamımız üçün xüsusi şərəfdir”

## Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri başa çatıb



Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Gürcüstanın Baş naziri İrakli Kobaxidze yola saldı.

## Mehriban qonşuluq, nümunəvi tərəfdaşlıq

### Azərbaycan-Gürcüstan əməkdaşlığı Cənubi Qafqazda sülh və tərəqqinin qarantıdır

**Azərbaycan və Gürcüstan münasibətləri dövrün çağırışlarına uyğun inkişaf edir. Hazırda Bakı və Tbilisi öz milli hədəfləri çərçivəsində səmərəli işbirliyi qurublar. Xüsusən iqtisadi və logistik müstəvidə Azərbaycan və Gürcüstan arasında çoxşaxəli və sağlam qonşuluq münasibətləri mövcuddur.**

Aprelin 6-da Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri, səfər çərçivəsində keçirilən görüşlər, səsləndirilən bəyanatlar Bakı və Tbilisinin regional çağırışlara, qlobal iqtisadi fürsətlərə vahid və qətiyyətli mövqedən yanaşdığını bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin Gürcüstanın dövlət başçısı Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze ilə görüşlərində ikitərəfli əlaqələrin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edildi. Əməkdaşlığın müxtəlif istiqamətlərdə - siyasi, iqtisadi, o cümlədən energetika, "yaşıl enerji", nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərin genişlənməsində roluna toxunuldu. Ardınca liderlər mətbuata bəyanatla çıxış etdilər.

Prezident İlham Əliyev bəyanatında Gürcüstan və Azərbaycanın hər zaman bir yerdə olduğunu vurğuladı. Cənubi Qafqazın sülh, təhlükəsizlik və əməkdaşlıq mərkəzinə çevrildiyini bildirən dövlətimizin başçısı Gürcüstanın rolunu xüsusi qeyd etdi. Prezident diqqətə çatdırdı ki, Gürcüstanla tarixi əlaqələrimiz dövlətlərarası münasibətlər üçün möhkəm zəmindir: "Orta dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir, bu, bizim üçün əsas nəqliyyat dəhlizidir. Bu gün yeni layihələr də irəli sürülür. Bizim münasibətlər digər qonşu ölkələr üçün nümunə ola bilər. Əminəm ki, bu yolla bundan sonra da uğurla gedəcəyik". Prezidentimiz əminliklə vurğuladı ki, Gürcüstana səfəri iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək: "Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Azərbaycan və Gürcüstan hər zaman olduğu kimi bir yerdədir".

Prezident İlham Əliyevin Tbilisidə səsləndirdiyi fikirlər Azərbaycan-Gürcüstan münasibətlərinin regional təhlükəsizlik və qlobal logistika üçün model xarakterli ittifaq olduğunu təsdiqlədi. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasındakı ticarət əməliyyatlarının Gürcüstan üzərindən həyata keçirildiyini qeyd etməklə Tbilisinin regiondakı konstruktiv və birləşdirici rolunu minnətdarlıqla vurğuladı. Bu, regionun gələcəyinin kənar güclər tərəfindən yox, məhz yerli dövlətlərin qarşılıqlı etimadı ilə qurulacağına dair işarə idi.

Dövlətimizin başçısının Azərbaycan-Gürcüstan münasibətlərini digər ölkələr üçün nümunə göstərməsi də təsadüfi deyil. Azərbaycan Prezidenti bildirdi ki, hər iki ölkə qlobal ticarətin mərkəzi oyunçusuna çevrilir və bu uğurun təməlində rəsmi Bakı və Tbilisinin eyni hədəflərə istiqamətlənmiş siyasəti, bir-birini tamamlayan infrastruktur layihələri dayanır. Bu, münaqişələrdən əziyyət çəkən digər regionlar üçün əsl əməkdaşlıq modelidir. Eyni zamanda tarixi bağlar, mədəni əlaqələr dövlətlərarası rəsmi əlaqələrin onurğa sütunu kimi təqdim olunur. Bunu xalqlar arasındakı birliyin və strateji kursun dəyişməz qalacağına dair bir təminat mesajı kimi də dəyərləndirmək olar.

Baş nazir İrakli Kobaxidze mətbuata bəyanatında Prezident İlham Əliyevi Gürcüstanın dəyərli dostu adlandıraraq dövlət başçısının səfərinin hər zaman böyük şərəf olduğunu söylədi. Kobaxidzenin açıqlaması bir daha göstərdi ki, Azərbaycan-Gürcüstan münasibətləri yüksəksəviyyəli şəxsi etimada və qarşılıqlı hörmətə söykənir. Baş nazirin Azərbaycan Prezidentini "Gürcüstanın dəyərli dostu" adlandırması və bu səfəri böyük şərəf kimi qiymətləndirməsi cənab İlham Əliyevin şəxsiyyətinə, nüfuzuna və apardığı uğurlu regional siyasətə verilən yüksək qiymətdir. Gürcüstan tərəfi dövlətimizin başçısı İlham Əliyevi etibarlı və strateji tərəfdaş kimi görür. Çünki Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən layihələrin heç biri kağız üzərində qalmır və sürətlə reallaşır. Prezident İlham Əliyev Gürcüstan üçün, sadəcə, qonşu ölkənin rəhbəri yox, eyni zamanda regionun iqtisadi təhlükəsizliyini təmin edən, çətin anlarda dəstəyini əsirgəməyən, strateji gələcəyi birlikdə inşa edən müttəfiqdir.

Bakı və Tbilisi istənilən çətinlikdə bir-birinin yanında olub. 44 günlük Vətən müharibəsi zamanı Gürcüstanın mövqeyi diplomatik və strateji baxımdan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi. Tbilisi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü hər zaman dəstəkləyib. Gürcüstanda yaşayan soydaşlarımız müharibə dövründə Azərbaycan ordusuna böyük mənəvi dəstək nümayiş etdirdilər, humanitar yardımlar topladılar və Azərbaycanın haqlı davasını yerli ictimaiyyətə çatdırdılar. Müharibədən sonrakı dövrdə Gürcüstanın vasitəçiliyi ilə Azərbaycan-Ermənistan arasında humanitar məsələlərin həllində mühüm irəliləyişlər əldə olundu.

Azərbaycan-Gürcüstan münasibətlərinə təkcə iki dövlətin əməkdaşlığı prizmasından yanaşmaq doğru olmaz. İkitərəfli əlaqələr Cənubi Qafqazın taleyini və Avrasiyanın enerji-nəqliyyat xəritəsini müəyyən edən strateji xətdir. Bakı və Tbilisi arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. Azərbaycan və Gürcüstan arasındakı strateji işbirliyi beynəlxalq arenalarda da uğurla davam etdirilir. Ölkələrimiz BMT, ATƏT, Avropa Şurası və digər nüfuzlu qurumlarda sıx təmasdadırlar. Bu koordinasiya müxtəlif qlobal və regional təşkilatlarda özünü büruzə verir və hər iki tərəfin milli maraqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Gürcüstan iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir. SOCAR-ın Gürcüstandakı geniş fəaliyyəti buna bariz nümunədir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və "Cənub qaz dəhlizi" regionun iqtisadi onurğasını təşkil edir. Gürcüstan Azərbaycan qazının Avropaya çatdırılmasında əvəzolunmaz tranzit ölkədir. Bu tərəfdaşlıq Gürcüstanın enerji təminatında da həlledici amildir. Rəsmi göstəricilərə görə, qonşu ölkənin qaz ehtiyacının 80 faizdən çoxu məhz Azərbaycan tərəfindən ödənilir. Bununla yanaşı, tərəflər "yaşıl enerji" sahəsində də müştərək addımlar atırlar. Alternativ enerji mənbələrinin mənimsənilməsi hər iki hökumətin bu sahədəki məsuliyyətini və gələcək inkişaf hədəflərini təsdiqləyir. Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsi (Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan) tərəfdaşlığı bərpaolunan enerji sahəsinə daşıyır.

Qlobal geosiyasi vəziyyət Azərbaycan və Gürcüstan üzərindən keçən qlobal nəqliyyat yollarının əhəmiyyətini daha da artırıb. Hər iki dövlətin nəqliyyat şəbəkələrini uzlaşdırılmış şəkildə modernləşdirməsi və rəqəmsal innovasiyaları tətbiq etməsi bu sahədə daha yüksək səmərəliliyə yol açır.

Nəticə etibarilə dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, mütəmadi təmasları siyasi və iqtisadi əlaqələri daha da dərinləşdirir. Şübhəsiz, Azərbaycan Prezidentinin Gürcüstana növbəti dövlət səfəri də tərəflər arasındakı əməkdaşlığın dərinləşməsinə, münasibətlərin müsbət istiqamətdə irəliləməsinə xidmət edəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Gürcüstan mətbuatı Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfərini geniş işıqlandırıb

**Gürcüstanın aparıcı televiziyaları və informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfərini geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, yerli mətbuat ali qonağın şərəfinə Tbilisinin mərkəzi küçə və prospektlərində Azərbaycanın Dövlət bayrağının asıldığını xüsusi qeyd edib.

"1tv.ge" yazır ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu səfəri iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. "Bu gün müzakirə edilən məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir", - deyə sayt yazıb.

Eyni zamanda dövlətimizin başçısının çıxışına istinadla yayılan silsilə materiallarda iqtisadi sahədə əhəmiyyətli nailiyyətlərin əldə olunmasına da xüsusi yer ayrılıb. Prezident İlham Əliyevin mətbuata bəyanatında yer alan fikirlərinə diqqət çəkilərək qeyd olunub ki, ilin sonunadək iki ölkə arasında ticarət dövriyyəsinin həcmi bir milyardı ötə bilər.

"Rustavi2.ge" portalında bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulduğu xüsusi vurğulanıb.

Gürcüstan və Azərbaycan arasındakı ikitərəfli münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslandığını qeyd edən "Imedinews.ge" saytı bunu bütün qonşu dövlətlər üçün nümunə göstərib.

"Info9.ge" portalı isə yazır ki, Azərbaycan enerji təhlükəsizliyi baxımından Gürcüstan üçün etibarlı tərəfdaşdır.

"Interpressnews.ge" portalı Prezident İlham Əliyevə istinadla qeyd edib ki, Gürcüstan dinamik şəkildə inkişaf edir, iqtisadi artımı çox göz qabağındadır, ölkədə çox əlverişli investisiya mühiti yaradılıb.

"Primitime.ge" yazır ki, Azərbaycan Prezidentinin çıxışında iki ölkə arasında münasibətlərin daha dinamik şəkildə inkişafından məmnunluq ifadə olunub. Bildirilir ki, Azərbaycan və Gürcüstan bütün beynəlxalq təşkilatlarda bir-birinin ərazi bütövlüyünü, suverenliyini və sərhədlərin toxunulmazlığını dəstəkləyir. Bu, hər zaman belə olub və gələcəkdə də belə olacaq.

"İpress.ge" saytı da Prezident İlham Əliyevin fikirlərinə yer verib: "Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. "Cənub qaz dəhlizi" də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu, bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir".














tvpirveli.ge yazır ki, Prezident İlham Əliyev mətbuata bəyanatında bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparıldığını bildirib. Əlavə edib ki, nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

"Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil", - deyə Azərbaycan Prezidenti bildirib.

kvirispalitra.ge də dövlətimizin başçısının fikirlərinə geniş yer ayırıb: "Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim. Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir".

Bundan başqa, formulanews.ge, netgazeti.ge, cbw.ge, georgiatoday.ge, bpn.ge, commersant.ge, ipress.ge, primetime.ge, 2020news.ge, tabula.ge, geotimes.com.ge, bm.ge, aktual.ge, 24news.ge, palitranews.ge, apsny.ge saytlarında və digər media orqanlarında da Azərbaycan Prezidentinin səfəri geniş işıqlandırılıb.

Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın hava limanında qarşılanma mərasimi, eləcə də dövlətimizin başçısının Gürcüstan Prezidentinin iqamətgahında rəsmi qarşılanma mərasimi, Prezident Mixeil Kavelaşvili ilə görüşü barədə məlumatlar əksini tapıb.

Gürcüstan mətbuatının ən çox diqqət yetirdiyi məqam isə Prezident İlham Əliyevlə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında görüşdən sonra dövlətimizin başçısının mətbuata bəyanatında səsləndirdiyi fikirlər olub.

Dövlətimizin başçısının Cənubi Qafqazda sülh və təhlükəsizlik barədə fikirləri də geniş işıqlandırılıb: "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim", - deyə Prezident İlham Əliyevə istinadla bildirilir.

Qeyd edək ki, ümumilikdə qonşu ölkənin 50-dən çox portal və televiziyasında 90-a yaxın material yayımlanıb.

# Seneqal Respublikasının Prezidenti zati-aliləri cənab Bassiru Diomaye Fayeyə

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Seneqal arasındakı dostluq münasibətlərinin və əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli qaydada uğurla davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Seneqal xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2026-cı il*

## "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 92** **Bakı şəhəri, 6 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1312 (Cild I); 2024, № 3, maddə 356,№ 10, maddə 1167) ilə təsdiq edilmiş "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 4.4-cü bəndində hər iki halda "6000000 (altı milyon)" sözləri "1000000 (bir milyon)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# *Nazirlər Kabinetində müşavirə:*
# Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib



**Aprelin 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə bir sıra mərkəzi, şəhər və rayon hakimiyyət orqanlarının rəhbər şəxslərinin iştirakı ilə müşavirə keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, müşavirədə martın 26-28-də respublikanın leysan yağışları və sel sularının ən kəskin ziyan vurduğu bir sıra şəhər və rayonlarında nəticələrin aradan qaldırılması ilə bağlı məsələlər müzakirə olunub, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib.

# Milli Məclisin komitələrinin birgə iclası keçirilib

**Aprelin 6-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin İnsan hüquqları komitəsi ilə birgə videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasla 6 məsələ müzakirə edilib.**



Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin birinci məsələsinin - Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) komitələr tərəfindən birgə müzakirə olunacağını söyləyib, sənəddə təklif olunan dəyişikliklərin vacibliyindən danışıb. Qeyd edib ki, qanun layihəsi süni intellekt texnologiyalarından sui-istifadə hallarının qarşısının alınmasına, şəxslərin hüquq və azadlıqlarının, şərəf və ləyaqətinin qorunmasına xidmət edir.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov layihənin mahiyyəti barədə məlumat verib. Bildirilib ki, sənəd süni intellekt texnologiyalarından istifadə edilməklə reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi daşıyır. Cinayət Məcəlləsinə əlavə edilən iki yeni maddələrə əsasən, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması, habelə pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişiklik edilərək cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir. Eyni zamanda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər və məhdudiyyətlər müəyyən olunur.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış edərək, ölkəmizə qarşı süni intellekt əsaslı hücumların coğrafiyasından danışıb, süni intellektin milli təhlükəsizlik üçün bir sıra təhdidlər yaratdığını qeyd edib, bu məsələdə beynəlxalq dəstək qazanmaq üçün digər ölkələrlə birlikdə, müvafiq model qanunlar çərçivəsində əməkdaşlığın əhəmiyyətindən söhbət açıb.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev süni intellekt texnologiyalarından istifadə etməklə yaradılan saxta görüntülərin ayrı-ayrı şəxslərin nüfuzuna xələl yetirdiyini, ümumilikdə ictimai sabitliyə təhlükə yaratdığını bildirib. O qeyd edib ki, belə saxta məzmunların kütləvi şəkildə yayılması informasiya mühitini alətə çevirərək cəmiyyətdə inamsızlıq yaradır, bəzi xarici qüvvələr məhz bu imkanlardan istifadə edərək ictimai rəyi manipulyasiya etməyə, dövlətin beynəlxalq imicinə zərər vurmağa çalışır. Komitə sədri təqdim olunan qanun layihəsinin yalnız hüquqi deyil, həm də strateji təhlükəsizlik baxımından önəmli olduğunu vurğulayıb.

Məsələ ətrafında aparılan müzakirələrdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, deputatlar Tənzilə Rüstəmxanlı, Elçin Mirzəbəyli, Müşfiq Məmmədli, Azay Quliyev, Hikmət Məmmədov, Elman Nəsirov, Razi Nurullayev, parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış edərək qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əhəmiyyətindən söhbət açıblar, bəzi qeyd və təkliflərini açıqlayıblar.

Tədbirdə iştirak edən Milli Kibertəhlükəsizlik Mərkəzinin nümayəndələri Orxan Abdulkərimli, Cəlal Rəsulzadə, Elvin Balacanov müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildiriblər, deputatların suallarını cavablandırıblar.

Sonra iclasda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) təqdim edilib. Layihədə təklif olunan dəyişikliklərin əsas məqsədi dövlət vəsaitlərindən istifadə ilə bağlı məsuliyyət mexanizminin təkmilləşdirilməsi, sanksiyaların fərdiləşdirilməsi və hüquqi tənzimləmənin dəqiqləşdirilməsidir. Təklif olunan dəyişikliyə əsasən, Cinayət Məcəlləsinin 308-1-ci maddəsində cinayətin predmeti olan vəsaitin əhatə dairəsi genişləndirilərək, dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti də maddənin təsir dairəsinə salınır.

Onlayn iclasda habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) nəzərdən keçirilib. Layihəyə əsasən, "İCMAL" informasiya sistemi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin tərkibində "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsistemi, yəni "İCMAL" altsistemi kimi yenidən təşkil olunur və buna uyğun olaraq məcəllənin müvafiq maddələrində dəyişikliklər edilir. Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsinə əlavə edilməsi nəzərdə tutulan "Uşaqda zorakılıq hərəkətlərinin əlamətlərinin aşkar edilməsi barədə məlumatın verilməməsi", "Uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınmaması" və "Uşağa qarşı cismani cəzanın tətbiqi" adlı maddələrdə "Uşaq hüquqları haqqında" qanunun tətbiqi ilə bağlı inzibati məsuliyyət məsələləri təsbit edilir. Məcəlləyə edilən digər dəyişikliyə əsasən, "dövlətə məxsus olan hüquqi şəxslər" maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulmasına görə məsuliyyət daşıyan subyektlər sırasına əlavə edilir və bütün hallarda cərimə "inzibati xətanın bilavasitə obyekti olmuş vəsaitin yüz faizi məbləğində" müəyyən ediləcək.

Daha sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Layihəyə əsasən Cinayət Məcəlləsinə terror təşkilatı yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etməyə görə cinayət məsuliyyətini müəyyən edən yeni 214-4-cü maddə əlavə olunur. Bununla yanaşı, Cinayət Məcəlləsinin 282-ci maddəsi yeni redaksiyada verilir. Belə ki, 282.1-ci maddəyə elmi-texniki potensialı zəiflətmək məqsədi, habelə kritik informasiya infrastrukturu, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrinin normal fəaliyyətinin pozulması kimi yeni obyektlər əlavə edilir. Həmçinin təxribatın törədilmə üsullarına əməli süni intellekt texnologiyalarından və xüsusi proqram təminatlarından istifadə halları da daxil edilir. 282.2-ci maddədə bir sıra yeni ağırlaşdırıcı hallar nəzərdə tutulur. Maddənin Qeyd hissəsinə əsasən, təxribatın hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

İclasda habelə "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Sənəddə "operativ nəqliyyat vasitələri" anlayışı yeni redaksiyada təqdim edilir. Dəyişiklikdə prokurorluq orqanlarına məxsus olan və kriminalistik avadanlıqlarla təmin edilərək hadisə yerində təxirəsalınmaz prosessual hərəkətlərin yerinə yetirilməsi, növbətçi əməkdaşların hadisə yerinə çatdırılması və ya təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin digər operativ xidmətlərlə eyni hüquqi statusa malik olması nəzərdə tutulur.

İclasın sonunda "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə baxılıb. Diqqətə çatdırılıb ki, sazişin imzalanmasında əsas məqsəd hər iki dövlət arasında avtomobil daşımalarının təhlükəsizliyini artırmaq, yol hərəkətini yaxşılaşdırmaq, sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasını və dəyişdirilməsini təmin etməkdir.

Onlayn iclasın gündəliyində olan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Türkiyənin baş prokuroru Bakıdadır

**Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti Kamran Əliyevin dəvəti ilə ölkəmizdə səfərdədir. Bu gün Muhsin Şəntürk Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də məzarını ziyarət edib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar. Həmçinin Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi, eləcə də Zəfər parkında yerləşən Zəfər abidəsi ziyarət edilib.

Baş prokuror Kamran Əliyevlə türkiyəli həmkarı arasında baş tutan görüş zamanı iki dövlət arasında qardaşlıq və əməkdaşlıq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın dinamik inkişaf etdiyi vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlərin əsasında dayanan və Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülmüş "Bir millət, iki dövlət" konsepsiyası hazırda dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında mövcud olan sıx dostluq münasibətləri və siyasi iradə sayəsində daha da genişlənərək bütün sahələrdə, o cümlədən prokurorluq və hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verir. Bu əməkdaşlıq hər iki dövlətin hüquqi sistemlərinin inkişafına, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə və beynəlxalq hüquqi əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərir.

Görüşdə Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması, müasir idarəetmə mexanizmlərinin tətbiqi və institusional inkişaf istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Muhsin Şentürk təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini, iki qardaş ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər istiqamətlər üzrə əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

Bundan başqa, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi müzakirə olunub, hər iki ölkənin prokurorluq orqanlarının beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının genişləndiyi, xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorluqlarının Şurası çərçivəsində qarşılıqlı fəaliyyətin gücləndirildiyi, hüquqi əməkdaşlıq, təcrübə mübadiləsi və birgə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı Muhsin Şentürkə iki qardaş ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə təltif olunduğu "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.

Görüşdə həmçinin Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.

Qeyd edək ki, səfər çərçivəsində Muhsin Şentürkün ölkəmizdə həyata keçirilən hüquq islahatları və aparılan institusional dəyişikliklərlə tanış olmaq məqsədilə bir sıra yüksəkvəzifəli şəxslərlə rəsmi görüşlər keçirməsi planlaşdırılır.

# Enerji böhranı fonunda Türk Dövlətləri Təşkilatında iqtisadi əməkdaşlıq yeni mərhələyə qədəm qoyur

**Türk dünyası zəngin təbii resursları, əlverişli coğrafi mövqeyi və artan iqtisadi potensialı ilə qlobal enerji sistemində mühüm aktora çevrilmək imkanına malikdir. Azərbaycan, Qazaxıstan və Türkmənistan kimi ölkələr böyük neft və qaz ehtiyatlarına sahib olmaqla yanaşı, dünya bazarlarının sabit təchizatında mühüm rol oynayır. Türkiyə isə Şərq ilə Qərb arasında enerji körpüsü funksiyasını yerinə yetirərək bu resursların təhlükəsiz və fasiləsiz şəkildə Avropaya və digər regionlara çatdırılmasında əsas tranzit ölkə kimi çıxış edir.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli iqtisadçı-ekspert Canip Nuray bildirib.

Onun sözlərinə görə, məhz bu qarşılıqlı tamamlayıcı iqtisadi struktur Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində enerji əməkdaşlığını daha da aktuallaşdırır. Xüsusilə son illərdə həyata keçirilən iri infrastruktur layihələri - boru kəmərləri, limanlar, dəmir yolu xətləri və logistika mərkəzləri - üzv ölkələrin iqtisadi əlaqələrini keyfiyyətcə yeni mərhələyə yüksəldib.

"Qlobal enerji böhranı fonunda Avropa bazarında alternativ təchizat mənbələrinə artan tələbat TDT ölkələrinin rolunu daha da gücləndirir. Xüsusilə Azərbaycan qazının Avropaya nəqli, Qazaxıstan neftinin müxtəlif marşrutlarla dünya bazarına çıxarılması və Türkmənistanın potensialının gələcək layihələrdə istifadəsi bu əməkdaşlığın geniş perspektivlərindən xəbər verir. Çin ilə Avropa arasında alternativ ticarət marşrutu kimi formalaşan Orta dəhliz TDT ölkələrinin logistika imkanlarını artırmaqla yanaşı, onların qlobal iqtisadi sistemdə çəkisini də yüksəldir. Enerji resurslarının daşınması ilə paralel olaraq, sənaye məhsulları, kənd təsərrüfatı malları və texnoloji avadanlıqların daşınması region iqtisadiyyatının diversifikasiyasına töhfə verir. Enerji əməkdaşlığının mühüm istiqamətlərindən biri də bərpaolunan enerji sahəsində birgə təşəbbüslərin genişləndirilməsidir. Qlobal iqlim dəyişiklikləri və "yaşıl iqtisadiyyat"a keçid çağırışları fonunda TDT ölkələri Günəş, külək və hidroenerji potensialından daha səmərəli istifadə etmək imkanına malikdir. Bərpaolunan enerji ilə yanaşı, enerji səmərəliliyinin artırılması, rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi də əməkdaşlığın əsas istiqamətlərindəndir. "Ağıllı şəbəkələr", enerji saxlama texnologiyaları və rəqəmsal idarəetmə sistemləri TDT məkanında enerji sektorunun modernləşdirilməsinə imkan verə bilər. Bu isə uzunmüddətli perspektivdə həm iqtisadi dayanıqlığı, həm də ekoloji tarazlığı təmin edəcək", - deyə ekspert vurğulayıb.

Canip Nuray bildirib ki, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi də vacibdir. Gömrük prosedurlarının sadələşdirilməsi, vahid tranzit sistemlərinin yaradılması və ticarət maneələrinin aradan qaldırılması region daxilində iqtisadi əlaqələri daha da gücləndirəcək: "Rəqəmsal ticarət platformalarının inkişafı isə sahibkarlar üçün yeni imkanlar açacaq. Qlobal enerji böhranı Türk Dövlətləri Təşkilatı üçün yalnız risk deyil, eyni zamanda böyük strateji fürsətdir. Bu fürsətin reallaşdırılması üzv ölkələrin koordinasiyalı fəaliyyəti, qarşılıqlı etimad və ortaq strateji baxışından asılıdır. Mövcud potensialdan səmərəli istifadə edildiyi təqdirdə, TDT məkanı yaxın gələcəkdə yalnız enerji təhlükəsizliyinin təminatçısı deyil, həm də Avrasiya regionunda iqtisadi inteqrasiyanın aparıcı mərkəzlərindən birinə çevrilə bilər".



# TDT institusional və funksional baxımdan yeni mərhələyə qədəm qoyur

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin baş nazirlərinin Bakıda keçirilən ikinci görüşü son günlərin mühüm iqtisadi-siyasi hadisələrindən biri kimi yadda qaldı. Bu görüş türk dünyasında siyasi və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi istiqamətində mühüm addımlardan biri oldu.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi, gələcəyə strateji baxışı, XXI əsrin hər sahədə türk birliyi əsrinə çevrilməsi istiqamətində göstərdiyi əzmkarlıq sayəsində son illər türk dünyasının əsas mərkəzlərindən birinə çevrilmiş Azərbaycanın evsahibliyi ilə keçən bu toplantı həm regional əməkdaşlığın genişləndirilməsi, həm də ortaq strateji hədəflərin müəyyənləşdirilməsi baxımından olduqca vacib toplantı idi.

Tədbirdə Azərbaycanın Baş naziri Əli Əsədov, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel, Qazaxıstanın Baş naziri Oljas Bektenov, Özbəkistanın Baş naziri Abdulla Aripov, Qırğız Respublikasının Baş naziri Adılbek Kasıməliyev, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nökerquli Ataquliyev iştirak edirdilər.

## Birliyimizin gücü ilə daha yüksək pilləyə

Görüş iştirakçılarını qəbul edərkən Prezident İlham Əliyev bildirdi: "Əminəm ki, bu görüşün çox böyük faydası olacaq. Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".

Dövlətimizin başçısı onu da diqqətə çatdırdı ki, bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanıb, beynəlxalq mövqeləri möhkəmlənməkdədir. Həm bölgədə gedən proseslərə təsir imkanları artır, eyni zamanda qlobal müstəvidə də təşkilatın rolu artmaqdadır. Cənab İlham Əliyev həmçinin müştərək səylərlə mövqelərin möhkəmləndirilməsinin, TDT-nin dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməsinin vacibliyini vurğuladı: "Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Azərbaycan Prezidenti müasir dünyamızda bir çox beynəlxalq təşkilatların mövcudluğunu, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayının o qədər də çox olmadığını vurğuladı və bunun bizim çox böyük üstünlüyümüz olduğunu qeyd etdi: "Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq".

Bu böyük hədəfə çatmaq üçün TDT-nin yüksəkvəzifəli şəxslərinin tez-tez bir araya gəlib müxtəlif aktual məsələləri müzakirə etmələri, mövcud potensialdan qarşılıqlı şəkildə faydalanmaq üçün ortaq həllərin axtarışı, təbii ki, mühüm əhəmiyyət daşıyır. Belə görüşlər türk dövlətləri arasında qarşılıqlı etimadın gücləndirilməsi və institusional əməkdaşlığın daha da inkişafı baxımından mühüm platforma rolunu oynayır.

## Gələcək üçün təməl sütunlar

Bakı görüşündə türk dövlətlərinin hökumət başçıları iqtisadi, nəqliyyat və logistika məsələlərini müzakirə etdilər. Bu sahələrin hər biri müasir dövrdə həm türk dünyası, həm də region ölkələri üçün son dərəcə önəmlidir.

TDT üçün iqtisadi əməkdaşlıq sözügedən təşkilatın da, bu qurumda bir araya gəlmiş ölkələrin də gələcəyi üçün formalaşdırılan əsas strateji sütunlardandır. Tarixi, mədəni və dil birliyi üzərində qurulmuş bu platformanın dayanıqlı və təsirli regional gücə çevrilməsi məhz iqtisadi inteqrasiyanın dərinliyindən asılıdır.

İlk növbədə, iqtisadi əməkdaşlıq üzv dövlətlər arasında real və ölçülə bilən nəticələr yaradır. Tarixi təcrübə də göstərir ki, siyasi bəyanatlar, ortaq kimlik ideyası yalnız iqtisadi maraqlarla dəstəkləndikdə uzunömürlü olur. Bu baxımdan, ticarət əlaqələrinin və investisiya axınlarının genişləndirilməsi, eləcə də müxtəlif sahələri əhatə edən birgə layihələrin həyata keçirilməsi təşkilat daxilində qarşılıqlı asılılığı gücləndirir, bu asılılıq isə öz növbəsində siyasi sabitliyi və əməkdaşlığın davamlılığına təminat verir.

İkinci mühüm məqam geoiqtisadi amildir. Türk dövlətləri Avropa ilə Asiyanı birləşdirən strateji coğrafiyada yerləşir. Bu potensialın reallaşdırılması üçün nəqliyyat dəhlizlərinin inkişafı, logistika infrastrukturunun gücləndirilməsi və tranzit imkanlarının artırılması həyati əhəmiyyət daşıyır. Bu mənada Trans-Xəzər marşrutu kimi təşəbbüslər yalnız iqtisadi deyil, həm də geosiyasi alətə çevrilir. Görüşün gündəliyindən də görünür ki, hökumət nümayəndələrinin müzakirə mövzularından biri məhz nəqliyyat dəhlizlərinin inkişafı olub. Xüsusilə Orta dəhliz kimi tanınan Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun potensialının artırılması, yükdaşımaların optimallaşdırılması və gömrük prosedurlarının sadələşdirilməsi TDT-nin öz hədəflərinə çatmasına çox mühüm töhfələr verə bilər. Bu kontekstdə Azərbaycan regionun əsas logistika mərkəzi kimi əhəmiyyətli rolunu bir daha nümayiş etdirməkdədir.

Üçüncü istiqamət enerji və resurs faktorudur. Təşkilata üzv ölkələrin əksəriyyəti zəngin enerji ehtiyatlarına malikdir. Bu resursların koordinasiyalı şəkildə istifadə olunması, enerji marşrutlarının şaxələndirilməsi və yeni - xüsusilə "yaşıl enerji" layihələrinin inkişafı TDT məkanını qlobal enerji xəritəsində daha görünən edir. Enerji əməkdaşlığı həm də üzv dövlətlərin xarici təsirlər qarşısında dayanıqlılığını artırır.

## Regional iqtisadi blok olmaq perspektivi

Müasir dövrdə iqtisadiyyat yalnız ənənəvi sahələrlə məhdudlaşmır. Rəqəmsallaşma, innovasiya və süni intellekt kimi istiqamətlər yeni inkişaf mərhələsinin əsasını təşkil edir. Bu sahələrdə əməkdaşlıq TDT ölkələrinə qlobal rəqabətdə geri qalmamaq, əksinə, müəyyən sahələrdə üstünlük əldə etmək imkanı verir.

İqtisadi inteqrasiya təşkilatın institusional gücünü də artırır. TDT-də bir araya gələn ölkələrin məqsədi əməkdaşlıqdan daha çox, mərhələli şəkildə daha sıx iqtisadi əlaqələr sisteminin qurulmasıdır. Bu isə uzunmüddətli perspektivdə TDT-ni regional iqtisadi blok kimi formalaşdıra bilər. Beləliklə, iqtisadi məsələlər TDT üçün sadəcə gündəlik əməkdaşlıq sahəsi deyil, həm də onun siyasi çəkisini, geosiyasi rolunu və gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amildir. İqtisadi inteqrasiya dərinləşdikcə, təşkilatın beynəlxalq sistemdə təsir imkanları da paralel şəkildə artacaq.

Görüşün yekununda qəbul edilmiş bəyanat türk dövlətləri arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Yekun bəyanat ilk baxışdan diplomatik sənəd təsiri bağışlasa da, onun məzmununun təhlili daha dərin siyasi və geostrateji transformasiyaların siqnallarını özündə ehtiva edir. Sənədin strukturu və vurğuları göstərir ki, TDT artıq yalnız mədəni və tarixi bağlara əsaslanan platforma olmaqdan çıxaraq, institusional və funksional baxımdan yeni mərhələyə qədəm qoymaqdadır.

Bəyanatda "Naxçıvan sazişi"nə xüsusi istinadın olması təşkilatın hüquqi və siyasi əsaslarının möhkəmləndirilməsi niyyətini göstərir. Bu, eyni zamanda üzv dövlətlərin ortaq öhdəliklərə sadiqliyinin yenidən təsdiqi və təşkilat daxilində daha sistemli və koordinasiyalı fəaliyyət modelinə keçidin təsdiqidir.

Sənəddə TDT-nin 12-ci Zirvə görüşü və TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası kimi əvvəlki görüşlərə edilən istinadlar isə təşkilatın qərarlarının ardıcıllıqla icra edildiyini və siyasi dialoqun epizodik deyil, davamlı xarakter daşıdığını nümayiş etdirir. Bu yanaşma TDT-nin gələcəkdə koordinasiyalı xarici siyasət elementlərinə malik platformaya çevrilə biləcəyini göstərir.

Bəyanatın ən geniş hissəsinin iqtisadi əməkdaşlığa həsr olunması isə prioritetlərin aydın şəkildə müəyyənləşdirildiyini göstərir. Xüsusilə "Türk Dünyasına Baxış-2040" sənədinə istinad edilməsi təşkilatın uzunmüddətli iqtisadi inteqrasiya modelini hədəflədiyini təsdiqləyir. Qeyri-tarif maneələrinin aradan qaldırılması, investisiya mühitinin yaxşılaşdırılması və sənaye kooperasiyasının genişləndirilməsi kimi çağırışlar TDT məkanında daxili iqtisadi əlaqələrin dərinləşdirilməsinə yönəlib.

Enerji məsələləri üzrə bəndlər isə təşkilatın strateji ambisiyalarını daha açıq şəkildə ortaya qoyur. Klassik enerji resurslarının - neft və qazın - nəqli və ixracı ilə yanaşı, "yaşıl enerji", enerji səmərəliliyi və kritik mineralların vurğulanması göstərir ki, TDT ölkələri yalnız mövcud enerji üstünlüklərini qorumaq deyil, həm də qlobal enerji keçidi prosesində fəal iştirak etməyə çalışırlar. Bu kontekstdə "Yaşıl Enerji Dəhlizi" təşəbbüsünə verilən dəstək xüsusi əhəmiyyət daşıyır.

## Azərbaycanın artan rolu

Bəyanatda innovasiya, rəqəmsal transformasiya, süni intellekt və kosmik texnologiyalar kimi sahələrin ön plana çəkilməsi isə təşkilatın strateji baxışının genişləndiyini göstərir. Bu istiqamətdə Türküstan şəhərində süni intellekt mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsünün dəstəklənməsi TDT-nin gələcəkdə texnoloji əməkdaşlıq platformasına çevrilmək niyyətini nümayiş etdirir.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq, xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafına verilən önəm isə təşkilatın geoiqtisadi mahiyyətini daha da gücləndirir. Bu yanaşma türk dövlətlərinin coğrafi mövqeyini strateji üstünlüyə çevirmək niyyətindən xəbər verir və onları Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzinə çevirə bilər.

Bütün bunların reallaşmasında Azərbaycanın rolu ayrıca diqqət çəkir. Bakının evsahibliyi etdiyi görüş və ölkənin sədrliyi dövründə irəli sürülən təşəbbüslər göstərir ki, Azərbaycan TDT daxilində yalnız iştirakçı deyil, həm də prosesləri yönləndirən əsas aktorlardandır. Enerji, nəqliyyat və regional diplomatiya sahələrində oynadığı rol ölkəmizi təşkilatın geoiqtisadi mərkəzlərindən birinə çevirir.

Nəticə etibarilə, TDT-yə üzv ölkələrin baş nazirlərinin Bakıda keçirilmiş ikinci görüşü təşkilatın təkamülünün yeni mərhələsini əks etdirir və göstərir ki, qurum artıq sadəcə ortaq kimlik platforması hüdudlarından çıxaraq iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və geosiyasi koordinasiya istiqamətlərində real təsir imkanlarına malik regional güc mərkəzinə çevrilməkdədir. Bu prosesin davamlılığı isə türk dünyasının beynəlxalq sistemdə çəkisinin artmasına birbaşa təsir göstərəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Milli Məclisin futbol komandası beynəlxalq turnirdə gümüş medal qazanıb

**Türkiyənin Antalya şəhərində 1-5 aprel tarixlərində Türkiyə Böyük Millət Məclisinin (TBMM) təşkilatçılığı ilə Türk Dünyası Parlamentlərarası Futbol Turniri keçirilib. Azərbaycan Milli Məclisinin komandası da turnirdə uğurla təmsil olunub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Qırğızıstan və Şimali Kipr Türk Cümhuriyyəti ilə B qrupunda yer alan Milli Məclisin komandası bütün rəqiblərini qabaqlayaraq qrupu birinci pillədə tamamlayıb və finala vəsiqə qazanıb.

Turnirin həlledici mərhələsində iki qardaş ölkənin - Azərbaycan və Türkiyə parlamentlərinin komandaları üz-üzə gəlib. Yüksəksəviyyəli qarşılaşmada TBMM komandası 3:1 hesabı ilə qələbə qazanıb.

Azərbaycan Milli Məclisinin komandası isə turniri fəxri ikinci yerdə başa vuraraq gümüş medala layiq görülüb.

Qeyd edək ki, Türk Dünyası Parlamentlərarası Futbol Turnirində Azərbaycan Milli Məclisini parlamentin komitə sədrləri Fazil Mustafa, Şahin İsmayılov, Azər Əmiraslanov, deputatlar Zaur Şükürov, Ramid Namazov, Məzahir Əfəndiyev, Nurlan Həsənov, Erkin Qədirli, Kamran Bayramov və Eyvaz Qurbanov, eyni zamanda Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, şöbə müdirləri İlkin Məmmədov, Elmar Hüseynov, Milli Məclis Sədrinin köməkçisi Aqşin Hümmətov, şöbə müdirinin müavini Emin İmanov və aparatın digər əməkdaşları - Rüfət Ələkpərov, Təbriz Tağıyev, Fərid Məmmədquluzadə və baş məşqçi Şahin Diniyev təmsil ediblər.

***"Azərbaycan"***

# Əməyin ödənilməsində gender bərabərliyi daha effektiv təmin olunacaq

**Aprelin 6-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Komitə sədri Musa Quliyev bildirib ki, təqdim olunan sənədin əsas məqsədi əməyin ödənilməsində gender bərabərliyinin daha geniş və effektiv şəkildə tətbiqini təmin etməkdir. Qeyd edilib ki, təklif edilən dəyişikliklər "eyni və ya oxşar iş" anlayışını genişləndirərək "bərabər dəyərli iş" prinsipini qanunvericilikdə təsbit edəcək və bununla da kişilər və qadınlar arasında əməkhaqqı ödənişində fərqlərin aradan qaldırılmasına xidmət edəcək. Bununla belə, layihəyə əsasən işəgötürənlərin bu sahədə öhdəlikləri konkretləşdirilir və əmək münasibətlərində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir.

Tədbirdə iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov və Beynəlxalq Əmək Təşkilatının milli əlaqələndiricisi Yaşar Həmzəyev qanun layihəsinin mahiyyəti və nəzərdə tutulan dəyişikliklərin tətbiqi mexanizmləri barədə məlumat veriblər.

Müzakirələrdə komitənin sədr müavini Elşad Musayev, komitənin üzvləri Jalə Əliyeva, Vüqar Bayramov və Nigar Məmmədova çıxış edərək qanun layihəsinə dair fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Sonda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Bakıda keçirilən I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş kitabın TÜRKSOY-da təqdimatı

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Ankaradakı qərargahında "Türk Dünyasında repressiyalar" adlı kitab təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, Bakıda keçirilən I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş nəşr TÜRKSOY, Ankaradakı Əhməd Cavad İnstitutu və Ankaranın Hacı Bayram Vəli Universiteti tərəfindən birgə hazırlanıb.

Kitabda 2025-ci il fevralın 27-də Türkiyə paytaxtında keçirilən 1926-cı il I Türkoloji Qurultayı ilə bağlı seminar iştirakçılarının elmi məqalələri və təqdimatları yer alıb.

Tədbirdə türk dövlətlərindən diplomatlar, alimlər, ekspertlər, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

TÜRKSOY-un baş katibi Sultan Raev giriş nitqində I Türkoloji Qurultayı "Türk dünyasının möhkəmlənməsi və birliyi yolunda əhəmiyyətli bir mərhələ" adlandırıb. O vurğulayıb: "Təəssüf ki, Bakıda keçirilən qurultayın bir çox iştirakçısı repressiyaya məruz qaldı, edam edildi və ya sürgünə göndərildi. Bu gün bizim vəzifəmiz tarixin dərslərini öyrənmək və I Türkoloji Qurultay iştirakçılarının işini davam etdirməkdir. Türk xalqları üçün ortaq gələcək uğrunda mübarizə aparmaq və vicdanın səsinə çevrilmək vacibdir. Yalnız bu şəkildə repressiyaya məruz qalan türk ziyalılarının xatirəsini yaşada bilərik".

TÜRKSOY-un baş katibi I Türkoloji Qurultay iştirakçılarının xatirəsini ehtiramla yad edib.

Türkiyə Milliyyətçi Hərəkat Partiyası liderinin baş müşaviri və Əhməd Cavad İnstitutunun direktoru professor Ruhi Ersoy türk xalqlarının bir-birinə daha da yaxınlaşmasının vacibliyini vurğulayıb və türk dünyasının idealları naminə canlarından keçmiş görkəmli ziyalıların irsini xatırlamağa çağırıb.

O qeyd edib: "1926-cı il Türkoloji Qurultayı iştirakçılarının xatirəsinin qorunmasına və onların işinin davam etdirilməsinə verilən bu töhfədən səmimi-qəlbdən məmnunuq.

Türkiyə milli təhsil nazirinin müavini Nazif Yılmaz I Türkoloji Qurultayın 100 illiyi ilə bağlı elmi məqalələr və çıxışlar toplusunun hazırlanmasını çox əhəmiyyətli addım adlandırıb. O vurğulayıb: "Bu nəşrlər silsiləsi davam etdirilməlidir. Türk dövlətlərinin sakinləri, xüsusən də gənclər həyatlarını türk dünyasına həsr etmiş görkəmli şəxsiyyətlərin irsini öyrənməyə borcludurlar. Bu gün türk məktəblərində "Ümumi türk tarixi" kimi könüllü kursların tədris olunması sevindirici haldır. I Türkoloji Qurultay iştirakçılarının nəcib işi unudulmayacaq".

Qazaxıstanın Türkiyədəki səfiri Yerkebulan Sapiyev çıxışında I Türkoloji Qurultayın türk dünyasının möhkəmlənməsinə verdiyi töhfədən danışıb. Diplomat bir əsr əvvəl Qazaxıstandan olan alimlərin Bakıda keçirilən Türkoloji Qurultayın iştirakçıları arasında olduğunu xatırladıb. O deyib: "Təəssüf ki, qurultay iştirakçıları "Qırmızı terror" ilə qarşılaşıblar, lakin onların iradəsini qırmaq mümkün olmadı". Səfir, həmçinin türk dünyasında dərinləşən dialoqdan məmnunluğunu ifadə edib.

Azərbaycanın Türkiyədəki səfirliyinin müşaviri Füzuli Məcidli repressiya dövrünü xalqların tarixində "qara səhifə" adlandırıb. "Bakıda keçirilən I Türkoloji Qurultayın iştirakçıları türk xalqlarının ortaq kimliyinə xələl gətirmək məqsədilə repressiyaya məruz qalıblar. Onların işi unudulmayıb və davam edir", - deyə o vurğulayıb.

# Qarabağ üzərindən siyasi spekulyasiya qəbuledilməzdir

## Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu ola bilməz

**2020-ci ilin noyabrı və 2023-cü ilin sentyabrı Cənubi Qafqazın geosiyasi simasını kökündən dəyişən dönüş nöqtələri oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz siyasi iradəsi və Azərbaycan Ordusunun döyüş meydanındakı misilsiz rəşadəti otuzillik işğala son qoyaraq ədaləti bərpa etdi. Tarixi zəfərlər regionun xəritəsini beynəlxalq hüququn prinsipləri əsasında yenidən cızdı.**



Bu gün Azərbaycan təkcə hərbi-siyasi gücü ilə deyil, həm də qlobal sülh memarı kimi çıxış edir. Bakının birbaşa təşəbbüsü və strateji diktəsi ilə yaranan sülh gündəmi İrəvanı konstruktiv dialoqa sövq edərək regionda onilliklər boyu davam edən düşmənçilik sədlərini aşmağa imkan verdi. Artıq Ermənistan Azərbaycanın müəyyən etdiyi yeni reallıqlar çərçivəsində sülhə təhdid yaradan revanşist meyilləri cilovlamaq mərhələsinə qədəm qoyub. Hazırda rəsmi İrəvan yekun sülh sazişinin önündəki yeganə hüquqi maneə olan Konstitusiyasındakı ərazi iddialarını aradan qaldırmaq, keçmişin stereotiplərindən qurtulmaq üçün ciddi daxili islahatlarla məşğuldur.

Siyasi yumşalma özünü real iqtisadi müstəvidə də göstərməkdədir. Azərbaycan və Ermənistan arasında iqtisadi əməkdaşlığın ilk praktiki addımları atılıb. Ölkəmizdən Ermənistana enerji məhsullarının bir neçə partiyasının ixracı regionun enerji xəritəsində yeni səhifə açıb. Bununla yanaşı, Azərbaycanın logistik imkanlarından və tranzit dəhlizlərindən istifadə edilməklə Ermənistana taxıl, buğda, gübrə və digər strateji məhsulların daşınması da Bakının regionda sülhdə və dayanıqlı inkişafda maraqlı olduğunu sübut edir.

Lakin görünən odur ki, Cənubi Qafqazın münaqişə məkanı olmaqdan çıxaraq qlobal əhəmiyyətli iqtisadi qovşağa çevrilməsindən ciddi narahatlıq duyan, təşvişə düşən dairələr var. Son günlərdə atılan addımlardan, verilən açıqlamalardan bəlli olur ki, bəzi xarici güclər və regional oyunçular hələ də yeni reallığı tam həzm edə bilmir, öz ikitərəfli münaqişələrində və geosiyasi çəkişmələrində Azərbaycanın suveren ərazilərini bir alət kimi istifadə etməyə çalışırlar.

Xüsusən, Rusiyanın rəsmi şəxsləri tərəfindən ictimai müzakirələrdə Azərbaycanın sırf daxili işlərinə aid məsələlərə toxunulur, "Qarabağ məsələsi" yenidən gündəmə gətirilir. Bununla əlaqədar, diplomatik kanallar vasitəsilə Azərbaycanın Qarabağ bölgəsindən siyasi spekulyasiyalarda istifadə edilməsinin qəbuledilməzliyi barədə mövqeyimiz Rusiya hökumətinin diqqətinə çatdırılıb. Buna baxmayaraq, mövzu Rusiya tərəfinin rəsmi siyasi dairələrində, media müstəvisində hələ də davam etməkdədir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov "Vesti" kanalına müsahibəsində Ermənistan-Rusiya münasibətlərinə dair mövqe bildirərkən növbəti dəfə Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi ilk olaraq Rusiya, yoxsa Ermənistan tərəfindən tanınması barədə şərh verib.

Azərbaycan Xarici İşlər Nazirliyi Qarabağ mövzusu ətrafında gedən manipulyasiyaya dair sərt bəyanat verib. XİN-dən vurğulanıb ki, Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması hər hansı bir dövlətin qərarına deyil, tarix, beynəlxalq hüquq və ədalətə söykənir. Bu, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində bir daha təsdiq olunub: "Rusiya tərəfinə bir daha xatırlatmaq istərdik ki, Rusiya Federasiyası daxil olmaqla, heç bir ölkə, heç bir dövrdə Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü sual altına qoymayıb".

XİN-in bəyanatı ölkəmizin suveren ərazilərinin müzakirə predmeti olmasına qarşı sərt etirazın və prinsipial mövqeyin nümayişidir. Qarabağın Azərbaycanın tərkib hissəsi olması hər hansı kənar dövlətin tanımasından asılı olan bir lütf deyil. Bu, dəyişməz tarixi faktlara, beynəlxalq hüququn prinsiplərinə və Vətən müharibəsinin, antiterror tədbirlərinin yaratdığı yeni reallığa söykənir. Sadəcə, Rusiya və Ermənistan yox, digər ölkələr də öz aralarındakı münasibətləri aydınlaşdırarkən Azərbaycanın daxili işlərindən, ərazi bütövlüyü mövzusundan alət kimi istifadə edə bilməz. XİN xatırladır ki, Rusiya Federasiyası da daxil olmaqla, dünya birliyi heç vaxt Azərbaycanın ərazi bütövlüyünü rəsmi şəkildə şübhə altına almayıb. O səbəbdən, "kim birinci tanıdı" tipli diskussiyalar mənasızdır və regiondakı kövrək sabitliyə xidmət etmir.

Əslində, Rusiya rəsmilərinin "Qarabağı Azərbaycanın tərkib hissəsi kimi kim birinci tanıdı - Rusiya, yoxsa Ermənistan?" sualı ətrafında polemika açması təsadüfi deyil. Kreml erməni cəmiyyətindəki "Moskva bizi satdı" düşüncəsini sındırmaq üçün topu İrəvan hökumətinin üzərinə atır. Ancaq Rusiya-Ermənistan münasibətlərinin ən aşağı səviyyədə olduğu bir zamanda Moskvanın İrəvanı küncə sıxışdırmaq üçün Azərbaycanın suverenliyini müzakirə predmetinə çevirmək cəhdləri qəbuledilməzdir. Qarabağ mövzusu nə Ermənistanın daxili siyasəti, nə də Rusiyanın geosiyasi oyunları üçün manevr sahəsidir. Bağlanmış səhifəni yenidən açmaq niyyətində olanların qayəsi regionu xaosa sürükləməkdir. Onlar anlayırlar ki, sülh müqaviləsi imzalandıqdan sonra kənar oyunçuların Cənubi Qafqaza müdaxilə qapıları tamamilə bağlanacaq.

Qərb dairələrində də "ermənilərin qayıdışı" mövzusu vasitəsilə regiona yenidən daxil olmaq cəhdləri bununla bağlıdır. Rusiya və bəzi Qərb mərkəzləri üçün Qarabağ mövzusu onilliklər boyu regiona müdaxilə etmək, tərəflər üzərində "vasitəçi" statusu ilə təsir rıçağı saxlamaq üçün əsas alət olub. Sırf bu məqsədlə mütəmadi olaraq erməni lobbisinin təsiri və regionda öz oyunçu statusunu bərpa etmək məqsədilə "humanitar faktor" adı altında məsələni gündəmdə saxlayıblar. Rəsmi Bakının bəyanatları təsdiq edir ki, bu mövzu nəinki beynəlxalq gündəmdə yoxdur, ümumiyyətlə, artıq müzakirə predmeti deyil və dövlətimizin "qırmızı xətti"dir. Qarabağ Azərbaycan ərazisi olduğuna görə, hər hansı xarici gücün mövzuya dair rəy bildirməsi, görüş və dialoqlarda müzakirəyə çevirməsi birbaşa dövlət suverenliyinə müdaxilə kimi qiymətləndirilir. Əgər bəlli çevrələr bu təhlükəli ritorikanı israrla davam etdirsələr, Azərbaycan daha ciddi addımlar atmaq məcburiyyətində qalacaq. Çünki yeni reallıqların təftişinə yönəlmiş istənilən təşəbbüs və ya açıqlama rəsmi Bakı tərəfindən qərəz və düşmənçilik aktı kimi qəbul olunur.

Paradoks ondadır ki, Ermənistan rəhbərliyi hazırda konstitusiya islahatları və sülh müqaviləsi çərçivəsində "Qarabağ məsələsi"nin birdəfəlik bağlandığını etiraf edib. İrəvanın "bitdi" dediyi məsələyə kənar güclərin "yox, hələ bitməyib" reaksiyası onların Ermənistanın maraqlarını yox, öz geosiyasi maraqlarını əsas aldığını sübuta yetirir. Həmin güclər Ermənistanı yenidən oyuncaq halına gətirməyə çalışırlar.

Cənubi Qafqazda köhnə "status-kvo"nu bərpa etmək və tarixin çarxını geriyə fırlatmaq cəhdləri əbəsdir. Bu gün Azərbaycan təkcə öz torpaqlarını azad etmiş dövlət deyil, həm də regionun diktə edən gücün və sülhün əsas təminatçısıdır. Dünya anlamalıdır ki, "Qarabağ məsələsi" 2023-cü ilin sentyabrında birdəfəlik və qəti olaraq qapanıb. İndi seçim regionun gələcəyində maraqlı olmaq istəyənlərindir. Ya Azərbaycanın yaratdığı yeni reallığa və suverenliyimizə hörmət edərək əməkdaşlıq yolunu seçməli, ya da tarixin arxivinə gömülmüş iddiaların kölgəsində qalaraq regionun inkişafından kənarda dayanmalıdırlar. Azərbaycan öz yolunu seçib, bu yol suverenlik, sülh və milli maraqların sarsılmaz müdafiəsi yoludur.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Xülyası puç olan faşist

## Azərbaycanı bütöv görmək terrorçu Zori Balayan üçün bu dünyadakı ən dəhşətli cəza oldu

**Tarixin yaddaşı silinmir, zaman isə hər şeyi öz yerinə qoyur. Gec-tez haqq-ədalət bərqərar olur, günahkarlar mütləq öz cəzasını alır. Azərbaycan xalqına qarşı onilliklər boyu nifrət qusan, əli körpələrimizin qanına batan, ideoloji zəhəri ilə minlərlə insanın taleyini məhv edən faşist Zori Balayan isə elə bu dünyada cəhənnəm əzabı yaşayanlardan oldu. Azərbaycanı bütöv görməsi, bayrağımızın Qarabağda dalğalandırıldığını dişi bağırsağını kəsə-kəsə seyr etməsi terrorçu Zori Balayana ən dəhşətli cəza idi.**

### "Ocaq"dan Xocalıya uzanan qan izi

On minlərlə insanın taleyini məhv edən Zori Balayanın ölümü sıradan bir xəbər deyil. Bu, həm də bir şər imperiyasının ideoloji sütununun çökməsi və xəstə xəyalların puç olması demək anlamına gəlir.

Zori Balayan sadəcə yazıçı və ya siyasətçi deyildi. O, erməni faşizmini körükləyən nifrət nəzəriyyəçisi idi. 1980-ci illərin əvvəllərində yazdığı "Ocaq" kitabı ilə fitnə toxumları səpən bu qaniçən Qarabağ və Naxçıvan üzərindəki əsassız iddiaları ilə bölgəni qan gölünə çevirən proseslərin fitilini atəşləmişdi. Onun üçün "insan" anlayışı yox idi, yalnız xəstə "Miatsum" ideologiyası var idi. Xocalıda törədilən soyqırımının həm təşkilatçısı, həm də birbaşa icraçısı kimi Balayanın etirafları bəşər tarixinin ən qara səhifələridir.

O, "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırımı haqqında yazıb: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

Zori Balayanın öz kitabında 13 yaşlı günahsız bir türk uşağına verdiyi işgəncələri "erməni kimi vəzifəmi yerinə yetirdim" deyərək fəxrlə təsvir etməsi, onun daxilindəki insanlıqdan kənar vəhşi hisslərin sübutudur.

Bakı metrosundakı terrorun sifarişçisi kimi tökdüyü qanlar isə onun terrorçu simasının növbəti nümayişi idi. 1994-cü il iyulun 3-də Bakı metrosunda - metronun "Gənclik" və "28 May" stansiyaları arasında baş vermiş terrorun sifarişçisi Zori Balayan olub. Partlayış nəticəsində 12 nəfər həlak olub, 42 nəfər isə yaralanıb. Sonradan məhkəmədə terror hadisəsini törətmək barədə göstərişin Z.Balayan tərəfindən verildiyi məlum olub.

### Qarabağ Azərbaycandır!

Lakin tale Balayana ən ağır cəzanı fiziki ölümdən əvvəl verdi. Onun üçün ən böyük işgəncə, ömrünü həsr etdiyi "erməni xəyalları"nın Azərbaycan əsgərinin çəkmələri altında əzilməsini izləmək oldu.

2020-ci ilin 44 günlük müharibəsi və 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirləri Balayanın onilliklər boyu qurduğu separatizm qalasını yerlə yeksan etdi. Qondarma rejimin diz çökməsi, Şuşada, Xankəndidə, Laçında, Xocalıda Azərbaycan bayrağının dalğalanması Balayan kimi canilər üçün min ölümdən daha betər idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2023-cü ilin oktyabrında Xankəndidən xalqımıza müraciətində qürurla vurğuladığı kimi, erməni canilərin bütün məkrli planları iflasa uğradıldı: " ...Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir... ...Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Bu gün Qarabağın və Şərqi Zəngəzurun zirvələrində dalğalanan üçrəngli bayrağımız, əslində, təkcə qələbə rəmzi deyil, həm də Balayan kimi canilərin onilliklər boyu bəslədiyi xəstə ideologiyanın ölüm hökmüdür. 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri xalqımızın sarsılmaz iradəsinin növbəti təcəssümü oldu. "Dəmir yumruq" sərsəm "miatsum" xülyasının tabutuna son mismarı vurdu. Bu hərbi uğurla Azərbaycan həm də tarixin saxtakarlıq üzərində qurulmuş qanlı səhifəsini birdəfəlik bağladı.

Azərbaycan xalqı artıq dünyaya məğlubiyyətin acısını deyil, zəfərin əzəmətini diktə edir. Bu gün hər birimiz başıdik, alnıaçıq gəzirik, çünki üzərimizdə daşıdığımız o mənəvi yük - torpaq nisgili artıq yoxdur. Suverenliyimizin tam bərpası uğrunda canından keçən şəhidlərimizin ruhu bu gün rahatdır.

Bir sözlə, tarixin, haqqın və beynəlxalq hüququn təsdiq etdiyi həqiqət qarşısında bütün məkrli planlar, riyakar ssenarilər və separatçı xülyalar darmadağın oldu.

Erməni faşizminin ideoloji nəzəriyyəçisi olan Zori Balayanın ömrü boyu arzuladığı "böyük Ermənistan" xəritəsi öz gözləri qarşısında parçalanıb tarixin zibilliyinə atıldı. O, öz məkrli arzularının deyil, Bütöv Azərbaycanın qüdrətini, suverenliyini zərgər dəqiqliyi ilə bərpa etmiş bir dövlətin şahidi olaraq öldü. Bir qatilin arzuları gözündə qaldı. Bu həm də bütöv bir millətin dirçəlişinin, öz haqqına sahib çıxmasının ən böyük təsdiqidir.

Bizlər murdar bir ideologiyanın süqutunun şahidləri olduq. Balayanın ölümü ilə erməni şovinizminin bir qanlı epoxası bağlandı. Azərbaycanın zəfər salnaməsinə isə yeni-yeni qələbələr əlavə olunur.

Erməni canilərini haqq-ədalət qarşısında cavab verməyə məcbur edən xalqımız sübut etdi ki, bu torpaqların əsl sahibi bizik.

Qarabağ Azərbaycandır! Və bu, gerçək dünya durduqca dəyişməyəcək!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Real Ermənistan" xəstə təfəkkürə qarşı

## N.Paşinyanın seçkiqabağı proqramının uğuru onun icrasından asılı olacaq

**Ermənistan Baş naziri Nikol Paşinyan parlament seçkilərinə dair seçkiqabağı proqramını açıqlayaraq, ölkənin inkişaf modelini "real Ermənistan" ideologiyası üzərində qurduğunu bəyan edib. Bu ideologiya, əslində, Paşinyanın bir neçə il ərzində tədricən formalaşdırmağa çalışdığı yeni siyasi konsepsiyanın davamıdır və bu, Ermənistanın regional siyasətinin təhlükəsizlik sistemində və milli ideologiyasında dəyişikliklərə yönəlmiş yanaşma kimi təqdim olunur.**



Proqramda sülh gündəliyi, regionda kommunikasiyaların açılması, qonşu ölkələrlə münasibətlərin normallaşdırılması və yeni konstitusiyanın qəbul edilməsi kimi məsələlərə xüsusi diqqət ayrılıb. Bununla belə bu proqramın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına real töhfə verib - verməyəcəyi məsələsi daha yeni siyasi institusional konteksdə qiymətləndirilməlidir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev qəzetimizə açıqlamasında bildirib ki, "real Ermənistan" ideologiyası müəyyən mənada İrəvanın müstəqillik dövründə formalaşmış ənənəvi milli siyasi konsepsiyasından fərqlənir: "Belə ki, Ermənistan siyasətində uzun müddət dominant olan "tarixi Ermənistan" kimi ideoloji xətt, xüsusilə Qarabağ məsələsi dövlət siyasətinin əsas elementi kimi təqdim olunurdu. Bu yanaşma təkcə xarici siyasətdə deyil, həm də daxili siyasi legitimliyin formalaşmasında rol oynayırdı. Lakin 44 günlük Vətən müharibəsi, birgünlük antiterror əməliyyatı və ondan sonrakı proseslər Ermənistanın siyasi elitasını və cəmiyyətini yeni reallıqlarla üzləşdirdi. Paşinyanın "real Ermənistan" konsepsiyası da məhz bu geosiyasi vəziyyətə uyğunlaşma cəhdi kimi qiymətləndirilə bilər".

Ekspert qeyd edib ki, Paşinyanın proqramında sülh məsələsinə toxunulması Azərbaycanla münasibətlərin normallaşdırılması kontekstində mühüm element kimi təqdim olunur. Son illərdə Bakı və İrəvan arasında danışıqlar müxtəlif platformalarda davam edir. Tərəflər arasında aparılan danışıqlar nəticəsində proseslərdə ciddi irəliləyişlər əldə olunub. Bu baxımdan, Paşinyanın seçki proqramında sülh gündəliyini ön plana çıxarması Ermənistanın rəsmi mövqeyinin dəyişməsi kimi təqdim edilir. Amma bu məsələyə daha realist yanaşmaq lazımdır. İlk növbədə Ermənistanın sülh gündəliyini real nəticəyə gətirib çıxarması üçün yalnız siyasi bəyanatlar kifayət deyil, bunun üçün hüquqi və institusional dəyişikliklər tələb olunur. Bu səbəbdən Paşinyan yeni konstitusiyanın qəbul edilməsini proqramın əsas elementlərindən biri kimi təqdim edir. "Məlumdur ki, Ermənistanın hazırki konstitusiyasında və bəzi hüquqi sənədlərdə dolayısı ilə Azərbaycana qarşı ərazi iddialarının interpretasiyasına imkan verən müddəalar mövcuddur. Azərbaycan tərəfi dəfələrlə bildirib ki, sülh sazişinin imzalanması üçün Ermənistanın hüquqi sənədlərində ərazi iddialarına əsas yaradan müddəalar aradan qaldırılmalıdır. Bu baxımdan, Paşinyanın yeni konstitusiya təşəbbüsü müəyyən mənada regionda sülh prosesinə hüquqi zəmin yaratmaq cəhdi kimi qiymətləndirilə bilər. Lakin burada iki mühüm amil nəzərə alınmalıdır. Birincisi, Ermənistan cəmiyyətində və siyasi elitasında bu dəyişikliklərə ciddi müqavimət mövcuddur, müxalifət qüvvələri bu addımı "milli maraqlardan imtina" kimi təqdim edir və seçki kampaniyası dövründə bu mövzudan fəal şəkildə istifadə edirlər. İkincisi, konstitusiya dəyişiklikləri mürəkkəb siyasi və hüquqi prosesdir və bunun həyata keçirilməsi yalnız hökumətin qərarı ilə deyil, həm də geniş ictimai və siyasi konsensus tələb edir. Digər tərəfdən, Paşinyanın "real Ermənistan" konsepsiyası bu baxımdan daha praqmatik siyasətə keçidi nəzərdə tutur. Bu ideologiyanın əsas tezislərindən biri Ermənistanın beynəlxalq hüquq çərçivəsində tanınmış sərhədləri daxilində inkişaf etməsi və regional əməkdaşlığa daha açıq yanaşmasıdır. Bu yanaşma nəzəri baxımdan Azərbaycanla münasibətlərin normallaşmasına xidmət edə bilər, çünki belə bir model Ermənistanın xarici siyasətində ərazi iddiaları və illüzionist diskussiyaların zəifləməsi deməkdir", - deyə o əlavə edib.

Lakin siyasi reallığın daha mürəkkəb olduğunu deyən F.Abdullayevin fikrincə, Ermənistan siyasətində Qarabağ məsələsi uzun müddət "siyasi legitimliy"in əsas elementlərindən biri olub. Buna görə də, ilk növbədə, "Qarabağsız Ermənistan" ideyası ictimai şüurda qəbul edilməlidir. Bu isə uzun bir prosesdir. Paşinyanın ideologiyası faktiki olaraq Ermənistanın postmünaqişə dövrünə uyğunlaşmasını nəzərdə tutur. Bu isə yalnız siyasi qərar deyil, həm də ideoloji transformasiyanı tələb edir. Seçki prosesinə təsiri baxımından bu məsələ xüsusilə həssasdır. Belə ki, Ermənistan cəmiyyətində Qarabağ məsələsi ilə bağlı emosiyalar və siyasi reaksiyalar hələ də güclüdür. Müxalifət qüvvələri Paşinyanı "Qarabağı itirməkdə" hələ də günahlandırır, onun sülh gündəliyini kapitulyasiya kimi təqdim etməyə çalışırlar. Buna görə seçki kampaniyası dövründə "real Ermənistan" ideologiyası həm də daxili siyasi mübarizənin əsas mövzularından birinə çevrilə bilər. Digər tərəfdən, Ermənistan cəmiyyətində müharibə və iqtisadi böhranlardan yorulmuş müəyyən sosial qruplar da mövcuddur. Təbii ki, bu qruplar regionda sabitliyin və iqtisadi əməkdaşlığın Ermənistan üçün yeni imkanlar yarada biləcəyini düşünür və buna inanırlar. Paşinyanın proqramında kommunikasiyaların açılması, regional ticarət və nəqliyyat layihələrində iştirak məsələlərinin vurğulanması məhz bu sosial auditoriyaya yönəlib. Yəni bu kontekstdən Azərbaycanla münasibətlərin normallaşması məsələsi Ermənistanın daxili siyasi demokratiyasından ciddi şəkildə asılıdır. Əgər Paşinyan seçkilərdə güclü mandat əldə edə bilsə, o zaman sülh gündəliyinin həyata keçirilməsi üçün daha geniş siyasi imkanlar yarana bilər. Əks halda isə Ermənistan siyasətində revizionist diskursun yenidən güclənməsi də istisna edilmir.

Siyasi şərhçi vurğulayıb ki, ümumilikdə Paşinyanın seçki proqramının və "real Ermənistan" ideologiyasının müəyyən mənada regiondakı yeni siyasi reallıqları qəbul etməyə yönəldiyini, bu ideologiyanın Ermənistanın uzun illər davam edən maksimalist siyasət konsepsiyasından daha praqmatik və realist yanaşmaya keçidi nəzərdə tutduğunu demək olar. Bu isə nəzəri olaraq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün daha əlverişli siyasi mühit yarada bilər. Nəticə etibarilə, Paşinyanın proqramını Azərbaycanla əlaqələrin normallaşmasına yönəlmiş siyasi siqnal kimi qiymətləndirmək mümkündür. Lakin bu proqramın real təsiri onun praktiki icrasından və Ermənistanın daxili siyasi mühitindən asılı olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Səfirliyi haqqında ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Səfirliyi (bundan sonra - Səfirlik) qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanıdır. Səfirlik Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.

1.2. Səfirlik Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsis edilir.

1.3. Səfirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələri, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin qərar, sərəncam və əmrlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

1.4. Səfirlik qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) qəbul edən dövlətdə fəaliyyət göstərən və qəbul edən dövlətə ezam olunmuş nümayəndələrinin işini əlaqələndirir və onların fəaliyyəti üzərində nəzarəti reallaşdırır. Həmin nümayəndələr öz fəaliyyətini Səfirliklə razılaşdırmalı və bu fəaliyyət barədə Səfirliyə məlumat verməlidirlər.

1.5. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq, Səfirliyin binasında və Azərbaycan Respublikası fövqəladə və səlahiyyətli səfirinin (bundan sonra - Səfir) iqamətgahında Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılır və Azərbaycan Respublikası Dövlət Gerbinin qabarıq təsviri vurulur. Xidməti vəzifələrini yerinə yetirərkən Səfirin nəqliyyat vasitəsinin üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağı yerləşdirilir. Səfirliyin binasında və ya ərazisində Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dillərində) Səfirliyin adı yazılan lövhə vurulur. Səfirlik Azərbaycan Respublikasının dövlət rəmzlərindən qəbul edən dövlətin qanunvericiliyi və diplomatik protokol qaydaları nəzərə alınmaqla istifadə edir.

1.6. Səfirlik, həmçinin Səfirlikdə xidmət keçən diplomatik xidmət orqanı əməkdaşları (bundan sonra - əməkdaşlar) və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətdə Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq, qəbul edən dövlətdə imtiyazlardan və immunitetlərdən istifadə edirlər. Səfirliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmalı və daxili işlərinə qarışmamalıdırlar.

1.7. Səfirliyin, nümunələri Nazirlik tərəfindən təsdiq edilmiş və üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və Səfirliyin adı həkk olunmuş möhürü, həmçinin kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları, blankları və bank hesabları vardır.

1.8. Səfirliyin Azərbaycan Respublikasının mülkiyyəti olan torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada Səfirliyə təhkim edilir. Səfirlik ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

## 2. Səfirliyin fəaliyyət istiqamətləri

2.1. Səfirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil etmək;

2.1.2. qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirmək;

2.1.3. qəbul edən dövlətdə Azərbaycan Respublikasının müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, milli təhlükəsizliyini və milli maraqlarını xarici siyasət vasitələri ilə və diplomatik üsullarla qorumaq və təmin etmək;

2.1.4. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında dostluq münasibətlərini, sülhü və əməkdaşlığı inkişaf etdirmək;

2.1.5. qəbul edən dövlətdə Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiə etmək;

2.1.6. qəbul edən dövlətin xarici və daxili siyasətini təhlil etmək və Nazirliyə təkliflər vermək;

2.1.7. qəbul edən dövlətlə Azərbaycan Respublikasının diplomatik və konsul əlaqələrini həyata keçirmək;

2.1.8. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin inkişafına dəstək vermək;

2.1.9. qəbul edən dövlətə Azərbaycan Respublikası rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə kömək göstərmək;

2.1.10. qəbul edən dövlətin ərazisinin Azərbaycan Respublikası Konsulluğunun konsul dairəsinə aid olmayan hissəsində, həmçinin Azərbaycan Respublikası Konsulluğunun olmadığı qəbul edən dövlətdə (bundan sonra - müvafiq dairədə) Azərbaycan Respublikasının adından konsul funksiyalarını həyata keçirmək;

2.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Səfirliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Səfirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasını qəbul edən dövlətdə təmsil etmək və onun milli maraqlarını qorumaq;

3.1.2. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında dostluq münasibətlərinin, sülhün və əməkdaşlığın inkişafına, eləcə də qəbul edən dövlətin yerləşdiyi regionda Azərbaycan Respublikasının milli maraqlarının təmin olunmasına yardım etmək;

3.1.3. qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsini təmin etmək;

3.1.4. qəbul edən dövlətdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasından irəli gələn məsələləri xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

3.1.5. qəbul edən dövlətdə Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsindən irəli gələn funksiyaları xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

3.1.6. Azərbaycan Respublikasının milli maraqlarına uyğun sahələrdə qəbul edən dövlətlə əlaqələr yaratmaq, əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək;

3.1.7. qəbul edən dövlətin xarici və daxili siyasət məsələləri, qəbul edən dövlətdə və onun yerləşdiyi regionda mövcud beynəlxalq vəziyyət, habelə Azərbaycan Respublikasının milli maraqları baxımından əhəmiyyət kəsb edən hadisələr barədə Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi məlumatlandırmaq;

3.1.8. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında danışıqlar aparılmasını təşkil və təmin etmək;

3.1.9. qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici siyasət məsələləri ilə bağlı şərh və açıqlamalar vermək;

3.1.10. qəbul edən dövlətə ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələrinə xidməti vəzifələrini yerinə yetirməkdə yardım göstərmək;

3.1.11. qəbul edən dövlətdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin qurulmasına, eləcə də onlar arasında əməkdaşlığın inkişafına, həmrəyliyin gücləndirilməsinə və milli mənafeyə xidmət edən tədbirlərin təşkilinə yardım etmək;

3.1.12. Azərbaycan Respublikasının xarici siyasəti çərçivəsində beynəlxalq yardım fəaliyyətinə dair təkliflər vermək, qəbul edən dövlətdə beynəlxalq yardımın təşkilində, həyata keçirilməsində və əlaqələndirilməsində iştirak etmək;

3.1.13. qəbul edən dövlətin razılığı ilə müvafiq dairədə olan Azərbaycan hərbi və mülki məzarlarının, məzarüstü abidələrinin, abidə nişanlarının və memorial (xatirə) tikililərinin qeydiyyatı, mühafizəsi və abadlığı məqsədilə tədbirlər görmək;

3.1.14. Azərbaycan Respublikasının qəbul edən dövlətlə xarici iqtisadi əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə, Azərbaycan Respublikasına xarici sərmayələrin cəlb olunmasına dəstək vermək, həmçinin Azərbaycan mal və xidmətlərinin beynəlxalq bazarlara çıxarılması sahəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarına (qurumlarına) kömək göstərmək;

3.1.15. qəbul edən dövlətdə Azərbaycan Respublikasının iştirakı ilə keçirilən beynəlxalq tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Azərbaycan mədəniyyətinin təqdim və təşviqini təmin edən tədbirlər görmək, Azərbaycan Respublikasının mədəniyyət tədbirlərinin keçirilməsinə dəstək göstərmək;

3.1.16. qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici və daxili siyasəti, iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını təmin etmək;

3.1.17. Azərbaycan Respublikasının milli maraqları baxımından Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına), qeyri-hökumət təşkilatlarına (ictimai birliklərinə və fondlarına) və işgüzar dairələrinə qəbul edən dövlətin dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları) və işgüzar dairələri ilə əlaqələrin qurulmasına və inkişafına kömək göstərmək;

3.1.18. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirliyin tapşırıqlarını yerinə yetirmək, həmçinin Azərbaycan Respublikasının digər dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının Nazirlik vasitəsilə daxil olmuş müraciətlərinə baxmaq;

3.1.19. Azərbaycan Respublikası Milli Məclisinin qəbul edən dövlətdə parlamentlərarası və digər beynəlxalq əlaqələrinin qurulmasına və həyata keçirilməsinə Nazirlik vasitəsilə kömək göstərmək;

3.1.20. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında, beynəlxalq müqavilələrin bağlanılması və ya ləğv edilməsi barədə təkliflər verilməsində, Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında bağlanılmış beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsində iştirak etmək;

3.1.21. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında protokol təminatından irəli gələn funksiyaları həyata keçirmək;

3.1.22. qəbul edən dövlətdə Azərbaycan Respublikasına, onun xarici siyasət təşəbbüslərinə münasibətdə müsbət mövqenin formalaşdırılmasına kömək göstərmək;

3.1.23. qəbul edən dövlətdə Azərbaycan Respublikası konsulluqlarının (olduğu halda) fəaliyyəti üzərində ümumi siyasi rəhbərliyi həyata keçirmək;

3.1.24. müvafiq dairədə Azərbaycan Respublikasının adından konsul funksiyalarının həyata keçirilməsindən irəli gələn hərəkətləri yerinə yetirmək;

3.1.25.müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım göstərmək;

3.1.26. müvafiq dairədə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparmaq;

3.1.27. müvafiq dairədə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hərbi uçotunu aparmaq, kişi cinsindən olan 18 yaşına çatmış vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmaq üçün Azərbaycan Respublikasına gəlmələrini təmin etmək;

3.1.28. müvafiq dairədə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşlarını qeydiyyatdan keçirmək;

3.1.29. Azərbaycan Respublikası məhkəmələrinin və istintaq orqanlarının müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına dair tapşırıqlarını, əgər həmin aktların icrası qəbul edən dövlətin qanunvericiliyinə zidd deyilsə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarına əməl etməklə yerinə yetirmək;

3.1.30. müvafiq dairədə azadlığı məhdudlaşdırılan və ya azadlıqdan məhrum edilən Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə Azərbaycan Respublikası ilə qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunlarına əməl olunub-olunmamasına nəzarət etmək;

3.1.31. müvafiq dairədə itkin düşmüş Azərbaycan Respublikası vətəndaşlarının axtarışı üzrə tədbirlər görmək;

3.1.32. müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına seçki hüquqlarını həyata keçirməkdəkömək göstərmək;

3.1.33. müvafiq dairədə qanunla nəzərdə tutulmuş notariat əməliyyatlarını aparmaq;

3.1.34. müvafiq dairədə konsul leqallaşdırmasını həyata keçirmək;

3.1.35. müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşları barəsində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını (o cümlədən-doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron formada) aparmaq, vətəndaşlıq vəziyyəti aktı qeydlərində dəyişiklik etmək və onları ləğv etmək, itmiş akt qeydlərini bərpa etmək, akt kitablarını saxlamaq və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr və ya arayışlar vermək;

3.1.36. müvafiq dairədə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşları barəsində qəyyumluqla və himayəçiliklə bağlı tədbirləri yerinə yetirmək;

3.1.37. Azərbaycan Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının xeyrinə müvafiq dairədəvərəsəlik açıldıqda, bu vərəsəliyə dair və ehtimal olunan vərəsələr haqqında məlumatı Nazirliyə göndərmək;

3.1.38. müvafiq dairədə səlahiyyətlərinə aid edilən məsələlər üzrə arayışlar vermək;

3.1.39. Azərbaycan Respublikasının vətəndaşları öz maraqlarının müdafiəsini digər şəxsə həvalə etmədikdə və ya öz maraqlarını müdafiə etmək iqtidarında olmadıqda, müvafiq dairədə olan məhkəmə və digər dövlət orqanlarında (qurumlarında), qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, onları təmsil etmək və ya müvafiq təmsilçiliyini təşkil etmək;

3.1.40. müvafiq dairədə müvəqqəti və ya daimi yaşayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılmada iştirak etmək;

3.1.41. müvafiq dairədə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına pasport vermək;

3.1.42. müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini müəyyənləşdirmək və onlara Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi vermək;

3.1.43. müvafiq dairədə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, fəaliyyət göstərən hüquqi şəxslərə elektron imza sertifikatının verilməsini təmin etmək;

3.1.44. müvafiq dairədə yaşayan və Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirmək, elektron viza əldə etmək qaydası haqqında məlumat vermək, həmçinin beynəlxalq tədbirlərdə sadələşdirilmiş viza rejiminin tətbiqi haqqında məlumatlandırmanı təmin etmək;

3.1.45. Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) tərəfindən müvafiq dairədə olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına dövlət xidmətlərinin səyyar formada göstərilməsinə dəstək vermək;

3.1.46. qəbul edən dövlətdə silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda Səfirlik əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də qəbul edən dövlətdə olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək, həmçinin onların təxliyəsini təşkil etmək;

3.1.47. müvafiq dairədə olan Azərbaycan Respublikasının mülki dəniz və hava gəmiləri, hərbi gəmiləri və köməkçi hərbi gəmiləri, hərbi təyyarələri və helikopterləri, həmçinin onların heyəti ilə bağlı normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək, belə gəmilərə və onların heyətinə yardım göstərmək;

3.1.48. müvafiq dairədə olan Azərbaycan Respublikasının beynəlxalq yük və sərnişin daşımalarını həyata keçirən avtomobil və dəmiryolu nəqliyyatı vasitələri, həmçinin onların heyəti ilə bağlı normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək, belə gəmilərə və onların heyətinə yardım göstərmək;

3.1.49. müvafiq dairədə sanitariya, fitosanitariya və baytarlıq mühafizəsi sahələrində normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək;

3.1.50. müvafiq dairədə apardığı konsul əməliyyatlarına görə dövlət rüsumu tutmaq və onun normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə dövlət büdcəsinə köçürülməsini təmin etmək;

3.1.51. Nazirliyin tapşırığı və qəbul edən dövlətin razılığı əsasında, qəbul edən dövlətdə təmsil olunmayan üçüncü dövlətin müraciəti ilə həmin üçüncü dövlətin maraqlarını qəbul edən dövlətdə müdafiə etmək, eləcə də üçüncü dövlətin adından konsul funksiyalarını yerinə yetirmək;

3.1.52. öz fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılmasını, sosial media hesablarının yaradılmasını, eləcə də malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın rəsmi internet ehtiyatındavə sosial media hesablarında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.53. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müraciətlərə baxmaq, diplomatik və rəsmi yazışmalar aparmaq və onların qeydiyyatını, saxlanılmasını, arxivləşdirilməsini və mühafizəsini təmin etmək;

3.1.54. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

## 4. Səfirliyin hüquqları

4.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrini yerinə yetirmək üçün Səfirliyin aşağıdakı hüquqları vardır:

4.1.1. Azərbaycan Respublikasından və qəbul edən dövlətdən rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

4.1.2. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında beynəlxalq müqavilələrin bağlanılması və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

4.1.3. qəbul edən dövlətdə fəaliyyət göstərən üçüncü dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları, vəzifələrinə aid məsələlər üzrə qəbul edən dövlətin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları), media subyektləri və jurnalistləri, elmi, mədəni və işgüzar dairələri ilə xidməti əlaqələr qurmaq və əməkdaşlıq etmək, eləcə də onlara sorğular göndərmək, onlardan məlumat və sənədlər almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə Nazirlik vasitəsilə Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, qeyri-hökumət təşkilatlarına (ictimai birliklərə və fondlara), hüquqi və fiziki şəxslərə sorğular göndərmək və onlardan məlumat və sənədlər almaq;

4.1.5. qəbul edən dövlətlə əməkdaşlıq sahəsində yaradılan birgə hökumətlərarası və digər komissiyaların, eləcə də işçi qrupların işində iştirak etmək, konfranslar, forumlar, seminarlar, iclaslar, sərgilər, görüşlər və digər tədbirlər təşkil etmək, həmçinin bu tədbirlərin təşkilinə dəstək vermək;

4.1.6. müvafiq dairədə konsul funksiyalarından irəli gələn hüquqları həyata keçirmək, aparılan konsul əməliyyatlarına görə faktiki xərcləri tutmaq, eləcə dəkonsul əməliyyatlarının icrası üçün kənar xidmət təchizatçıları ilə əməkdaşlıq etmək;

4.1.7. konsul funksiyalarının icrası ilə bağlı müvafiq dairənin inzibati ərazi vahidlərində şəxslərin qəbulunu həyata keçirmək;

4.1.8. qəbul edən dövlətdə Azərbaycan Respublikası fəxri konsullarının təyin edilməsi barədə Nazirliyə təkliflər təqdim etmək;

4.1.9. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, analitik materiallar hazırlamaq, təhlillər və ümumiləşdirmələr aparmaq;

4.1.10. vəzifələrindən irəli gələn məsələlər üzrə komissiyalar və işçi qruplar yaratmaq;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Səfirliyin fəaliyyətinin təşkili

5.1. Səfirliyə qəbul edən dövlətdə Azərbaycan Respublikasının ən yüksək rəsmi nümayəndəsi olan Səfir rəhbərlik edir.

5.2. Səfir Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir və geri çağırılır.

5.3. Ali təhsili və peşə hazırlığı olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşı Səfir təyin edilə bilər.

5.4. Səfirin təyin edilməsi və geri çağırılması Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənir.

5.5. Səfir təyin edilməsi nəzərdə tutulan şəxs barəsində qəbul edən dövlətin əvvəlcədən razılıq sənədi alınır.

5.6. Səfirə Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun soyadını, adını, atasının adını, vətəndaşlığını, və zifəsini və səlahiyyətini təsdiq edən sənəd (etimadnamə) verilir.

5.7. Səfirin qəbul edən dövlətdə fasiləsiz xidmət müddəti 5 (beş) ildir. Səfir müavininin qəbul edən dövlətdə fasiləsiz xidmət müddəti 4 (dörd) ildir. Azərbaycan Respublikası Prezidentinin qərarına uyğun olaraq Səfir və Səfirin müavini fasiləsiz xidmət müddətindən artıq fəaliyyətini davam etdirə və ya həmin müddətdən əvvəl geri çağırıla bilərlər.

5.8. Səfirliyin digər əməkdaşlarınınfasiləsiz xidmət müddəti 3 (üç) ildir. Bu müddət Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən onların razılığı ilə 1 (bir) ilədək uzadıla bilər və ya onlar "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan hallarda xidmət müddətinin başa çatmasından əvvəl geri çağırıla bilərlər.

5.9. Səfir Səfirliyə həvalə edilmiş vəzifələrin icrası üçün şəxsən məsuliyyət daşıyır və onların yerinə yetirilməsinə görə Nazirliyə hesabat verir.

5.10. Səfir:

5.10.1. qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil edir;

5.10.2. Səfirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.10.3. Səfirlikdə dövlət sirrinin və qanunla mühafizə olunan digər sirlərin qorunmasını təşkil edir;

5.10.4. Səfirliyə ayrılan dövlət büdcəsi vəsaitinin səmərəli sərf olunmasına və maliyyə intizamına riayət edilməsinə nəzarəti həyata keçirir;

5.10.5. Səfirliyin fəaliyyətinə dair icrası məcburi olan sərəncamlar və əmrlər verir;

5.10.6. Səfirlikdə Azərbaycan Respublikasının hüquqi aktlarının və Nazirliyin qərar, sərəncam və əmrlərinin icrasını təşkil edir, həmçinin onların yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

5.10.7. Səfirliyin əməkdaşlarını xidmət üçün zəruri şəraitlə təmin edir, Səfirliyin fəaliyyətinin təşkili ilə bağlı Nazirliyə təkliflər verir;

5.10.8. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

5.10.9. Səfirliyi təmsil edir;

5.10.10. Səfirlik əməkdaşlarının xidməti fəaliyyətini normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada qiymətləndirir;

5.10.11. Səfirliyin xidmətdə xüsusi fərqlənmiş əməkdaşlarının Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Səfirliyin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

5.10.12. Səfirliyin diplomatik xidmət əməkdaşlarının rütbədə və vəzifədə yüksəldilməsi, Səfirlik əməkdaşlarının fasiləsiz xidmət müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uzadılması haqqında Nazirliyə təklif verir;

5.10.13. Səfirliyin əməkdaşlarının və dövlət qulluğunda olmayan işçilərinin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

5.10.14. Səfirliyin dövlət qulluğunda olmayan işçilərini Nazirliklə razılaşdıraraq işə qəbul edir və işdən azad edir;

5.10.15. Səfirliyin, onun əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, qəbul edən dövlətdə silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda Səfirliyin, habelə Azərbaycan Respublikasının qəbul edən dövlətdə olan digər diplomatik xidmət orqanlarının fəaliyyətini, həmçinin Səfirlik əməkdaşlarının və onlarla birlikdə yaşayanailə üzvlərinin, eləcə də qəbul edən dövlətdə olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının davranış qaydasını müəyyən olunmuş qaydada təşkil edir və bu məsələlərlə bağlı rəhbərliyi həyata keçirir;

5.10.16. mühafizəsi zəruri hesab olunan Səfirlikdə mühafizə xidmətinin aparılmasına nəzarət edir;

5.10.17. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə və qəbul edən dövlətin qanunvericiliyi ilə Səfirliyə, Azərbaycan Respublikasının qəbul edən dövlətdə olan digər diplomatik xidmət orqanlarına və Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) qəbul edən dövlətdəki nümayəndəliklərinə, onların əməkdaşlarına (nümayəndələrinə) və onlarla birlikdə yaşayan ailə üzvlərinə, diplomatik poçta və onu daşıyan şəxslərə, həmçinin imtiyaz və immunitet hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən imtiyazların və immunitetlərin qəbul edən dövlətdə təmin olunması məqsədilə tədbirlər görür;

5.10.18. Səfirliyin əməkdaşlarına və Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) qəbul edən dövlətdəki nümayəndələrinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının milli maraqlarına uyğun davranış nümayiş etdirmələri, qəbul edən dövlətin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmaları və daxili işlərinə qarışmamaları barədə tövsiyələr verir;

5.10.19. qəbul edən dövlətdə danışıqlar aparır, beynəlxalq konfranslarda, forumlarda, seminarlarda, iclaslarda, sərgilərdə, görüşlərdə və digər tədbirlərdə iştirak edir, habelə Azərbaycan Respublikası Prezidentinin verdiyi səlahiyyət əsasında beynəlxalq müqavilələr imzalayır;

5.10.20. qəbul edən dövlətlə münasibətlərdə qarşılıqlı prinsipinin tətbiq edilməsinə dair Nazirliyə təkliflər verir;

5.10.21. Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) qəbul edən dövlətdə fəaliyyət göstərən və qəbul edən dövlətə ezam olunmuş nümayəndələrinin qərarları və hərəkətləri Azərbaycan Respublikasının milli maraqlarına cavab vermədiyi təqdirdə, həmin halların qarşısının alınması üçün Nazirliyə məlumat verir;

5.10.22. Azərbaycan Respublikasını eyni zamanda üçüncü dövlətdə yaxud, beynəlxalq təşkilatda və ya onun bölməsində təmsil etdikdə, bu təmsilçilikdən irəli gələn səlahiyyətləri yerinə yetirir;

5.10.23. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.11. Səfir vəzifəsi vakant olduqda və ya Səfir vəzifə funksiyalarını həyata keçirə bilmədikdə, habelə məzuniyyətdə və ya qəbul edən dövlətin xaricində ezamiyyətdə olduğu dövrdə bu vəzifəni Səfirin müavini, Səfirin müavini olmadıqda isə Səfirliyin digər diplomatik xidmət əməkdaşı müvəqqəti icra edir. Səfir vəzifəsini müvəqqəti icra edən diplomatik xidmət əməkdaşı müvəqqəti işlər vəkili adlandırılır. Səfir məzuniyyətdə və ya qəbul edən dövlətin xaricində ezamiyyətdə olduğu dövrdə müvəqqəti işlər vəkili, Nazirliklə razılaşdırmaqla, Səfir, digər hallarda isə Nazirlik tərəfindən müəyyən edilir və bu barədə Səfirlik tərəfindən qəbul edən dövlətin aidiyyəti dövlət orqanına məlumat verilir.

5.12. Səfirliyin strukturunu və ştat cədvəlini Nazirlik təsdiq edir.

5.13. Səfirliyin vəzifələrinin icrasının yerləşdiyi şəhərdən kənarda qəbul edən dövlətin digər inzibati ərazi vahidində icra etmək zərurəti yarandıqda, qəbul edən dövlətin razılığı ilə müvafiq inzibati ərazi vahidində Səfirliyin bölməsi, yaxud Səfir eyni zamanda üçüncü dövlətdə və ya bölməsi üçüncü dövlətdə yerləşən beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil etdikdə, onun səlahiyyətlərinin həyata keçirilməsi üçün üçüncü dövlətin və ya beynəlxalq təşkilatın razılığı ilə həmin dövlətdə və ya beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil edən bölmə yaradıla bilər.

5.14. Səfirliyin maddi-texniki təminatını Nazirlik həyata keçirir.

5.15. Səfirlik əməkdaşlarının hüquq və vəzifələri "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və vəzifə təlimatları ilə müəyyən olunur.

5.16. Səfirliyin fəaliyyəti Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

5.17. Səfirliyə normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri təyin və ya ezam oluna bilərlər. Səfirliyə təyin və ya ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri öz qərarlarını və hərəkətlərini Səfirlə razılaşdırmalıdırlar.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi (bundan sonra - Daimi Nümayəndəlik) beynəlxalq təşkilatda və ya onun bölməsində (bundan sonra - beynəlxalq təşkilat) Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanıdır. Daimi Nümayəndəlik Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.

1.2. Daimi Nümayəndəlik Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsis edilir.

1.3. Daimi Nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Daimi Nümayəndəliyin yerləşdiyi dövlətin (bundan sonra - yerləşmə dövləti), həmçinin beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələri, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin qərar, sərəncam və əmrlərini rəhbər tutur və yerləşmə dövlətinin qanunvericiliyini nəzərə alır.

1.4. Daimi Nümayəndəlik beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) beynəlxalq təşkilatda fəaliyyət göstərən və beynəlxalq təşkilatın orqanlarına, bölmələrinə və nümayəndəliklərinə (bundan sonra - beynəlxalq təşkilatların orqanları) ezam olunmuş nümayəndələrinin işini əlaqələndirir və onların fəaliyyətinə nəzarəti həyata keçirir. Həmin nümayəndələr öz fəaliyyətini Daimi Nümayəndəlik ilə razılaşdırmalıvə bu barədə Daimi Nümayəndəliyə məlumat verməlidirlər.

1.5. Azərbaycan Respublikasının, yerləşmə dövlətinin və beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq, Daimi Nümayəndəliyin binasında və Azərbaycan Respublikası Daimi nümayəndəsinin (bundan sonra - Daimi nümayəndə) iqamətgahında Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılır və Azərbaycan Respublikası Dövlət Gerbinin qabarıq təsviri vurulur. Xidməti vəzifələrini yerinə yetirərkən Daimi nümayəndənin nəqliyyat vasitəsinin üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağı yerləşdirilir. Daimi Nümayəndəliyin binasında və ya ərazisində Azərbaycan dilində və yerləşmə dövlətinin dövlət dilində (dillərində), habelə beynəlxalq təşkilatın rəsmi dilində (dillərindən birində) Daimi Nümayəndəliyin adı yazılan lövhə vurulur. Daimi Nümayəndəlik tərəfindən Azərbaycan Respublikasının dövlət rəmzlərindən beynəlxalq təşkilatın və yerləşmə dövlətinin diplomatik protokol qaydaları, eləcə də yerləşmə dövlətinin qanunvericiliyi nəzərə alınmaqla istifadə olunur.

1.6. Daimi Nümayəndəlik, həmçinin Daimi Nümayəndəlikdə xidmət keçən diplomatik xidmət orqanı əməkdaşları (bundan sonra - əməkdaşlar) və onlarla birlikdə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının, yerləşmə dövlətinin və beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və yerləşmə dövlətinin qanunvericiliyinə uyğun olaraq, yerləşmə dövlətində imtiyazlardan və immunitetlərdən istifadə edirlər. Daimi Nümayəndəliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri yerləşmə dövlətinin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmalı, yerləşmə dövlətinin daxili işlərinə qarışmamalıdırlar.

1.7. Daimi Nümayəndəliyin, nümunəsi Nazirlik tərəfindən təsdiq olunmuş və üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və Daimi Nümayəndəliyin adı həkk olunmuş möhürü, həmçinin kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları, blankları və bank hesabları vardır.

1.8. Daimi Nümayəndəliyin Azərbaycan Respublikasının mülkiyyəti olan torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada Daimi Nümayəndəliyə təhkim edilir. Daimi Nümayəndəlik ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

### 2. Daimi Nümayəndəliyin fəaliyyət istiqamətləri

2.1. Daimi Nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil etmək;

2.1.2. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici siyasətini vahid xətt üzrə həyata keçirmək;

2.1.3. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, milli təhlükəsizliyini və milli maraqlarını xarici siyasət vasitələri ilə və diplomatik üsullarla qorumaq və təmin etmək;

2.1.4. Azərbaycan Respublikası ilə beynəlxalq təşkilat arasında əməkdaşlığı inkişaf etdirmək;

2.1.5. beynəlxalq təşkilatda Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiə etmək;

2.1.6. beynəlxalq təşkilatın fəaliyyətində Azərbaycan Respublikasının iştirakını təmin etmək;

2.1.7. Azərbaycan Respublikasının beynəlxalq təşkilatla diplomatik əlaqələrini həyata keçirmək;

2.1.8. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin beynəlxalq təşkilatda həyata keçirilməsinə dəstək vermək;

2.1.9. beynəlxalq təşkilatın orqanlarına Azərbaycan Respublikası rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə kömək etmək;

2.1.10. beynəlxalq təşkilatın fəaliyyətini təhlil etmək və Nazirliyə təkliflər vermək;

2.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Daimi Nümayəndəliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Daimi Nümayəndəliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasını beynəlxalq təşkilatda təmsil etmək və onun milli maraqlarını qorumaq;

3.1.2. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsini təmin etmək;

3.1.3. Azərbaycan Respublikası ilə beynəlxalq təşkilat arasında əməkdaşlığı inkişaf etdirmək;

3.1.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasından irəli gələn məsələləri beynəlxalq təşkilatda xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

3.1.5. beynəlxalq təşkilatda Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsindən irəli gələn funksiyaları xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

3.1.6. beynəlxalq təşkilatın fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi məlumatlandırmaq;

3.1.7. Azərbaycan Respublikası ilə beynəlxalq təşkilat arasında danışıqlar aparılmasını təşkil və təmin etmək;

3.1.8. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici siyasət məsələləri ilə bağlı şərh və açıqlamalar vermək;

3.1.9. beynəlxalq təşkilatın orqanlarına ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələrinə xidməti vəzifələrini yerinə yetirməkdə kömək göstərmək;

3.1.10. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin beynəlxalq təşkilatda həyata keçirilməsinə dəstək vermək, eləcə də yerləşmə dövlətində yaşayan soydaşlarla əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına yardım etmək;

3.1.11. Azərbaycan Respublikasının xarici siyasəti çərçivəsində beynəlxalq yardım fəaliyyətinə dair təkliflər vermək, beynəlxalq yardımın təşkilində, həyata keçirilməsində və əlaqələndirilməsində iştirak etmək;

3.1.12. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının iştirakı ilə keçirilən beynəlxalq tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Azərbaycan mədəniyyətinin təqdim və təşviqini təmin edən tədbirlər görmək, Azərbaycan Respublikasının mədəniyyət tədbirlərinin keçirilməsinə dəstək göstərmək;

3.1.13. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici və daxili siyasəti, iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını təmin etmək;

3.1.14. beynəlxalq təşkilat çərçivəsində beynəlxalq müqavilələrin və beynəlxalq təşkilatın fəaliyyətinə dair digər sənədlərin layihələrinin hazırlanmasında, beynəlxalq təşkilat çərçivəsində beynəlxalq müqavilələrin bağlanılması və ya ləğv edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.15. Azərbaycan Respublikasının üzv və ya müşahidəçi olduğu beynəlxalq təşkilatın orqanlarında müvafiq vəzifələr üzrə Azərbaycan Respublikasına kvota ayrılması və ya ayrılmış kvotanın artırılması, həmçinin Azərbaycan Respublikasının üzv və ya müşahidəçi olduğu, eləcə də əməkdaşlıq etdiyi beynəlxalq təşkilatın orqanlarında müvafiq vəzifələrin Azərbaycan Respublikasının vətəndaşları tərəfindən tutulması istiqamətində iş aparmaq;

3.1.16. Azərbaycan Respublikasının beynəlxalq təşkilat qarşısında götürdüyü öhdəliklərinin yerinə yetirilməsində və beynəlxalq təşkilat çərçivəsində qəbul edilmiş Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsində iştirak etmək;

3.1.17. Azərbaycan Respublikasının milli maraqları baxımından Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına) və qeyri-hökumət təşkilatlarına (ictimai birliklərə və fondlara) beynəlxalq təşkilatın orqanları ilə əlaqələrin qurulmasına və inkişafına kömək göstərmək;

3.1.18. Azərbaycan Respublikasına və onun xarici siyasət təşəbbüslərinə münasibətdə beynəlxalq təşkilatda müsbət mövqenin formalaşdırılmasına kömək göstərmək;

3.1.19. beynəlxalq təşkilatın fəaliyyətini, beynəlxalq təşkilata üzv və müşahidəçi olan, eləcə də beynəlxalq təşkilatla əməkdaşlıq edən xarici dövlətlərin beynəlxalq təşkilat çərçivəsində əməkdaşlığının səviyyəsini və əsas fəaliyyət istiqamətlərini öyrənmək və təhlil etmək;

3.1.20. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirliyin tapşırıqlarını yerinə yetirmək, həmçinin Azərbaycan Respublikasının digər dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının Nazirlik vasitəsilə daxil olmuş müraciətlərinə baxmaq;

3.1.21. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq təşkilatda parlamentlərarası və digər beynəlxalq əlaqələrinin qurulmasına və həyata keçirilməsinə Nazirlik vasitəsilə kömək göstərmək;

3.1.22. öz fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılmasını, sosial media hesablarının yaradılmasını, eləcə də malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın rəsmi internet informasiya ehtiyatında və sosial media hesablarında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.23. yerləşmə dövlətində silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda, Daimi Nümayəndəlik əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də yerləşmə dövlətində olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək, həmçinin onların təxliyəsini Azərbaycan Respublikasının həmin dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə təşkil etmək;

3.1.24. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müraciətlərə baxmaq, diplomatik və rəsmi yazışmalar aparmaq və onların qeydiyyatını, saxlanılmasını, arxivləşdirilməsini və mühafizəsini təmin etmək;

3.1.25. Nazirliyin tapşırığı və beynəlxalq təşkilatın razılığı əsasında, beynəlxalq təşkilatda təmsil olunmayan üçüncü dövlətin xahişi ilə həmin dövlətin maraqlarını, eləcə də onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini beynəlxalq razılaşmalar əsasında beynəlxalq təşkilatda müdafiə etmək;

3.1.26. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

### 4. Daimi Nümayəndəliyin hüquqları

4.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrini yerinə yetirmək üçün Daimi Nümayəndəliyin aşağıdakı hüquqları vardır:

4.1.1. Azərbaycan Respublikasından və beynəlxalq təşkilatdan rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

4.1.2. Azərbaycan Respublikasının beynəlxalq təşkilat çərçivəsində beynəlxalq müqavilələrinin bağlanılması və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

4.1.3. yerləşmə dövlətində fəaliyyət göstərən beynəlxalq təşkilatların orqanları, vəzifələrinə aid məsələlər üzrə yerləşmə dövlətinin dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları), media subyektləri və jurnalistləri, elmi, mədəni və işgüzar dairələri ilə xidməti əlaqələr qurmaq və əməkdaşlıq etmək, eləcə də onlara sorğular göndərmək, onlardan məlumat və sənədlər almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə Nazirlik vasitəsilə Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, qeyri-hökumət təşkilatlarına (ictimai birliklərə və fondlara), hüquqi və fiziki şəxslərə sorğular göndərmək və onlardan məlumat və sənədlər almaq;

4.1.5. beynəlxalq təşkilatla əməkdaşlıq sahəsində yaradılan birgə və digər komissiyaların, eləcə də işçi qrupların işində iştirak etmək, konfranslar, forumlar, seminarlar, iclaslar, sərgilər, görüşlər və digər tədbirlər təşkil etmək, həmçinin bu tədbirlərin təşkilinə dəstək vermək;

4.1.6. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, analitik materiallar hazırlamaq, təhlillər və ümumiləşdirmələr aparmaq;

4.1.7. vəzifələrindən irəli gələn məsələlər üzrə komissiyalar və işçi qruplar yaratmaq;

4.1.8. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Daimi Nümayəndəliyin fəaliyyətinin təşkili

5.1. Daimi Nümayəndəliyə Azərbaycan Respublikasının beynəlxalq təşkilatda ən yüksək rəsmi nümayəndəsi olan Daimi nümayəndə rəhbərlik edir.

5.2. Daimi nümayəndə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir və geri çağırılır.

5.3. Ali təhsili və peşə hazırlığı olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşı Daimi nümayəndə təyin edilə bilər.

5.4. Daimi nümayəndənin təyin edilməsi və geri çağırılması Azərbaycan Respublikasının və beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənir.

5.5. Daimi nümayəndə təyin edilməsi nəzərdə tutulan şəxs barəsində beynəlxalq təşkilatın əvvəlcədən razılıq sənədi alınır.

5.6. Daimi nümayəndəyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun soyadını, adını, atasının adını, vətəndaşlığını,vəzifəsini və səlahiyyətini təsdiq edən sənəd (etimadnamə) verilir.

5.7. Daimi nümayəndənin beynəlxalq təşkilatda fasiləsiz xidmət müddəti 5 (beş) ildir. Daimi nümayəndənin müavininin beynəlxalq təşkilatda fasiləsiz xidmət müddəti 4 (dörd) ildir. Azərbaycan Respublikası Prezidentinin qərarına uyğun olaraq Daimi nümayəndə və Daimi nümayəndənin müavini fasiləsiz xidmət müddətindən artıq fəaliyyətini davam etdirə və ya həmin müddətdən əvvəl geri çağırıla bilərlər.

5.8. Daimi Nümayəndəliyin digər əməkdaşlarının fasiləsiz xidmət müddəti 3 (üç) ildir. Bu müddət Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən onların razılığı ilə 1 (bir) ilədək uzadıla bilər və ya onlar "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan hallarda xidmət müddətinin başa çatmasından əvvəl geri çağırıla bilərlər.

5.9. Daimi nümayəndə Daimi Nümayəndəliyə həvalə edilmiş vəzifələrin icrası üçün şəxsən məsuliyyət daşıyır və onların yerinə yetirilməsinə görə Nazirliyə hesabat verir.

5.10. Daimi nümayəndə:

5.10.1. beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil edir;

5.10.2. Daimi Nümayəndəliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.10.3. Daimi Nümayəndəlikdə dövlət sirrinin və qanunla mühafizə olunan digər sirlərin qorunmasını təşkil edir;

5.10.4. Daimi Nümayəndəliyə ayrılan dövlət büdcəsi vəsaitinin səmərəli sərf olunmasına və maliyyə intizamına riayət edilməsinə nəzarəti həyata keçirir;

5.10.5. Daimi Nümayəndəliyin fəaliyyətinə dair icrası məcburi olan sərəncamlar və əmrlər verir;

5.10.6. Daimi Nümayəndəlikdə Azərbaycan Respublikasının hüquqi aktlarının və Nazirliyin qərar, sərəncam və əmrlərinin icrasını təşkil edir, həmçinin onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

5.10.7. Daimi Nümayəndəliyin əməkdaşlarını xidmət üçün zəruri şəraitlə təmin edir, Daimi Nümayəndəliyin fəaliyyətinin təşkili ilə bağlı Nazirliyə təkliflər verir;

5.10.8. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

5.10.9. Daimi Nümayəndəliyi təmsil edir;

5.10.10. Daimi Nümayəndəlik əməkdaşlarının xidməti fəaliyyətini normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada qiymətləndirir;

5.10.11. Daimi Nümayəndəliyin xidmətdə xüsusi fərqlənmiş əməkdaşlarının Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Daimi Nümayəndəliyin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

5.10.12. Daimi Nümayəndəliyin diplomatik xidmət əməkdaşlarının rütbədə və vəzifədə yüksəldilməsi, Daimi Nümayəndəlik əməkdaşlarının fasiləsiz xidmət müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uzadılması haqqında Nazirliyə təklif verir;

5.10.13. Daimi Nümayəndəlik əməkdaşlarının və dövlət qulluğunda olmayan işçilərinin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

5.10.14. Daimi Nümayəndəliyin dövlət qulluğunda olmayan işçilərini Nazirliklə razılaşdıraraq işə qəbul edir və işdən azad edir;

5.10.15. Daimi Nümayəndəliyin, onun əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, yerləşmə dövlətində silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda Daimi Nümayəndəliyin fəaliyyətini, həmçinin Daimi Nümayəndəlik əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də yerləşmə dövlətində olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının davranış qaydasını Azərbaycan Respublikasının yerləşmə dövlətindəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə təşkil edir;

5.10.16. mühafizəsi zəruri hesab olunan Daimi Nümayəndəlikdə mühafizə xidmətinin aparılmasına nəzarət edir;

5.10.17. Azərbaycan Respublikasının, yerləşmə dövlətinin və beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və yerləşmə dövlətinin qanunvericiliyinə görə Daimi Nümayəndəliyə və Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) beynəlxalq təşkilatdakı nümayəndəliklərinə, onların əməkdaşlarına (nümayəndələrinə) və onlarla birlikdə yaşayan ailə üzvlərinə, diplomatik poçta və onu daşıyan şəxslərə, həmçinin imtiyaz və immunitet hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən imtiyazların və immunitetlərin yerləşmə dövlətində təmin olunması məqsədilə lazımi tədbirlər görür;

5.10.18. Daimi Nümayəndəliyin əməkdaşlarına və Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) beynəlxalq təşkilatdakı nümayəndələrinə beynəlxalq təşkilatda Azərbaycan Respublikasının milli maraqlarına uyğun davranış nümayiş etdirmələri, yerləşmə dövlətinin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmaları və daxili işlərinə qarışmamaları barədə tövsiyələr verir;

5.10.19. beynəlxalq təşkilatda danışıqlar aparır, beynəlxalq konfranslarda, forumlarda, seminarlarda, iclaslarda, sərgilərdə, görüşlərdə və digər tədbirlərdə iştirak edir, habelə Azərbaycan Respublikası Prezidentinin verdiyi səlahiyyət əsasında beynəlxalq müqavilələr imzalayır;

5.10.20. beynəlxalq təşkilat və ya yerləşmə dövləti ilə münasibətlərdə qarşılılıq prinsipinin tətbiq edilməsinə dair Nazirliyə təkliflər verir;

5.10.21. Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) beynəlxalq təşkilatda fəaliyyət göstərən və beynəlxalq təşkilatın orqanlarına ezam olunmuş nümayəndələrinin qərarları və hərəkətləri Azərbaycan Respublikasının milli maraqlarına cavab vermədiyi təqdirdə, həmin halların qarşısının alınması üçün Nazirliyə məlumat verir;

5.10.22. Azərbaycan Respublikasını eyni zamanda üçüncü dövlətdə, yaxud digər beynəlxalq təşkilatda və ya onun bölməsində təmsil etdikdə, bu təmsilçilikdən irəli gələn səlahiyyətləri yerinə yetirir;

5.10.23. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.11. Daimi nümayəndə vəzifəsi vakant olduqda və ya Daimi nümayəndə vəzifə funksiyalarını həyata keçirə bilmədikdə, habelə məzuniyyətdə və ya yerləşmə dövlətinin xaricində ezamiyyətdə olduğu dövrdə bu vəzifəni Daimi nümayəndənin müavini, Daimi nümayəndənin müavini olmadıqda isə Daimi Nümayəndəliyin digər diplomatik xidmət əməkdaşı müvəqqəti icra edir. Daimi nümayəndə vəzifəsini müvəqqəti icra edən diplomatik xidmət əməkdaşı müvəqqəti işlər vəkili adlandırılır. Daimi nümayəndə məzuniyyətdə və ya yerləşmə dövlətinin xaricində ezamiyyətdə olduğu dövrdə müvəqqəti işlər vəkili, Nazirliklə razılaşdırmaqla, Daimi nümayəndə, digər hallarda isə Nazirlik tərəfindən müəyyən edilir və bu barədə Daimi Nümayəndəlik tərəfindən beynəlxalq təşkilatın aidiyyəti orqanına məlumat verilir.

5.12. Daimi Nümayəndəliyin strukturunu və ştat cədvəlini Nazirlik təsdiq edir.

5.13. Daimi nümayəndə eyni zamanda üçüncü dövlətdə və ya bölməsi üçüncü dövlətdə yerləşən beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil etdikdə, onun səlahiyyətlərinin həyata keçirilməsi üçün üçüncü dövlətin razılığı ilə həmin dövlətdə müvafiq bölmə yaradıla bilər.

5.14. Daimi Nümayəndəliyin maddi-texniki təminatını Nazirlik həyata keçirir.

5.15. Daimi Nümayəndəliyin əməkdaşlarının hüquq və vəzifələri "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və vəzifə təlimatları ilə müəyyən olunur.

5.16. Daimi Nümayəndəliyin fəaliyyəti Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

5.17. Daimi Nümayəndəliyə normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri təyin və ya ezam oluna bilərlər. Daimi Nümayəndəliyə təyin və ya ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri öz qərarlarını və hərəkətlərini Daimi nümayəndə ilə razılaşdırmalıdırlar.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Konsulluğu haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Konsulluğu (bundan sonra - Konsulluq) qəbul edən dövlətdə müvafiq konsul dairəsində Azərbaycan Respublikasının adından konsul funksiyalarını həyata keçirən diplomatik xidmət orqanıdır. Konsulluq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.

1.2. Konsulluq, dərəcəsinə görə, Azərbaycan Respublikasının baş konsulluqlarından, konsulluqlarından, vitse-konsulluqlarından və konsul agentliklərindən ibarətdir.

1.3. Konsulluq Azərbaycan Respublikası xarici işlər nazirinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilir.

1.4. Konsulluq Azərbaycan Respublikasının qəbul edən dövlətdəki Səfirliyi (olduğu halda) rəhbərinin ümumi siyasi rəhbərliyi altında fəaliyyət göstərir.

1.5. Konsulluq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələri, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin qərar, sərəncam və əmrlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

1.6. Konsulluq Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) konsul dairəsində fəaliyyət göstərən və ya konsul dairəsinə ezam olunmuş nümayəndələrinin Konsulluğun fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə işini əlaqələndirir və onların həmin istiqamətdə fəaliyyətinə nəzarəti həyata keçirir. Həmin nümayəndələr Konsulluğun fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə fəaliyyətlərini Konsulluqla razılaşdırmalı və bu barədə Konsulluğa məlumat verməlidirlər.

1.7. Konsulluğun yeri (təsis olunacağı şəhər), dərəcəsi və konsul dairəsi qəbul edən dövlətlə razılıq əsasında müəyyənləşdirilir.

1.8. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq, Konsulluğun binasında və Konsulluq rəhbərinin iqamətgahında Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılır və Azərbaycan Respublikası Dövlət Gerbinin qabarıq təsviri vurulur. Xidməti vəzifələrini yerinə yetirərkən Konsulluq rəhbərinin nəqliyyat vasitəsinin üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağı yerləşdirilir. Konsulluğun binasında və ya ərazisində Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dillərində) Konsulluğun adı yazılan lövhə vurulur. Konsulluq tərəfindən Azərbaycan Respublikasının dövlət rəmzlərindən qəbul edən dövlətin qanunvericiliyi və diplomatik protokol qaydaları nəzərə alınmaqla istifadə olunur.

1.9. Konsulluq, həmçinin Konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşları (bundan sonra - əməkdaşlar) və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətdə Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq, qəbul edən dövlətdə imtiyazlardan və immunitetlərdən istifadə edirlər. Konsulluğun əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmalı və daxili işlərinə qarışmamalıdırlar.

1.10. Konsulluğun, nümunələri Nazirlik tərəfindən təsdiq olunmuş və üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və Konsulluğun adı həkk olunmuş möhürləri, həmçinin kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları, blankları və bank hesabları vardır.

1.11. Konsulluğun Azərbaycan Respublikasının mülkiyyəti olan torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada Konsulluğa təhkim edilir. Konsulluq ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

### 2. Konsulluğun fəaliyyət istiqamətləri

2.1. Konsulluğun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. konsul dairəsində Azərbaycan Respublikasının konsul əlaqələrini həyata keçirmək;

2.1.2. konsul dairəsində Azərbaycan Respublikasının milli maraqlarını qorumaq və təmin etmək;

2.1.3. konsul dairəsində Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək;

2.1.4. qəbul edən dövlətlə Azərbaycan Respublikasının dostluq münasibətlərinin inkişafına, iqtisadi, elmi-texniki, mədəni, ticarət, idman, turizm və digər sahələrdə əlaqələrinin genişlənməsinə yardım göstərmək;

2.1.5. konsul dairəsində yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin inkişafına dəstək vermək;

2.1.6. qəbul edən dövlətə Azərbaycan Respublikası rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə kömək göstərmək;

2.1.7. konsul dairəsində Azərbaycan Respublikasının adından konsul funksiyalarını həyata keçirmək;

2.1.8. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Konsulluğun vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Konsulluğun vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında dostluq münasibətlərinin inkişafına yardım etmək;

3.1.2. konsul dairəsində Azərbaycan Respublikasının xarici və daxili siyasəti, iqtisadi, sosial, elmi-texniki, mədəni, ticarət, idman, turizm və digər sahələrdə nailiyyətləri haqqında rəsmi məlumatın yayılmasını təmin etmək;

3.1.3. konsul dairəsi çərçivəsində qəbul edən dövlətin iqtisadi, sosial, elmi-texniki, mədəni, ticarət, idman, turizm və digər məsələləri barədə Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi məlumatlandırmaq, həmin sahələr üzrə əməkdaşlığın yaradılmasına və inkişaf etdirilməsinə kömək göstərmək;

3.1.4. Azərbaycan Respublikasının milli maraqları baxımından Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına), qeyri-hökumət təşkilatlarına (ictimai birliklərə və fondlara) və işgüzar dairələrinə qəbul edən dövlətin konsul dairəsində olan dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) və işgüzar dairələri ilə əlaqələrin qurulmasına və inkişafına kömək göstərmək;

3.1.5. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirliyin tapşırıqlarını yerinə yetirmək, həmçinin Azərbaycan Respublikasının digər dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının Nazirlik vasitəsilə daxil olmuş müraciətlərinə baxmaq;

3.1.6. Azərbaycan Respublikasının qəbul edən dövlətlə bağlanılması nəzərdə tutulan beynəlxalq müqavilələrinin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.7. Azərbaycan Respublikasının qəbul edən dövlətlə xarici iqtisadi əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə, Azərbaycan Respublikasına xarici sərmayələrin cəlb olunmasına dəstək vermək, həmçinin Azərbaycan mal və xidmətlərinin beynəlxalq bazarlara çıxarılması sahəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarına (qurumlarına) kömək göstərmək;

3.1.8. konsul dairəsində Azərbaycan Respublikasının iştirakı ilə keçirilən beynəlxalq tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Azərbaycan mədəniyyətinin təqdim və təşviqini təmin edən tədbirlər görmək, Azərbaycan Respublikasının mədəniyyət tədbirlərinin keçirilməsinə dəstək göstərmək;

3.1.9. konsul dairəsinə ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələrinə xidməti vəzifələrini yerinə yetirməkdə yardım göstərmək;

3.1.10. konsul dairəsində yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin qurulmasına, eləcə də onlar arasında əməkdaşlığın inkişafına, həmrəyliyin gücləndirilməsinə və milli mənafeyə xidmət edən tədbirlərin təşkilinə, mədəni-maarif tədbirlərinin keçirilməsinə yardım etmək;

3.1.11. Azərbaycan Respublikasının xarici siyasəti çərçivəsində beynəlxalq yardım fəaliyyətinə dair təkliflər vermək, konsul dairəsində beynəlxalq yardımın təşkilində, həyata keçirilməsində və əlaqələndirilməsində iştirak etmək;

3.1.12. qəbul edən dövlətin razılığı ilə konsul dairəsində olan Azərbaycan hərbi və mülki məzarlarının, məzarüstü abidələrinin, abidə nişanlarının və memorial (xatirə) tikililərinin qeydiyyatı, mühafizəsi və abadlığı məqsədilə tədbirlər görmək;

3.1.13. konsul dairəsində Azərbaycan Respublikasının milli maraqlarını, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini konsul funksiyalarına aid üsul və vasitələrlə müdafiə etmək;

3.1.14. konsul dairəsində Azərbaycan Respublikasının adından konsul funksiyalarının həyata keçirilməsindən irəli gələn hərəkətləri yerinə yetirmək;

3.1.15. konsul dairəsində olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım göstərmək;

3.1.16. konsul dairəsində müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparmaq;

3.1.17. konsul dairəsində müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hərbi uçotunu aparmaq, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmaq üçün Azərbaycan Respublikasına gəlmələrini təmin etmək;

3.1.18. konsul dairəsində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşlarını qeydiyyatdan keçirmək;

3.1.19. Azərbaycan Respublikası məhkəmələrinin və istintaq orqanlarının konsul dairəsində olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına dair tapşırıqlarını, əgər həmin aktların icrası qəbul edən dövlətin qanunvericiliyinə zidd deyilsə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarına əməl etməklə yerinə yetirmək;

3.1.20. konsul dairəsində azadlığı məhdudlaşdırılan və ya azadlıqdan məhrum edilən Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə Azərbaycan Respublikası ilə qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunlarına əməl olunub-olunmamasına nəzarət etmək;

3.1.21. konsul dairəsində itkin düşmüş Azərbaycan Respublikası vətəndaşlarının axtarışı üzrə tədbirlər görmək;

3.1.22. konsul dairəsində olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarına seçki hüquqlarını həyata keçirməkdə kömək göstərmək;

3.1.23. konsul dairəsində qanunla nəzərdə tutulmuş notariat əməliyyatlarını aparmaq;

3.1.24. konsul dairəsində konsul leqallaşdırmasını həyata keçirmək;

3.1.25. konsul dairəsində olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşları barəsində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını (o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron formada) aparmaq, vətəndaşlıq vəziyyəti aktı qeydlərində dəyişiklik etmək və onları ləğv etmək, itmiş akt qeydlərini bərpa etmək, akt kitablarını saxlamaq və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr və ya arayışlar vermək;

3.1.26. konsul dairəsində müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşları barəsində qəyyumluqla və himayəçiliklə bağlı tədbirləri yerinə yetirmək;

3.1.27. Azərbaycan Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının xeyrinə konsul dairəsində vərəsəlik açıldıqda, bu vərəsəliyə dair və ehtimal olunan vərəsələr haqqında məlumatı Nazirliyə göndərmək;

3.1.28. konsul dairəsində səlahiyyətlərinə aid edilən məsələlər üzrə arayışlar vermək;

3.1.29. Azərbaycan Respublikasının vətəndaşları öz maraqlarının müdafiəsini digər şəxsə həvalə etmədikdə və ya öz maraqlarını müdafiə etmək iqtidarında olmadıqda, konsul dairəsində olan məhkəmə və digər dövlət orqanlarında (qurumlarında), qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, onları təmsil etmək və ya müvafiq təmsilçiliyi təşkil etmək;

3.1.30. konsul dairəsində müvəqqəti və ya daimi yaşayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılmada iştirak etmək;

3.1.31. konsul dairəsində müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına pasport vermək;

3.1.32. konsul dairəsində olan və ya yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini müəyyənləşdirmək və onlara Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi vermək;

3.1.33. konsul dairəsində yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, fəaliyyət göstərən hüquqi şəxslərə elektron imza sertifikatının verilməsini təmin etmək;

3.1.34. konsul dairəsində yaşayan və Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirmək, elektron viza əldə etmək qaydası haqqında məlumat vermək, həmçinin beynəlxalq tədbirlərdə sadələşdirilmiş viza rejiminin tətbiqi haqqında məlumatlandırmanı təmin etmək;

3.1.35. Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) tərəfindən konsul dairəsində Azərbaycan Respublikası vətəndaşlarına dövlət xidmətlərinin səyyar formada göstərilməsinə dəstək vermək;

3.1.36. konsul dairəsində silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda, Konsulluq əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də qəbul edən dövlətdə olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək, həmçinin onların təxliyəsini Azərbaycan Respublikasının qəbul edən dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə təşkil etmək;

3.1.37. konsul dairəsində olan Azərbaycan Respublikasının mülki dəniz və hava gəmiləri, hərbi gəmiləri və köməkçi hərbi gəmiləri, hərbi təyyarələri və hərbi helikopterləri, həmçinin onların heyəti ilə bağlı normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək, belə gəmilərə və onların heyətinə yardım göstərmək;

3.1.38. konsul dairəsində olan Azərbaycan Respublikasının beynəlxalq yük və sərnişin daşımalarını həyata keçirən avtomobil və dəmiryolu nəqliyyatı vasitələri, həmçinin onların heyəti ilə bağlı normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək, belə nəqliyyat vasitələrinə və onların heyətinə yardım göstərmək;

3.1.39. konsul dairəsində sanitariya, fitosanitariya və baytarlıq mühafizəsi sahələrində normativ hüquqi aktlarla müəyyən edilmiş funksiyaları həyata keçirmək;

3.1.40. konsul dairəsində apardığı konsul əməliyyatlarına görə dövlət rüsumu tutmaq və onun normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə dövlət büdcəsinə köçürülməsini təmin etmək;

3.1.41. Nazirliyin tapşırığı və qəbul edən dövlətin razılığı əsasında, qəbul edən dövlətdə təmsil olunmayan üçüncü dövlətin müraciəti ilə həmin üçüncü dövlətin adından konsul funksiyalarını yerinə yetirmək;

3.1.42. öz fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılmasını, sosial media hesablarının yaradılmasını, eləcə də malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın rəsmi internet informasiya ehtiyatında və sosial media hesablarında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.43. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müraciətlərə baxmaq, diplomatik və rəsmi yazışmalar aparmaq, həmçinin onların qeydiyyatını, saxlanılmasını, arxivləşdirilməsini və mühafizəsini təmin etmək;

3.1.44. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

### 4. Konsulluğun hüquqları

4.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrini yerinə yetirmək üçün Konsulluğun aşağıdakı hüquqları vardır:

4.1.1. Azərbaycan Respublikasından və konsul dairəsindən rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

4.1.2. konsul dairəsində fəaliyyət göstərən üçüncü dövlətlərin konsulluqları, vəzifələrinə aid məsələlər üzrə qəbul edən dövlətin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları), media subyektləri və jurnalistləri, elmi, mədəni və işgüzar dairələri ilə xidməti əlaqələr qurmaq və əməkdaşlıq etmək, eləcə də onlara sorğular göndərmək, onlardan məlumat və sənədlər almaq;

4.1.3. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə Nazirlik vasitəsilə Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, qeyri-hökumət təşkilatlarına (ictimai birliklərə və fondlara), hüquqi və fiziki şəxslərə sorğular göndərmək, onlardan məlumat və sənədlər almaq;

4.1.4. xarici dövlətlərlə əməkdaşlıq sahəsində yaradılan birgə komissiyaların və işçi qrupların işində iştirak etmək, konfranslar, forumlar, seminarlar, iclaslar, sərgilər, görüşlər və digər tədbirlər təşkil etmək, həmçinin bu tədbirlərin təşkilinə dəstək vermək;

4.1.5. konsul dairəsində konsul funksiyalarından irəli gələn hüquqları həyata keçirmək, aparılan konsul əməliyyatlarına görə faktiki xərcləri tutmaq, eləcə də konsul əməliyyatlarının icrası üçün kənar xidmət təchizatçıları ilə əməkdaşlıq etmək;

4.1.6. konsul funksiyalarının icrası ilə bağlı konsul dairəsinin inzibati ərazi vahidlərində şəxslərin qəbulunu həyata keçirmək;

4.1.7. qəbul edən dövlətdə Azərbaycan Respublikası fəxri konsullarının təyin edilməsi barədə Nazirliyə təkliflər vermək;

4.1.8. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, analitik materiallar hazırlamaq, təhlillər və ümumiləşdirmələr aparmaq;

4.1.9. vəzifələrindən irəli gələn məsələlər üzrə komissiyalar və işçi qruplar yaratmaq;

4.1.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Konsulluğun fəaliyyətinin təşkili

5.1. Baş konsulluğa, konsulluğa, vitse-konsulluğa və konsul agentliyinə müvafiq olaraq Baş konsul, konsul, vitse-konsul və konsul agenti rəhbərlik edir.

5.2. Baş konsul Azərbaycan Respublikası xarici işlər nazirinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən, konsul, vitse-konsul və konsul agenti Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin edilir və geri çağırılır.

5.3. Ali təhsili və peşə hazırlığı olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşı Konsulluğun rəhbəri təyin edilə bilər.

5.4. Konsulluq rəhbərinin təyin edilməsi və geri çağırılması Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənir.

5.5. Konsulluğun rəhbəri təyin edilməsi nəzərdə tutulan şəxs barəsində qəbul edən dövlətin əvvəlcədən razılıq sənədi (ekzekvatura) alınır.

5.6. Konsulluğun rəhbərinə Nazirlik tərəfindən onun soyadını, adını, atasının adını, vətəndaşlığını, vəzifəsini, kateqoriyasını, dərəcəsini, konsul dairəsini və Konsulluğun yerini (təsis olunduğu şəhəri) təsdiq edən vəkalətnamə (konsul patenti) verilir.

5.7. Baş konsulun qəbul edən dövlətdə fasiləsiz xidmət müddəti 4 (dörd) ildir. Azərbaycan Respublikası Prezidentinin qərarına uyğun olaraq Baş konsul fasiləsiz xidmət müddətindən artıq fəaliyyətini davam etdirə və ya həmin müddətdən əvvəl geri çağırıla bilər.

5.8. Konsulun, vitse-konsulun və konsul agentinin fasiləsiz xidmət müddəti 3 (üç) ildir. Bu müddət Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən onların razılığı ilə 1 (bir) ilədək uzadıla və ya onlar "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan hallarda xidmət müddətinin başa çatmasından əvvəl geri çağırıla bilərlər.

5.9. Qəbul edən dövlətin konsul dairəsinə aid olmayan ərazisində, həmçinin Konsulluğun olmadığı xarici dövlətdə konsul funksiyalarını həmin dövlətdə akkreditə olunan Azərbaycan Respublikasının Səfirliyi həyata keçirir.

5.10. Konsulluğun rəhbəri konsulluğa həvalə edilmiş vəzifələrin icrası üçün şəxsən məsuliyyət daşıyır və onların yerinə yetirilməsinə görə Nazirliyə hesabat verir.

5.11. Konsulluğun rəhbəri:

5.11.1. Konsulluğun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.11.2. Konsulluqda dövlət sirrinin və qanunla mühafizə olunan digər sirlərin qorunmasını təşkil edir;

5.11.3. Konsulluğa ayrılan dövlət büdcəsi vəsaitinin səmərəli sərf olunmasına və maliyyə intizamına riayət edilməsinə nəzarəti həyata keçirir;

5.11.4. Konsulluğun fəaliyyətinə dair icrası məcburi olan sərəncamlar və əmrlər verir;

5.11.5. Konsulluqda Azərbaycan Respublikasının hüquqi aktlarının və Nazirliyin qərar, sərəncam və əmrlərinin icrasını təşkil edir, həmçinin onların yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

5.11.6. Konsulluğun əməkdaşlarını xidmət üçün zəruri şəraitlə təmin edir, Konsulluğun fəaliyyətinin təşkili ilə bağlı Nazirliyə təkliflər verir;

5.11.7. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

5.11.8. Konsulluğu təmsil edir;

5.11.9. Konsulluq əməkdaşlarının xidməti fəaliyyətini normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada qiymətləndirir;

5.11.10. Konsulluğun xidmətdə xüsusi fərqlənmiş əməkdaşlarına Azərbaycan Respublikası fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif edilməsi üçün, habelə Konsulluğun əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

5.11.11. Konsulluğun diplomatik xidmət əməkdaşlarının rütbədə və vəzifədə yüksəldilməsi, Konsulluq əməkdaşlarının fasiləsiz xidmət müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uzadılması haqqında Nazirliyə təklif verir;

5.11.12. Konsulluğun əməkdaşlarının və dövlət qulluğunda olmayan işçilərinin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

5.11.13. Konsulluğun dövlət qulluğunda olmayan işçilərini Nazirliklə razılaşdıraraq işə qəbul edir və işdən azad edir;

5.11.14. Konsulluğun, onun əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, konsul dairəsində silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda Konsulluğun fəaliyyətini, həmçinin Konsulluq əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də qəbul edən dövlətdə olan və ya yaşayan digər Azərbaycan Respublikası vətəndaşlarının davranış qaydasını Azərbaycan Respublikasının qəbul edən dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə təşkil edir;

5.11.15. mühafizəsi zəruri hesab olunan Konsulluqda mühafizə xidmətinin aparılmasına nəzarət edir;

5.11.16. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə və qəbul edən dövlətin qanunvericiliyi ilə Konsulluğa, onun əməkdaşlarına və onlarla birlikdə yaşayan ailə üzvlərinə, konsul valizinə və onu daşıyan şəxslərə, həmçinin imtiyaz və immunitet hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən imtiyazların və immunitetlərin konsul dairəsində təmin olunması məqsədilə tədbirlər görür;

5.11.17. Konsulluğun əməkdaşlarına və Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) konsul dairəsindəki nümayəndələrinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının milli maraqlarına uyğun davranış nümayiş etdirmələri, qəbul edən dövlətin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmaları və daxili işlərinə qarışmamaları barədə tövsiyələr verir;

5.11.18. qəbul edən dövlətdə danışıqlar aparır, beynəlxalq konfranslarda, forumlarda, seminarlarda, iclaslarda, sərgilərdə, görüşlərdə və digər tədbirlərdə iştirak edir;

5.11.19. qəbul edən dövlətlə münasibətlərdə Konsulluğun fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə qarşılılıq prinsipinin tətbiq edilməsinə dair Nazirliyə təkliflər verir;

5.11.20. Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) konsul dairəsində fəaliyyət göstərən və konsul dairəsinə ezam olunmuş nümayəndələrinin qərarları və hərəkətləri Azərbaycan Respublikasının milli maraqlarına cavab vermədiyi təqdirdə, həmin halların qarşısının alınması üçün Nazirliyə məlumat verir;

5.11.21. Azərbaycan Respublikasını eyni zamanda beynəlxalq təşkilatda və ya onun bölməsində təmsil etdikdə, bu təmsilçilikdən irəli gələn səlahiyyətləri yerinə yetirir;

5.11.22. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.12. Konsulluq Nazirliyin tapşırığı və qəbul edən dövlətin razılığı ilə üçüncü dövlətin konsul funksiyalarını yerinə yetirə bilər.

5.13. Konsulluğun rəhbəri vəzifəsi vakant olduqda və ya Konsulluğun rəhbəri vəzifə funksiyalarını həyata keçirə bilmədikdə, habelə məzuniyyətdə və ya qəbul edən dövlətin xaricində ezamiyyətdə olduğu dövrdə bu vəzifəni Konsulluğun digər diplomatik xidmət əməkdaşı müvəqqəti icra edir. Konsulluğun rəhbəri məzuniyyətdə və ya qəbul edən dövlətin xaricində ezamiyyətdə olduğu dövrdə Konsulluğun rəhbəri vəzifəsini müvəqqəti icra edən şəxs Nazirliklə razılaşdırmaqla Konsulluğun rəhbəri, digər hallarda isə Nazirlik tərəfindən müəyyən edilir. Konsulluğun rəhbəri vəzifəsini müvəqqəti icra edən şəxs barəsində Azərbaycan Respublikasının qəbul edən dövlətdəki Səfirliyi, Səfirlik olmadığı halda, Konsulluq tərəfindənqəbul edən dövlətin aidiyyətidövlət orqanına məlumat verilir.

5.14. Konsulluğun vəzifələrinin icrasının yerləşdiyi şəhərdən kənarda konsul dairəsinin digər inzibati ərazi vahidində icra etmək zərurəti yarandıqda, həmin inzibati ərazi vahidində, qəbul edən dövlətlə razılaşdırmaqla, Konsulluğun bölməsi yaradıla bilər.

5.15. Konsulluq əməkdaşlarının hüquq və vəzifələri "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və vəzifə təlimatları ilə müəyyən olunur.

5.16. Konsulluğun strukturunu və ştat cədvəlini Nazirlik təsdiq edir.

5.17. Konsulluğun maddi-texniki təminatını Nazirlik həyata keçirir.

5.18. Konsulluğun fəaliyyəti Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

5.19. Konsulluğa normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri təyin və ya ezam oluna bilərlər. Konsulluğa təyin və ya ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələri öz qərarlarını və hərəkətlərini Konsulluğun rəhbəri ilə razılaşdırmalıdırlar.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının fəxri konsulu haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının fəxri konsulu (bundan sonra - fəxri konsul) Azərbaycan Respublikası ilə diplomatik əlaqələri olan dövlətin müvafiq ərazisində (bundan sonra - dairə) bu Əsasnamə ilə müəyyən edilmiş funksiyaları həyata keçirir. Fəxri konsul diplomatik xidmətdə və dövlət qulluğunda olmur.

1.2. Fəxri konsul öz dairəsində Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında müvafiq sahələr (iqtisadi, ticarət, nəqliyyat, kənd təsərrüfatı, səhiyyə, elm, təhsil, mədəniyyət, diaspor, turizm, idman və sair) üzrə əlaqələrin yaradılmasına və inkişaf etdirilməsinə yardım edir, Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini müdafiə edir, eləcə də bu məqsədlə həyata keçirilən tədbirlərə dəstək verir.

1.3. Fəxri konsul Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə (bundan sonra - Nazirlik) tabe olub, qəbul edən dövlətdə Azərbaycan Respublikası Səfirliyinin, Təmsilçilik Ofisinin və ya Konsulluğunun (bundan sonra - diplomatik nümayəndəlik və ya konsulluq) (olduğu halda), yaxud bilavasitə Nazirliyin rəhbərliyi altında fəaliyyət göstərir.

1.4. Fəxri konsulun dairəsi və dəftərxanasının yerləşəcəyi şəhər Nazirliklə qəbul edən dövlətin səlahiyyətli dövlət orqanı arasında razılaşdırılmaqla müəyyən edilir. Fəxri konsulun öz funksiyalarını icra etdiyi dəftərxanasının hüquqi ünvanı barədə məlumat diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik tərəfindən qəbul edən dövlətin səlahiyyətli dövlət orqanına bildirilir. Fəxri konsulun dəftərxanası qəbul edən dövlətdə diplomatik nümayəndəliklə və ya konsulluqla eyni inzibati ərazi vahidində yerləşə bilməz.

1.5. Fəxri konsul öz funksiyalarını yerinə yetirərkən Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələri, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin qərar, sərəncam və əmrlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

1.6. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq, fəxri konsulun dəftərxanasının yerləşdiyi binada Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmaq və Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirini vurmaq hüququ vardır. Fəxri konsul öz funksiyalarını yerinə yetirərkən nəqliyyat vasitəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını yerləşdirə bilər. Fəxri konsulun dəftərxanasının yerləşdiyi binaya Azərbaycan dilində və qəbul edən dövlətin dilində (dillərində) "Azərbaycan Respublikasının (qəbul edən dövlətin müvafiq şəhərində) fəxri konsulunun dəftərxanası" yazısı olan lövhə vurula bilər. Fəxri konsul tərəfindən Azərbaycan Respublikasının dövlət rəmzlərindən Azərbaycan Respublikasının və qəbul edən dövlətin qanunları və protokol qaydaları nəzərə alınmaqla istifadə olunur.

1.7. Fəxri konsulun, nümunəsi Nazirlik tərəfindən təsdiq olunmuş və üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və "Azərbaycan Respublikasının (qəbul edən dövlətin müvafiq şəhərində) fəxri konsulu" yazısı həkk olunmuş möhürü vardır.

1.8. Fəxri konsul eyni zamanda Azərbaycan Respublikasının və qəbul edən dövlətin qanunları ilə qadağan olunmayan kommersiya və öz peşə fəaliyyəti ilə məşğul ola və bu fəaliyyətdən gəlir əldə edə bilər.

**2. Fəxri konsulun funksiyaları**

2.1. Fəxri konsulun öz dairəsində funksiyaları aşağıdakılardır:

2.1.1. iqtisadi və ticarət sahəsində:

2.1.1.1. Azərbaycan Respublikasının sahibkarlıq subyektlərinə öz dairəsinin, öz dairəsinin sahibkarlıq subyektlərinə isə Azərbaycan Respublikasının iqtisadi, ticarət və biznes mühiti, enerji siyasəti və potensialı, həmçinin bu sahələr üzrə normativ hüquqi aktları barədə məlumat vermək;

2.1.1.2. Azərbaycan Respublikasının nəqliyyat-tranzit potensialı və onun səmərəliliyi, həmçinin mövcud azad iqtisadi zona və sənaye parkları, eləcə də orada yaradılmış şərait və imtiyazlar haqqında məlumat yaymaq;

2.1.1.3. Azərbaycan Respublikasında istehsal və ixrac edilən məhsullara öz dairəsində mövcud olan ehtiyac və bazar şərtləri haqqında məlumatı diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik vasitəsilə Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarına (qurumlarına) çatdırmaq, eləcə də öz dairəsinin sahibkarlıq subyektlərini Azərbaycan Respublikasında sərmayə qoymağa təşviq etmək;

2.1.1.4. Azərbaycan Respublikasının turizm potensialını təbliğ etmək, turizmin mövcud istiqamətləri haqqında məlumat yaymaq və xarici turistlərin Azərbaycan Respublikasına gəlmələrinə yardım etmək;

2.1.2. elm, təhsil və sosial-mədəni sahələrdə:

2.1.2.1. Azərbaycanlı tələbələrlə mütəmadi əlaqə saxlamaq və onların yerli orqanlarla bağlı məsələlərinin həllinə kömək göstərmək;

2.1.2.2. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil imkanlarını təbliğ etmək və əcnəbilərin həmin təhsil müəssisələrində təhsil almalarını təşviq etmək;

2.1.2.3. Azərbaycan Respublikasının və öz dairəsinin elm və təhsil müəssisələri arasında əməkdaşlığın yaradılmasına və inkişafına kömək etmək;

2.1.2.4. Azərbaycanın ədəbiyyat, mədəniyyət və incəsənət əsərləri sərgilərinin, konsertlərin keçirilməsinə, kino və teatr əsərlərinin nümayişinə, eləcə də digər mədəni tədbirlərin təşkilinə yardım etmək;

2.1.2.5. Azərbaycan Respublikasının və öz dairəsinin mədəniyyət və incəsənət nümayəndələri və müəssisələri arasında əməkdaşlığın yaradılmasına və inkişafına kömək etmək;

2.1.2.6. daimi və müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarına və soydaşlara mədəni-maarif tədbirlərinin keçirilməsində kömək göstərmək;

2.1.2.7. keçirilən idman yarışlarında Azərbaycan idmançılarının iştirak etməsi üçün tədbirlər görmək və idman yarışlarında Azərbaycan Respublikasını təmsil edən idmançılara müvafiq kömək göstərmək;

2.1.2.8. Azərbaycan hərbi və mülki məzarlarının, məzarüstü abidələrinin, abidə komplekslərinin (nişanlarının) və memorial (xatirə) tikililərinin mühafizəsi və abadlığı üzrə tədbirlər görmək;

2.1.3. Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları, həmçinin diaspor təşkilatları ilə və soydaşlarla əlaqələr sahəsində:

2.1.3.1. Azərbaycan Respublikasının hüquqi şəxslərini və vətəndaşlarını Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələr, həmçinin qəbul edən dövlətin aidiyyəti qanunvericiliyi, adət və ənənələri barədə məlumatlandırmaq;

2.1.3.2. Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin müraciətləri əsasında onları dövlət orqanlarında (qurumlarında) təmsil etmək, onların hüquqlarını və qanuni mənafelərini müdafiə etmək və ya bu məqsədlə həyata keçirilən tədbirlərə dəstək vermək;

2.1.3.3. daimi və müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarının sayı və məşğuliyyətləri barədə məlumat əldə etmək və bu barədə diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə məlumat vermək;

2.1.3.4. ezam olunmuş Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) nümayəndələrinə xidməti vəzifələrini yerinə yetirməkdə yardım göstərmək;

2.1.3.5. Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və onların diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik ilə əlaqələrinə kömək göstərmək;

2.1.3.6. yetkinlik yaşına çatmamış, valideyn himayəsindən məhrum olmuş, habelə yetkinlik yaşında olan, səhhətinə görə hüquqlarını həyata keçirə və vəzifələrini yerinə yetirə bilməyən Azərbaycan Respublikası vətəndaşlarının himayəyə və qəyyumluğa götürülməsi üçün tədbirlər görmək;

2.1.3.7. repatriasiya edilməsi nəzərdə tutulan Azərbaycan Respublikası vətəndaşlarının olduqları yerlərin müəyyən edilməsinə və onların repatriasiyası ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə yardım etmək;

2.1.3.8. Azərbaycan Respublikasının vətəndaşı öldükdə, onun əmlakının mühafizəsi üçün və ya əgər qalmış əmlak tez xarab olandırsa, yaxud saxlanılması baha başa gəlirsə, onun satılması və satışdan əldə edilmiş pulun aidiyyəti üzrə göndərilməsi üçün tədbirlər görmək;

2.1.3.9. Azərbaycan Respublikası vətəndaşlarının xeyrinə vərəsəlik açıldığı məlum olduqda, vərəsəlik və ehtimal olunan vərəsələr haqqında ona məlum olan məlumatları diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə bildirmək;

2.1.3.10. miras əmlakı Azərbaycan Respublikasında yaşayan vərəsələrə vermək üçün qəbul etmək;

2.1.3.11. Azərbaycan Respublikasına, onun hüquqi şəxslərinə və vətəndaşlarına pulun, qiymətli əşyaların və əmlakın ianə edilməsinə yardım etmək;

2.1.3.12. itkin düşmüş Azərbaycan Respublikası vətəndaşlarının axtarışı üçün qəbul edən dövlətin səlahiyyətli dövlət orqanlarına müraciət etmək;

2.1.3.13. Azərbaycan Respublikası vətəndaşının azadlığı məhdudlaşdırıldıqda və ya Azərbaycan Respublikası vətəndaşı azadlıqdan məhrum edildikdə, bu barədə diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə məlumat vermək və onların tapşırıqlarına uyğun hərəkət etmək;

2.1.3.14. azadlığı məhdudlaşdırılan və ya azadlıqdan məhrum edilən Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə Azərbaycan Respublikası ilə qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunlarına əməl olunub-olunmaması barədə diplomatik nümayəndəliyi və ya konsulluğu, yaxud Nazirliyi məlumatlandırmaq;

2.1.3.15. Azərbaycan Respublikasının vətəndaşı öldükdə, onun nəşinin, sənədlərinin və şəxsi əşyalarının Azərbaycan Respublikasına göndərilməsinə kömək göstərmək;

2.1.4. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza, eləcə də elektron viza əldə etmək qaydaları haqqında məlumat vermək, həmçinin beynəlxalq tədbirlərdə sadələşdirilmiş viza rejiminin tətbiq edilməsi haqqında məlumatlandırmanı təmin etmək;

2.1.5. Azərbaycan Respublikasının mülki dəniz və hava gəmilərinin (bundan sonra - gəmi) heyət üzvlərinə və sərnişinlərinə yardım sahəsində:

2.1.5.1. hava və dəniz limanlarında, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq, gəmi heyətinin üzvlərinə kömək göstərmək və onların öz hüquqlarından istifadə edə bilmələrinə yardım etmək;

2.1.5.2. gəmi kapitanının müraciəti əsasında gəmiyə baş çəkmək, gəmi kapitanına hava və dəniz limanının vəziyyəti, liman qaydaları, yerli qanunlar və adətlər haqqında məlumat vermək, habelə diplomatik nümayəndəlik və ya konsulluq ilə əlaqə yaradılmasında yardım etmək və onu qəbul edən dövlətin vəzifəli şəxsləri ilə görüşlərdə müşayiət etmək;

2.1.5.3. gəmi qəzaya uğradıqda diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə bu barədə məlumat vermək, sərnişinlərin, heyət üzvlərinin, gəminin və yükün xilas edilməsi üçün mümkün tədbirlər görmək, zərərçəkənlərə tibbi yardım göstərilməsinə və onların vətənə göndərilməsinə kömək etmək;

2.1.6. Azərbaycan Respublikasının beynəlxalq yük və sərnişin daşımalarını həyata keçirən avtomobil və dəmiryol nəqliyyatı vasitələrinin heyət üzvlərinə və sərnişinlərinə yardım sahəsində bu Əsasnamənin 2.1.5-ci yarımbəndində qeyd olunan tədbirləri həyata keçirmək;

2.1.7. sanitariya, fitosanitariya və baytarlıq mühafizəsi sahəsində:

2.1.7.1. karantin qoyulan xəstəlik əvvəllər bu xəstəliyin olmadığı ərazidə meydana gəldikdə, həmin xəstəliyin yayıldığı bölgənin adı, yoluxanların sayı və yerli orqanlar (qurumlar) tərəfindən görülən tədbirlər barədə diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə məlumat vermək, tələb olunduğu halda Azərbaycan Respublikasına gedən şəxsləri peyvənd olunmaları barədə müvafiq beynəlxalq sertifikatı ölkə ərazisinə daxil olarkən təqdim etmələri barədə xəbərdar etmək;

2.1.7.2. kənd təsərrüfatı bitkilərinə və ev heyvanlarına aid təhlükəli xəstəliklər və ziyanvericilər meydana gəldikdə, habelə heyvan və quşlar kütləvi xəstələndikdə, yaxud insanlar, heyvanlar və quşlar üçün ümumi olan xəstəliklərin yayılmaq təhlükəsi yarandıqda diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə bu barədə məlumat vermək;

2.1.7.3. Azərbaycan Respublikasına gedən şəxslərə apardıqları xammal, heyvan, heyvan mənşəli qidalar barədə baytarlıq sertifikatını ölkə ərazisinə daxil olarkən təqdim etmələri zərurətini bildirmək, eləcə də toxum, bitki, meyvə və tərəvəzlərin aparılması qaydaları haqqında məlumat vermək.

2.2. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qanunvericiliklərinə uyğun olaraq, Nazirlik fəxri konsula ayrı-ayrı konsul funksiyalarının və həmin funksiyalardan irəli gələn hərəkətlərin yerinə yetirilməsini tapşıra bilər.

**3. Fəxri konsulun fəaliyyətinin təşkili**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaları yerinə yetirmək üçün işgüzar və mənəvi keyfiyyətləri, eləcə də sağlamlıq vəziyyəti qənaətbəxş olan Azərbaycan Respublikasının, qəbul edən dövlətin və ya qəbul edən dövlətdə daimi yaşayan üçüncü dövlətin vətəndaşı fəxri konsul ola bilər.

3.2. Fəxri konsul Nazirliyin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Fəxri konsul təyin edilməsi nəzərdə tutulan şəxs barəsində qəbul edən dövlətin razılıq sənədi (ekzekvatura) əvvəlcədən alınır.

3.3. Fəxri konsul təyin edilərkən həmin şəxs bu Əsasnamə ilə müəyyən olunmuş funksiyalarını layiqincə yerinə yetirəcəyi və öz funksiyalarının icrasına görə Azərbaycan Respublikasından ödəniş tələb etməyəcəyi barədə Nazirliyə yazılı iltizam təqdim edir.

3.4. Fəxri konsula Nazirlik tərəfindən onun soyadını, adını, atasının adını, vətəndaşlığını, vəzifəsini, kateqoriyasını, dairəsini və dəftərxanasının yerləşdiyi şəhəri təsdiq edən vəkalətnamə (fəxri konsul patenti) verilir.

3.5. Fəxri konsulun qəbul edən dövlətin müvafiq dairəsində fasiləsiz səlahiyyət müddəti 4 (dörd) ildir. Azərbaycan Respublikası Prezidentinin qərarına uyğun olaraq, fəxri konsul fasiləsiz səlahiyyət müddətindən artıq fəaliyyətini davam etdirə və ya həmin müddətdən əvvəl onun fəaliyyətinə xitam verilə bilər.

3.6. Qəbul edən dövlətin razılıq sənədini (ekzekvaturasını) almış fəxri konsul öz funksiyalarının icrasına başladığı tarix barədə diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə məlumat verir.

3.7. Fəxri konsul öz funksiyalarını şəxsən yerinə yetirir və fəaliyyətini diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik ilə əlaqələndirir. Fəxri konsul fəaliyyətini vətəndaş məmnunluğu, operativlik, şəffaflıq, nəzakətlilik və məsuliyyət prinsipləri əsasında həyata keçirir.

3.8. Fəxri konsul öz dairəsində fəaliyyət göstərən qəbul edən dövlətin orqanlarına (qurumlarına), hüquqi və fiziki şəxslərinə funksiyalarına aid məsələlər üzrə müraciət edə, həmçinin üçüncü dövlətlərin konsulluqları və fəxri konsulları ilə əməkdaşlıq edə bilər.

3.9. Fəxri konsul funksiyalarının yerinə yetirilməsindən irəli gələn məsələləri öz dairəsindən kənarda fəaliyyət göstərən qəbul edən dövlətin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxsləri ilə əlaqəli şəkildə həyata keçirməli olduqda, bu məsələlərin icrasını diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirliklə razılaşdırmaqla yerinə yetirir.

3.10. Fəxri konsul Azərbaycan Respublikası ilə bağlı öz dairəsindən olan müraciətləri baxılmaq üçün diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə göndərə, həmçinin onların tapşırığı ilə Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının), hüquqi və fiziki şəxslərinin müraciətlərinin öz dairəsində olan aidiyyəti dövlət orqanlarına (qurumlarına), hüquqi və fiziki şəxslərə çatdırılmasına və bu müraciətlərdən irəli gələn məsələlərin əlaqələndirilməsinə yardım göstərə bilər.

3.11. Fəxri konsul funksiyalarını müvəqqəti olaraq yerinə yetirə bilmədiyi hallar barədə mümkün qədər əvvəlcədən diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə, həmçinin qəbul edən dövlətin səlahiyyətli dövlət orqanına məlumat verir və belə hallarda onun funksiyaları diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik tərəfindən qəbul edən dövlətin razılığı ilə həmin dövlətdəki digər fəxri konsula (olduğu halda) həvalə edilə bilər.

3.12. Fəxri konsul Nazirliyin təlimatına uyğun olaraq kargüzarlığını Azərbaycan dilində və ya qəbul edən dövlətin dilində (dillərində) aparır.

3.13. Fəxri konsul funksiyalarının icrası zamanı diplomatik nümayəndəliyin və ya konsulluğun, yaxud Nazirliyin təlimatına əsasən açıqlanması məqbul hesab edilməyən məlumatların yayılmamasını təmin edir. Fəxri konsulun yazışmaları diplomatik nümayəndəliyin və ya konsulluğun, yaxud Nazirliyin razılığı olmadan dərc edilmir və üçüncü şəxslərə verilmir.

3.14. Fəxri konsula Nazirlik tərəfindən müvafiq konsul əməliyyatlarının yerinə yetirilməsi həvalə oluna bilər. Həmin konsul əməliyyatları üçün Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə dövlət rüsumunun və faktiki xərclərin tutulması müəyyən edildiyi hallarda, müvafiq dövlət rüsumunun və faktiki xərclərin məbləği, eləcə də fəxri konsul tərəfindən tutulan dövlət rüsumunun Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülməsi Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

3.15. Fəxri konsul diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə hər ilin yanvar ayında əvvəlki il üzrə fəaliyyəti barədə hesabat, o cümlədən olduğu təqdirdə maliyyə hesabatı verir.

3.16. Fəxri konsul istifadəsində olan Azərbaycan Respublikası Dövlət Bayrağının, Azərbaycan Respublikası Dövlət Gerbinin, həmçinin möhürünün və arxivinin saxlanılmasını, mühafizəsini və toxunulmazlığını təmin etmək üçün tədbirlər görür və bunun üçün şəxsən məsuliyyət daşıyır.

3.17. Fəxri konsulun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə (ərizə, təklif və şikayətlərə) diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik tərəfindən baxılır. Fəxri konsulun fəaliyyəti qənaətbəxş hesab edilmədikdə Nazirlik onun səlahiyyətinə xitam verilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edir.

3.18. Fəxri konsulun fəaliyyətinə bu Əsasnamənin 3.5-ci bəndi ilə müəyyən edilmiş fasiləsiz səlahiyyət müddəti bitdikdə və onun bu müddətdən artıq fəaliyyətini davam etdirməsi barədə qərar olmadıqda, habelə Nazirliyin təklifi, fəxri konsulun şəxsi vəsatəti və ya qəbul edən dövlətin səlahiyyətli dövlət orqanının müraciəti əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilir.

3.19. Fəxri konsulun funksiyalarına xitam verildikdə qəbul edən dövlətin səlahiyyətli dövlət orqanı bu barədə diplomatik nümayəndəlik və ya konsulluq, yaxud Nazirlik tərəfindən məlumatlandırılır.

3.20. Fəxri konsulun fəaliyyətinə xitam verilərkən onun möhürü və arxivi, həmçinin Azərbaycan Respublikasının mülkiyyəti olan əmlak diplomatik nümayəndəliyə və ya konsulluğa, yaxud Nazirliyə təhvil verilməlidir.

# Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul üzrə növbəti müsabiqə başlayır



**Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul üzrə növbəti müsabiqə başlayır.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, müsabiqədə iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinin internet portalında "Xarici İşlər Nazirliyinə qəbul üzrə müsabiqədə iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək zəruridir.

Müsabiqədə iştirak üçün qeydiyyat 2026-cı il aprelin 10-da saat 10:00-dan mayın 10-da 18:00-dək davam edəcək. Qeydiyyat üçün xidmət yalnız sözügedən tarixlərdə aktiv olacaq.

# Tatarıstanın Azərbaycandakı daimi nümayəndəliyi məhdud imkanı olan insanları sevindirib

**Rusiyanın Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı daimi nümayəndəliyində məhdud imkanları olan insanlara dəstək olmaq məqsədilə mədəni-maarif tədbiri keçirilib.**

Daimi nümayəndəlikdən AZƏRTAC-a bildirilib ki, tədbir "Humayun" Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyi və "Kayum Nasıri İnstitutu" Bakı Təhsil və Mədəniyyət Mərkəzi tərəfindən Azərbaycanın Tatar İcmasının iştirakı ilə təşkil olunub.

İştirakçılar arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlar və yeniyetmələr, onların valideynləri, müəllimlər, həkimlər, könüllülər, yaradıcı ziyalıların nümayəndələri və tatar icması olublar.




"Kayum Nasıri İnstitutu" Bakı Təhsil və Mədəniyyət Mərkəzinin direktoru Elmira Yusifli və "Lalə" tatar ansamblının musiqi rəhbəri Rəşad Yusifli qonaqlara salamlama nitqi ilə müraciət ediblər.

Tədbir "Humayun" QHT tərəfindən həyata keçirilən "Yurdum" sosial eko kənd layihəsinin təqdimatı ilə başlayıb. Layihənin təsisçisi Zarema Yagizarova inklüziv gündüz mərkəzi, onun missiyası, əsas fəaliyyətləri və məhdud imkanları olan insanları dəstəkləmək, onların bacarıqlarını inkişaf etdirmək və bu şəxsləri sosiallaşdırmaq məqsədi daşıyan inklüziv təşəbbüslərin əhəmiyyəti haqqında danışıb.

Proqramda həmçinin "Humayun" İB-nin direktoru Firəngiz Hüseynova və tələbə könüllülərin çıxışları da yer alıb.

Tədbirin yaradıcılıq hissəsinə mərkəzin uşaq və yeniyetmələrinin gündəlik fiziki məşq elementlərini nümayiş etdirən və "Tıq-tıq xanım" tamaşasını təqdim edən çıxışı daxil idi.

Musiqiçi və kolleksiyaçı Rəşad Yusifli uşaqları müxtəlif musiqi alətləri ilə tanış edib, bundan sonra iştirakçıların birgə yaradıcı improvizə ilə çıxışı olub.

Proqram mərkəzin tələbələri ilə birlikdə tatar mahnısı "Ay, canı" və Azərbaycan mahnısı "Yaşa Azərbaycan"ı ifa edən "Lalə" tatar ansamblının çıxışı ilə davam edib.

Tədbirdə Azərbaycanın Tatar İcmasının nümayəndələri də iştirak ediblər. Şairə Arzu Məmmədova qonaqlara öz tapmacalarını təqdim edib, qarmon ifaçısı İsmayıl Safin isə iştirakçıların cəmiyyətin direktoru Renat İlyazovla birlikdə dəstəklədiyi "Cücələrim" mahnısını oxuyub. Aktrisa A. Məmmədova Krılovun təmsillərini Azərbaycan dilində ifa edib.

Tədbir inklüziv mərkəzin işinə və onun tatar diasporuna təqdimatına görə Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı daimi nümayəndəsi M. Qadılşinin adından "Humayun" İctimai Birliyinə təşəkkürnamənin təqdim edilməsi ilə başa çatıb.

Daha sonra iştirakçılar xatirə şəkli çəkdirib və qeyri-rəsmi söhbətlərini davam etdiriblər.

Görüş humanitar əlaqələrin gücləndirilməsi, inklüziv təşəbbüslərin dəstəklənməsi, ictimai və mədəni təşkilatlar arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm platforma rolunu oynayıb.

# *Gələcəyin təməli:*
# məktəbəqədər təhsil müəssisələrinə dövlət qayğısı

**Müasir dövrdə təhsil dövlət siyasətinin ən prioritet istiqamətlərindən biridir və bunun mərkəzində uşaqların keyfiyyətli təhsil alması və sağlam inkişafı dayanır. Məktəbəqədər təhsil sisteminə göstərilən dövlət qayğısı xüsusilə son illərdə daha da artmış, uşaq bağçalarının əsaslı təmiri və yenidən qurulması istiqamətində mühüm işlər həyata keçirilmişdir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, "təhsil hər bir ölkənin gələcəyini müəyyən edən əsas amildir" və bu baxış ölkəmizdə aparılan layihələrdə açıq şəkildə öz əksini tapır.**



Son illərdə respublikanın bütün bölgələrində yeni uşaq bağçaları tikilmiş, mövcud məktəbəqədər müəssisələr əsaslı şəkildə təmir edilərək müasir standartlara uyğun yenidən istifadəyə verilmişdir. Bu bağçalar geniş və işıqlı otaqlar, innovativ oyun və istirahət zonaları, müasir tədris avadanlıqları ilə təchiz olunmuş və uşaqların həm fiziki, həm də zehni inkişafına şərait yaradılmışdır. Xüsusilə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələrdə məktəbəqədər təhsil müəssisələrinə xüsusi diqqət göstərilmişdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyevanın bu müəssisələrə mütəmadi səfərləri, bağçaların təmiri və avadanlıqlarla zənginləşdirilməsinə göstərdikləri dəstək sahəyə olan dövlət qayğısının canlı göstəricisidir.

Rəhbərlik etdiyim Bərdə şəhər 9 saylı Körpələr Evi-Uşaq Bağçasında aparılan əsaslı təmir işləri də buna bariz nümunədir. Qarabağ Regional Təhsil İdarəsi Bərdə sektoru tərəfindən uşaq bağçasına göstərilən dəstək sayəsində həyata keçirilən yenidənqurma işləri uşaqlar üçün təhlükəsiz, rahat və inkişafyönümlü mühit yaradıb. Burada tərbiyəçilər üçün nəzərdə tutulmuş əlverişli şərait onların uşaqlarla daha effektiv və yaradıcı işləməsinə imkan verir.

Ümumiyyətlə, yenilənmiş bağçalarda tətbiq olunan müasir yanaşmalar pedaqoji prosesin keyfiyyətini artırır, uşaqların hərtərəfli inkişafını təmin edir. Geniş işıqlı otaqlar, təhlükəsiz oyun meydançaları, interaktiv və tədris avadanlıqları körpələrin fiziki və zehni inkişafına xidmət edir. Tərbiyəçilər üçün yaradılan əlverişli iş şəraiti onların daha yaradıcı və effektiv fəaliyyət göstərməsinə imkan verir.

Nəticə olaraq, məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri və yenidən qurulması dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz göstəricisidir. Bu işlər yalnız uşaqların daha yaxşı şəraitdə böyüməsinə xidmət etmir, həm də sağlam və savadlı nəslin formalaşması üçün möhkəm zəmin yaradır. Məktəbəqədər təhsil sahəsinə göstərilən bu diqqət Azərbaycanın gələcəyinə qoyulan ən möhkəm təməl daşıdır.

***Zeynəb ƏLİYEVA,***
***Bərdə şəhər 9 saylı Körpələr Evi-Uşaq Bağçasının müdiri***





# Türkiyədə Heydər Əliyevin 103-cü ildönümü münasibətilə VI Beynəlxalq Tələbə Simpoziumu təşkil ediləcək

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə mayın 8-9-da Türkiyənin Bartın şəhərində Bakı Dövlət Universitetinin (BDU) və Bartın Universitetinin İnformasiya və sənəd menecmenti fakültələrinin birgə təşkilatçılığı ilə tələbələrin 6-cı beynəlxalq simpoziumu keçiriləcək.**

BDU-dan AZƏRTAC-a bildirilib ki, Bartın Universitetinin evsahibliyi, Türkiyənin İstanbul, Ankara, Hacettepe, Atatürk, Mərmərə, Çankırı Karatekin, Kastamonu, İstanbul 29 Mayıs, İstanbul Mədəniyyət, İzmir Katip Çələbi, Kırıkkale universitetlərinin akademik heyəti və tələbələrinin iştirakı ilə keçiriləcək simpozium "Dəyişən informasiya texnologiyaları və elektron resurslar" mövzusunda təşkil ediləcək. Tədbirdə informasiya və sənəd menecmenti sahəsində əldə olunmuş yeni nəticələr plenar və bölmə iclaslarında gənc tədqiqatçıların iştirakı ilə müzakirə ediləcək, elektron kataloq texnologiyaları sahəsində müasir problemlərin tədqiqi, sahənin aktual məsələlərinin yeni konseptual müstəvidə nəzərdən keçirilməsi, informasiya və sənəd menecmentinin innovativ elmi istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı təkliflər irəli sürüləcək.

BDU tələbələri simpoziumda ölkəmizin rəqəmsal kitabxana-informasiya resurslarında Ulu Öndər Heydər Əliyevin irsinə və türk dünyasına dair ədəbiyyatın təhlili, inkişaf dinamikası, elmmetrik şərhi əsasında hazırladıqları təqdimatlarla çıxış edəcəklər. Tədbir çərçivəsində BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin əməkdaşlarının Bartın Universitetinin tələbələrinə mühazirələr oxuması da nəzərdə tutulur.

# *IRS-Nasledíye:* "Ağ Şəhər"dən tutmuş tarixi tədqiqatlara qədər

**"IRS-Nasledíye" jurnalının yeni nömrəsi Azərbaycanın müasir inkişafına, tarixi irsinə və dövlətçiliyinin əsas mərhələlərinə həsr olunub.**




AZƏRTAC xəbər verir ki, nəşrin əsas mövzusu Bakıda həyata keçirilən, keçmiş sənaye ərazilərini müasir məkana çevirən və paytaxtın yeni memarlıq imicini formalaşdıran genişmiqyaslı "Ağ Şəhər" şəhərsalma layihəsidir. Baş redaktor Musa Mərcanlının məqaləsində qeyd edilir ki, infrastrukturun və şəhər mühitinin fəal inkişafı, Azərbaycanın, o cümlədən gələn ay keçiriləcək Dünya Şəhərsalma Forumu da daxil olmaqla, qlobal forumların keçirilməsi üçün məkan kimi beynəlxalq nüfuzunun gücləndirilməsinə töhfə verir.

XIX əsrin sonlarına aid dəyərli tarixi mənbənin - Qarabağdakı dövlət yay otlaqlarının xəritəsinin təhlilinə xüsusi diqqət yetirilib. Qeyd olunur ki, bu materialda bölgənin əhalisi və toponimiyası haqqında geniş məlumat var və bu da həmin dövrdə Qarabağın etnik və demoqrafik strukturunun obyektiv şəkildə yenidən qurulmasına imkan verir. Jurnalda vurğulanır ki, təqdim olunan məlumatlar XX əsrin sonlarında erməni millətçi dairələri tərəfindən irəli sürülən ərazi iddialarının əsassız olduğunu sübut edir.

Jurnalın bu nömrəsində həmçinin Muğan Qurultayının 290 illiyi nəzərdən keçirilir ki, burada Nadir Əfşar faktiki hökmdar elan edilib və bu, regionun tarixində dönüş nöqtəsi olub. Vurğulanır ki, bu siyasi proses çətin tarixi dövrdə idarəetməni və legitimliyi qoruyaraq, dağıdıcı parçalanma olmadan hakimiyyətin Əfşar dövlətinə keçməsini təmin edib.

Bundan əlavə, nömrədə oxucuların Azərbaycanın tarixi, mədəniyyəti və müasir inkişafı haqqında biliklərin dərinləşdirilməsinə yönəlmiş ənənəvi materiallar yer alır.

## 7 Aprel Ümumdünya Sağlamlıq Günüdür

# Zərgər dəqiqliyi, həkim ürəyi

**Xəstəxananın dəhlizində ağır bir sükut hökm sürürdü. Otaqlardan gələn tibbi cihazların monoton səsi bu gərginliyi daha da artırırdı. Bütün nəzərlər əməliyyat blokunun qapısına dikilmişdi. İçəridə, parlaq işıqların altında bir cərrah dayanmışdı. O, cəmi bir neçə gün əvvəl özünün 50 illik yubileyini qeyd etsə də, indi önündə dayanan sınaq bütün yubileylərdən, təbriklərdən daha vacib idi. Onun qarşısında anadangəlmə ürək qüsuru ilə doğulmuş bir gənc uzanmışdı. İndi həyata keçiriləcək bu əməliyyat həm də Azərbaycan tibb elminin ən böyük imtahanlarından biri idi.**



Həkim, əlindəki cərrah bıçağını zərgər dəqiqliyi ilə hərəkət etdirirdi. Hər bir toxunuş həyatla ölüm arasındakı o nazik xətti müəyyən edirdi. Saatlar keçdikcə gərginlik zirvəyə çatdı və nəhayət... ürək öz yeni ritmi ilə döyünməyə başladı!

Bəli, o gün təkcə bir insanın həyatı xilas olmadı, həm də Azərbaycan kardiocərrahiyyəsinin əsası qoyuldu.

Zaman 1979-cu il, məkan Bakı şəhəri, bu möcüzəni reallaşdıran, həmin anlarda soyuqqanlılığı və peşəkarlığı ilə tarix yazan o şəxs isə milli kardiocərrahiyyəmizin banisi, tibb elmləri doktoru, professor Fikrət Zərgərli idi.

### Həyatın ritmi

Həyatımızın hər anı, biz fərqində olmasaq da, sinəmizdə döyünən kiçik orqanın - ürəyin ritminə bağlıdır. Sağlam ürək sağlam gələcək deməkdir. Lakin bəzən yaşam ritmi pozulur, ən dözümlü qəlblər belə yardıma ehtiyac duyur.

Tibb elmi hər zaman bugünkü səviyyədə olmayıb. İnsan sağlamlığının təməl daşı olan ürəyin sirlərini öyrənmək, ona müdaxilə etmək və xəstəliklərini sağaltmaq üçün ölkəmizdə də fədakar həkimlərimiz uzun və çətin bir yol qət ediblər. 40-50 il əvvəl icra edilən hər bir uğurlu cərrahi əməliyyatın arxasında texniki imkanlardan daha çox həkimin biliyi, sarsılmaz iradəsi və cəsarəti dayanıb. Bunlarla onlar ümidini itirmiş minlərlə insana yenidən nəfəs verməyi bacarıblar.

Belə fədakar həkimlərimizdən biri də öz sahəsinin peşəkarı olan professor Fikrət İsmayıl oğlu Zərgərlidir. Heç təsadüfi deyildi ki, hələ sağlığında ona "Ürək zərgəri" deyirdilər. Görkəmli alim, həqiqətən də, qəlblərə zərgər incəliyi ilə toxunurdu.

Əslən Salyan rayonundan olan və 1929-cu ildə Bakıda müəllim ailəsində doğulan Fikrət Zərgərli hələ gənc yaşlarından elmə olan həvəsi ilə seçilib. O, 1947-ci ildə 6 nömrəli məktəbi gümüş medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. 1949-cu ildə isə təhsilini davam etdirmək üçün İ.M.Seçenov adına Moskva Tibb İnstitutuna keçib və həmin tibb müəssisəsini fərqlənmə ilə bitirib. Yüksək bilik və savadına görə Fikrət Zərgərlini dərhal institutun hospital cərrahiyyə kafedrasına dəvət ediblər.

Müvəffəqiyyətlə aspiranturanı bitirdikdən sonra o, 53 nömrəli Moskva Şəhər Xəstəxanasında təcili cərrahiyyə üzrə növbətçi cərrah kimi çalışıb. Daha sonra isə Fikrət Zərgərli öz fəaliyyətini A.L.Myasnikov adına Elmi Tədqiqatlar İnstitutunda ürək cərrahiyyəsi bölməsi rəhbəri vəzifəsində davam etdirib.

1968-ci ildə "Fallo kompleksinin cərrahiyyə müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Həmin dissertasiya ən ağır və geniş yayılmış anadangəlmə ürək qüsurlarından birinə həsr olunub.

Moskvada keçən illər Fikrət həkim üçün böyük bir təcrübə məktəbi olub. O, dünyaşöhrətli akademik B.V.Petrovskinin rəhbərliyi altında, dünyada ilk dəfə həyata keçirilən ürək anevrizması əməliyyatlarında yaxından iştirak edərək kardiocərrahiyyənin sirlərinə yaxından yiyələnib.

Fikrət Zərgərlinin ömür yolu, sadəcə, xəstəxana divarları arasında keçməyib. 1966-cı ildə Daşkənddə baş verən zəlzələ zamanı könüllü kimi hadisə yerinə yollanması onun nə qədər böyük qəlbli bir insan olduğunun sübutu idi.

### Vətənlə döyünən ürək

1976-cı ilin oktyabrında Azərbaycan SSR Səhiyyə Nazirliyinin dəvəti ilə Bakıya qayıdan professor Fikrət Zərgərli az müddətdə ölkədə kardiocərrahiyyənin təməllərini qoyur. 1978-ci ildən etibarən o, Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olur. Qısa müddətdə istedadlı alim Azərbaycanda nümunəvi cərrahi şöbə yaradır, ürəyin ritm pozulmalarını, anadangəlmə və qazanılmış ürək qüsurlarının cərrahi üsulla müalicə metodlarını işləyib hazırlayır. Bu şöbə sonradan böyüyüb Respublika Kardiologiya Mərkəzinə çevrilir. Müxtəlif illərdə Moskva və Bakı şəhərlərində F.Zərgərlinin rəhbərlik etdiyi şöbələrdə açıq ürək üzərində 1500 əməliyyat aparılır.

Azərbaycan səhiyyə tarixinin yaddaşına həkk olunan ən təsirli hadisə isə 1979-cu ilin dekabrında baş verib. Belə ki, professorun həmin ilin 13 dekabrında anadangəlmə ürək qüsurlu bir şəxs üzərində apardığı əməliyyat Azərbaycan tibb dünyasında bir inqilab olub. Ölkəmizdə kardiocərrahiyyə sahəsi adına atılan bu ilk uğurlu addım minlərlə insana şəfa tapmaq ümidi verib.

Professor Fikrət Zərgərli 150-dən çox elmi əsərin, məruzə və məqalələrin müəllifidir. O, dəfələrlə Almaniya, Bolqarıstan, Yuqoslaviya, Çexoslovakiya, Fransa və digər ölkələrdə "Ürəyin blokadası"na aid mövzularla simpoziumlarda çıxış edib.

### Mahnıya çevrilən ömür

Fikrət Zərgərli təkcə tibb aləmində deyil, sənət dünyasında da silinməz iz qoymuşdu. Bəlkə də az adam bilir ki, korifey sənətkar Zeynəb Xanlarovanın ifasında sevilən "Mehriban həkim" mahnısı (sözləri M.Seyidzadə, musiqisi Ə. Tağıyev) məhz 1975-ci ildə Fikrət həkimə həsr olunub. Onun xəstələrinə olan səmimiyyəti, qayğısı və mehribanlığı həmin gözəl mahnıda notlara sığdırılıb.

Ancaq amansız əcəl başqalarının ürəyinə ömür calayan bu "şəfa zərgəri"nin arzularını yarımçıq qoyub. Gecə-gündüz insan sağlamlığının keşiyində dayanan Fikrət Zərgərli qısa sürən xəstəlikdən sonra 1984-cü ildə cəmi 54 yaşında əbədiyyətə qovuşub. Lakin onun yaratdığı "Zərgərli məktəbi" bu gün də yaşayır. Azərbaycanda hər hansı bir kardiocərrahi əməliyyat uğurla yekunlaşırsa, həmin uğurun kökündə o böyük yolun ilk cığırını açan Fikrət həkimin "zərgər dəqiqliyi" dayanır.

Xalqımız və dövlətimiz öz dəyərli övladını unutmur. Salyan Regionlararası Kardioloji Dispanseri bu gün qürurla Fikrət Zərgərlinin adını daşıyır.

1974-cü ildə onun fəaliyyətinə həsr olunmuş "Üç hekayə" filmi isə arxivlərimizin qızıl fondunu bəzəyir. Amma Fikrət Zərgərli üçün ən böyük abidə nə binalar, nə də filmlərdir. Onun ən böyük abidəsi bu gün Azərbaycanda normal ritmlə döyünən minlərlə insan ürəyidir.

Ruhun şad olsun, fədakar təbib! Sənin qoyduğun o böyük yol bu gün daha parlaq gələcəyə uzanır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Sağlamlığını qorumaq hər kəsin hüququdur

**Sağlamlıq mövzusu əsrlər boyu bəşəriyyətin diqqət mərkəzində olub və bu gün də qlobal gündəmin ən vacib istiqamətlərindən biri olaraq qalır. İnsan həyatının keyfiyyətini və davamlılığını müəyyən edən əsas amillərdən olan sağlamlıq sahəsində əldə edilən uğurlar, xüsusilə son yüzillikdə böyük sıçrayışlarla müşayiət olunur.**

Tibbin sürətli inkişafı, yeni texnologiyaların tətbiqi və elmi-tədqiqatların genişlənməsi nəticəsində bir zamanlar ölümcül hesab edilən bir çox xəstəliklər artıq nəzarət altına alınıb və ya tamamilə müalicə edilə bilir. Bu irəliləyişlər sayəsində dünyada orta ömür uzunluğu əhəmiyyətli dərəcədə artıb. Məsələn, XX əsrin əvvəllərində qlobal orta ömür uzunluğu təxminən 30-35 il olduğu halda, həmin göstərici bu gün 70 ildən yuxarıdır.

Bununla belə, əldə edilən nailiyyətlərə baxmayaraq, səhiyyə sahəsində həllini gözləyən çoxsaylı problemlər qalmaqdadır. İnfeksion və qeyri-infeksion xəstəliklərin artması, iqlim dəyişikliklərinin sağlamlığa təsiri, qlobal pandemiyaların yaratdığı risklər və səhiyyə xidmətlərinə çıxışdakı bərabərsizliklər müasir dövrün əsas çağırışları sırasındadır. Bu problemlərin həlli isə qlobal əməkdaşlıq və elmi yanaşma tələb edir.

Hər il aprelin 7-də dünya ictimaiyyəti Ümumdünya Sağlamlıq Gününü qeyd edir. Bu əlamətdar gün 1948-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaradılması ilə əlaqədar təsis olunub və əsas məqsədi qlobal sağlamlıq problemlərinə diqqət çəkmək, ictimai maarifləndirməni artırmaq, dövlətləri, təşkilatları, eləcə də fərdləri daha sağlam gələcək üçün birgə fəaliyyətə təşviq etməkdir. Bu gün yalnız rəmzi xarakter daşımır, həm də real dəyişikliklər üçün çağırış platforması rolunu oynayır.

Bu il Ümumdünya Sağlamlıq Günü "Sağlamlıq naminə birlikdə. Elmin yanında ol" ("Together for health. Stand with science") şüarı ilə qeyd olunur. Deviz xüsusilə son illərdə dünyada müşahidə olunan dezinformasiya, elmi biliklərə inamsızlıq və səhiyyə sahəsində yanlış məlumatların yayılması fonunda xüsusi aktuallıq kəsb edir. Kampaniyanın əsas məqsədi elmin sağlamlıq sahəsində oynadığı əvəzsiz rolu bir daha vurğulamaq, ictimaiyyəti faktlara əsaslanan qərarlar qəbul etməyə təşviq etmək, elmi əməkdaşlığın gücünü ön plana çıxarmaq, habelə insan, heyvan və ətraf mühitin sağlamlığının bir-biri ilə sıx bağlı olduğunu diqqətə çatdırmaqdır. Belə ki, heyvanlardan insanlara keçən infeksiyalar son illərdə qlobal sağlamlıq üçün ciddi təhlükə mənbəyinə çevrilib. COVID-19 pandemiyası da bu riskin nə qədər real və genişmiqyaslı ola biləcəyini açıq şəkildə göstərdi.

Statistika da göstərir ki, qlobal səhiyyə sahəsində görülən işlərə baxmayaraq, problemlər hələ də kifayət qədər ciddidir. ÜST-nin məlumatına görə, dünyada hər il təxminən 41 milyon insan qeyri-infeksion xəstəliklər - ürək-damar xəstəlikləri, xərçəng, diabet və xroniki tənəffüs xəstəlikləri səbəbindən həyatını itirir. Bu, ümumi ölüm hallarının təxminən 74 faizini təşkil edir. Eyni zamanda hər il milyonlarla insan qarşısı alına və müalicə edilə bilən xəstəliklərdən həyatını itirir ki, bu da səhiyyə xidmətlərinə çıxışın bərabər paylanmadığını göstərir.

Digər mühüm məsələ isə peyvəndləmə ilə bağlıdır. Peyvəndlər hər il 4-5 milyon insanın həyatını xilas etsə də, dünyada hələ də milyonlarla uşaq əsas peyvəndlərdən kənarda qalır. Bu isə qızılca, poliomielit və digər infeksion xəstəliklərin yenidən yayılma riskini artırır. Bu baxımdan, elmi məlumatların düzgün çatdırılması və ictimaiyyətin maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

İqlim dəyişikliyi də qlobal sağlamlıq üçün ciddi təhdidlərdən biri kimi qiymətləndirilir. Artan temperatur, hava çirkliliyi, su qıtlığı və təbii fəlakətlərin intensivləşməsi insanların sağlamlığına birbaşa təsir göstərir. ÜST-nin proqnozlarına görə, 2030-2050-ci illər arasında iqlim dəyişikliyi nəticəsində hər il əlavə olaraq təxminən 250 min insanın həyatını itirəcəyi gözlənilir. Bu, malyariya, qida çatışmazlığı, ishal və istilik stressi kimi faktorlarla əlaqələndirilir. Belə mürəkkəb və çoxşaxəli problemlərin həlli yalnız elmi yanaşma və beynəlxalq əməkdaşlıq sayəsində mümkündür. "Elmin yanında ol" çağırışı da məhz bu zərurətdən irəli gəlir. Elm yalnız laboratoriyalarda aparılan tədqiqatlardan ibarət deyil. O, gündəlik həyatımızda qəbul etdiyimiz qərarların əsasını təşkil etməlidir. Sağlam qidalanma, fiziki aktivlik, peyvəndləmə, gigiyena qaydalarına riayət və vaxtında tibbi müayinələr kimi sadə, lakin effektiv tədbirlər elmi tövsiyələrə əsaslanır və hər bir fərdin sağlamlığına müsbət təsir göstərir.

Kampaniya çərçivəsində hər kəs aktiv iştirak etməyə dəvət olunur. İnsanlar elmi nailiyyətləri qeyd etməklə, faktlara əsaslanan məlumatları paylaşmaqla, şəxsi təcrübələrini bölüşməklə və sosial şəbəkələrdə #ElmİləStand və #DünyaSəhiyyəGünü həştəqləri ilə qlobal müzakirələrə qoşulmaqla bu prosesin bir hissəsi ola bilərlər. Bu, yalnız fərdi deyil, həm də kollektiv məsuliyyətin formalaşmasına kömək edir. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə səhiyyə sistemlərinin gücləndirilməsi və xidmətlərə çıxışın artırılması qlobal sağlamlıq bərabərliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Ümumdünya Sağlamlıq Günü yalnız bir tarix deyil, həm də qlobal həmrəylik və məsuliyyət günüdür. Bu gün bizə xatırladır ki, sağlamlıq hər bir insanın fundamental hüququdur və onun qorunması üçün hər kəs üzərinə düşən rolu yerinə yetirməlidir. Elmə əsaslanan yanaşmalar, beynəlxalq əməkdaşlıq və ictimai dəstək sayəsində daha sağlam, təhlükəsiz və dayanıqlı bir gələcək qurmaq mümkündür.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## Su bəşəriyyəti sınağa çəkir

### Təbiətin bu əvəzsiz nemətindən ağılla və "ağıllı" texnologiya ilə istifadə etmək reallığın tələbidir

**Su qıtlığı zəmanəmizin qlobal problemlərindən biridir. Belə ki, quraqlıqlar getdikcə daha da "sərtləşir", içməli su mənbələri tükənir, mövcud su ehtiyatlarının üzərinə düşən yük isə gündən-günə ağırlaşır.**

Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, yüksək su stresi yaşayan ölkələrdə 2 milyard nəfərdən çox insan məskunlaşıb. Hətta bir sıra regionlarda təmiz və təhlükəsiz suya əlçatanlıq böyük üstünlük sayılır.

Azərbaycanda su təhlükəsizliyi ilə bağlı bütün məsələlər öz həllini sistemli şəkildə tapır. İçməli su və suvarma layihələri həmişə dövlətin diqqət mərkəzindədir. Xüsusilə son iki onillik ərzində bu məsələyə aid çoxsaylı sərəncam və qərarlar imzalanıb, proqramlar qəbul edilib. Elə bu yaxınlarda qəbul edilmiş "Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı"nı xatırladaq. Prezident İlham Əliyev cari il yanvarın 12-də bu proqrama həsr olunan müşavirə də keçirib. Həmin tədbirdə dövlətimizin başçısı deyib: "Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir. Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur".

Əgər vaxtında "Taxtakörpü" və "Şəmkirçay" su anbarları tikilməsəydi, bu gün istər Bakının, istərsə də ölkəmizin qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı imkan verdi ki, Samur çayının suları "Ceyranbatan" su anbarına yığılsın və orada ehtiyat yaransın. "Ceyranbatan" su anbarı da tamamilə yenidən qurulmuşdur. Yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir. İşğaldan azad edilmiş ərazilərimizdə də içməli su və suvarma layihələri icra edilir. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb.

Ölkəmizin su təhlükəsizliyi ilə bağlı işlər davam edir və Prezidentimizin dediyi kimi, qarşıya qoyulan vəzifə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etmək, su mənbələrini qorumaqdır. Məqsəd su anbarlarının potensialını artırmaq, dəqiq uçot yaratmaq və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə etmək mümkün olsun.

Su mənbələri hər bir ölkə üçün önəmlidir və qeyd etdiyimiz kimi, su çatışmazlığı hazırda bütün dünyanı narahat edən məsələdir. Odur ki, təbii olaraq ortaya ümumi bir sual çıxır: "Nə etməli?"

Suya qənaət etməli, bəli, qənaət etməli! Bu bir zərurətə çevrilib. Həyat mənbəyi olan suyu gələcək nəsillər üçün qoruyub saxlamaq istəyiriksə, məsələyə məhz bu cür yanaşılmalıdır.



Foto İlham BABAYEVİNDİR

Aydındır ki, qənaət dedikdə söhbət təkcə əl-üzümüzü yuyarkən kranı açıq qoymaqdan getmir. Ona görə də dünyanın hər yerindəki mütəxəssislər az qala bir ağızdan deyirlər ki, əsas məsələ bu əvəzsiz nemətdən istifadə zamanı onun idarə edilməsi sistemlərinə tam baxılmasıdır.

Dünyada su ehtiyatlarının 70 faizə qədəri kənd təsərrüfatına sərf olunur. Su böhranını yaradan səbəblərdən biri də məhz budur. Odur ki, "ağıllı" suvarma sistemlərinə geniş yer verilməlidir. Ümumiyyətlə, məsələnin həllinin ən etibarlı yollarından biri yeni texnologiyaların tətbiqidir. "Ağıllı" suvarma sistemləri texnologiyası suyun verilməsini vəziyyətdən asılı olaraq, yəni vaxtlı-vaxtında təmin etməyi tənzimləyir, bitkilər defisit və israfçılıq çəkmədən lazım olan qədər su ala bilirlər.

Yağış suyunun yığılması da qənaətin bir formasıdır. Bu, yağıntıların istifadə üçün toplanmasıdır ki, ənənəvi mənbələrdən asılılığı nisbətən azaldır. Belə sudan suvarma, təmizlik işləri, yüksəkkeyfiyyətli filtrləşdirmə şərti ilə hətta içmək üçün də istifadə etmək olar.

Suya qənaət üçün innovativ texnologiyalar da mövcuddur. Bu cür texnologiyaların sözügedən problemin həllinə qoşulması müsbət bir haldır. Hətta elə işləmələr var ki, insanlara və müəssisələrə məhsul istehsal edərkən və xidmət işləri görərkən su sərfini azaltmağa imkan verir.

Suyun saflaşdırılmasına yeni metod demək düzgün olmazdı. Lakin bu, səmərəli və əlçatan bir metod kimi özünü getdikcə daha çox təsdiqləyir, içməli su ehtiyatları məhdud olan ölkələr üçün dəniz suyunu içməli suya çevirərək əhəmiyyətini artırır. Əks-osmos və Birbaşa-osmos kimi müasir üsullar bu prosesi daha da sürətləndirir və az enerji sərfi ilə başa gəlir.

Sudan təkrar istifadə sistemləri, yəni müasir təmizləyici qurğular axar suları filtrləşdirməyə, təmizləməyə və yenidən istifadə etməyə imkan verir. Məsələn, Sinqapurda NEWater milli proqramı reallaşdırılıb ki, onun da çərçivəsində axar sular içməyə yararlı suya çevrilir. Orada həmçinin suqoruyucu məişət texnikasından, məsələn, suyu az buraxan duşlardan, qənaətcil paltaryuyan maşınlardan və digər qurğulardan istifadə olunur ki, bu da işin keyfiyyətinə zərər vurmadan suyun israfını azaldır.

Mütəxəssislər onu da vurğulayırlar ki, suya qənaət anlamı ayrı-ayrı yerlərdə müxtəlif cür başa düşülməlidir. Çünki su qıtlığı özünü coğrafi məkandan asılı olaraq ayrı-ayrı formalarda büruzə verir. Haradasa uzun müddət davam edən quraqlıqlar baş verir, haradasa daşqınlar olur, yaxud su mənbələri çirklənir. Buna görə də hər region üçün sözügedən problemin həllinin konkret yolları olmalıdır.

Səhra əkinçiliyində - quraqlıq regionlarda hidroponika və akvaponika daha çox populyarlıq qazanmaqdadır. Bu sistemlər müəyyən qədər su işlədilməklə torpaqsız mühitdə məhsul yetişdirməyə və ənənəvi metodlarla müqayisədə daha az su sərfinə imkan verir. Daşqınlara məruz qalan zonalarda isə "ağıllı" drenaj sistemləri su itkisinin qarşısını alır. Bu sistemlər suyu həm toplaya, həm də "uzaqlaşdıra" bilir, beləliklə, istər yağıntıların güclü olduğu, istərsə də quraqlığın baş verdiyi zaman sudan istifadəni tənzimləyir.

Bunları texnologiyalar edir. Bəs, bizim hər birimiz nə edə bilərik? Müasir texnologiyalar çox vacib olsa da, suyu qorumaqda hər bir insanın məsələyə münasibətinin əhəmiyyəti var. Bəzən adi vərdişlər də nəzərəçarpan nəticə göstərməyə qadirdir. Kiminsə evindəki krandan damcıların axması mənasız bir hal kimi görünə bilər. Amma düşünəndə ki, ilboyu bir krandan daim bir damcının düşməsi sonda minlərlə litr sudur, vəziyyət aydın görünür. Buna görə də hər bir evdə santexnikanın daim nəzarətdə olması və vaxtında təmir işlərinin aparılması su itkisindən qaçmağa imkan verir.

Suqoruyan qurğuların - məişət texnikasının da rolu kiçik görünməsin. Yaşıllıqlar salınarkən quraqlığa davamlı bitkilərin seçilməsi, ağac və güllərin suvarılması üçün gölməçələrə yığılan sulardan istifadə də nəzərə alınmalıdır. Çünki bununla da yüzlərlə litr suya qənaət etmək mümkündür.

Beləliklə, dünyada içməli su ehtiyatları azalmaqda davam edir və deyilənlərdən bu nəticə çıxır ki, yeni texnologiyalar su təhlükəsizliyində mühüm rol oynayacaq. Suyun saflaşdırılması, səmərəli suvarma, "ağıllı" texnika - bütün bunlar mövcud su ehtiyatlarından istifadəyə "ağıllı" yanaşma formalaşdırır. Lakin texnologiyaya bel bağlamaq da azdır. Kollektiv səylər, problemin həllində birgə iştirak, məsuliyyətli istifadə bunlardan heç də az vacib deyil. Dövlət strukturlarının, biznes nümayəndələrinin və bizlərdən hər birimizin planetin ən qiymətli təbii ehtiyatlarından olan suya şüurlu münasibəti mütləqdir. Su çatışmazlığı elə bir ciddi problemdir ki, onu sonraya saxlamaq olmaz. İstər innovasiyalar, istərsə də bu əvəzsiz nemətə ciddi, diqqətli yanaşma gələcək nəsillər üçün onu qorumağa və bol sulu gələcəyi yaxınlaşdırmağa xidmət edir.

Suyun hər damlası unsiya-unsiya qızıldan daha qiymətlidir. Su həyatın bünövrəsidir və o, bu gün bizdən daha çox qayğı gözləyir. Gəlin elə onun hər damlasını qoruyaq. Bununla gələcəyi qorumuş olarıq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Kənd təsərrüfatında rəqəmsallaşma və süni intellektin tətbiqi məsələləri müzakirə olunub

**"Aqrar Məşvərət Şurası" İctimai Birliyinin növbəti iclası keçirilib. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbər şəxsləri, Aqrar Məşvərət Şurasının üzvləri, eləcə də aqrar sahədə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər. İclasda kənd təsərrüfatında rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqi mövzusu geniş müzakirə olunub.**

Tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahədə rəqəmsal transformasiyanın əhəmiyyətinə toxunub. Nazir qeyd edib ki, müasir texnologiyaların, xüsusilə süni intellekt həllərinin tətbiqi kənd təsərrüfatında məhsuldarlığın artırılması, resurslardan səmərəli istifadə və dayanıqlı inkişafın təmin olunması baxımından mühüm rol oynayır.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev rəqəmsal infrastrukturun gücləndirilməsi, məlumatların inteqrasiyası və innovativ texnologiyaların geniş tətbiqinin aqrar sahədə effektiv idarəetmənin əsasını təşkil etdiyini vurğulayıb. Nazir bildirib ki, həyata keçirilən rəqəmsal transformasiya təşəbbüsləri süni intellekt və böyükhəcmli məlumatların analizi imkanlarını genişləndirir və bu yanaşma kənd təsərrüfatında məhsuldarlığın artırılmasına, risklərin daha dəqiq idarə olunmasına şərait yaradır.

Aqrar Məşvərət Şurasının sədri Niyazi Əmirbəyov çıxışında aqrar sahədə innovativ yanaşmaların tətbiqi, məlumatlara əsaslanan qərarvermə mexanizmlərinin inkişafı və dövlət-özəl tərəfdaşlığının gücləndirilməsinin kənd təsərrüfatı sahəsinin rəqabət qabiliyyətinin artırılmasına xidmət etdiyini bildirib.

İclas çərçivəsində "Rəqəmsal inkişafın sürətləndirilməsi" mövzusunda təqdimatla çıxış edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədrinin müavini Şahin Əliyev aqrar sahədə rəqəmsal transformasiyanın genişləndirilməsi üçün mövcud imkanlar, tətbiq olunan texnoloji həllər və gələcək inkişaf istiqamətləri barədə məlumat verib. Təqdimatda məlumatların vahid platformada toplanması, süni intellekt əsaslı alətlərin biznes proseslərinə inteqrasiyası və fermerlər üçün əlçatan rəqəmsal xidmətlərin inkişaf etdirilməsi xüsusi vurğulanıb. Tədbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin İnformasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə şöbəsinin müdiri Aynur Qurbanlı aqrar sahədə rəqəmsal transformasiyanın əsas prioritetlərini açıqlayıb. O, məlumat əsaslı idarəetmə sistemlərinin inkişafı, rəqəmsal platformaların tətbiqi, süni intellekt və innovativ texnologiyaların istehsal proseslərinə inteqrasiyası, eləcə də fermerlər üçün rəqəmsal xidmətlərin genişləndirilməsinin əhəmiyyətinə toxunub.

Daha sonra "Aqrar süni intellekt" layihəsinin rəhbəri Surxay Novruzov layihə barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Tədbirdə kənd təsərrüfatında rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi istiqamətində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb və gələcək fəaliyyət istiqamətləri müəyyən edilib.

*"Azərbaycan"*

## "Azərkosmos" 2 ayda 32 ölkəyə peyk telekommunikasiya xidmətləri göstərib

**İlin əvvəlindən ötən iki ayda Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) dünyanın 32 ölkəsinə 3 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın mart sayında bildirilir ki, bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,11 faiz çoxdur. Bu dövrdə "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizini təşkil edib.

Yanvar-fevral aylarında peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 710,4 min dollar ilə Birləşmiş Krallıq, 545,4 min dollar ilə Lüksemburq, 374,4 min dollar ilə İsveç, 162 min dollar ilə Türkiyə, 152,5 min dollar ilə Pakistan qərarlaşıb.

## "Rehabus" layihəsi üzrə əlilliyi olan 3 minədək uşağa xidmət göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin "RehaBus" (Reabilitasiya avtobusu) layihəsi çərçivəsində ötən dövrdə əlilliyi olan 3 minədək uşağa xidmət göstərilib.**

2022-ci ildən Bakı şəhərində icrasına başlanılan layihə ötən aydan Gəncə şəhərində də reallaşdırılır. Layihə ambulator reabilitasiya xidmətlərinə cəlb edilən əlilliyi olan uşaqların reabilitasiya müəssisələrinə asan, rahat şəkildə çatmasına xidmət edir.

Reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonunda yaşayan əlilliyi olan uşaqları paytaxtdakı 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə, Gəncədə yaşayan əlilliyi olan uşaqları isə Şəmkirdəki Uşaq Reabilitasiya Mərkəzinə çatdırır.

Uşaqları müşayiət edən yaxınları da onlarla birgə bu xidmətlə əhatə olunurlar.

Reabilitasiya proseduru bitdikdən sonra isə uşaqlar yenidən geri qaytarılırlar.

● Ötən həftənin iqtisadi icmalı

## TDT hökumət başçılarının Bakı görüşü, EGYPS 2026-da əldə olunan razılaşmalar, "Rəqəmsal əkiz" layihəsinin təqdimatı

**2026-cı il mart ayının sonu və aprel ayının əvvəlində Azərbaycan iqtisadiyyatında baş verən hadisələr ölkənin beynəlxalq iqtisadi əməkdaşlıqda artan rolunu və strateji istiqamətlər üzrə fəallığını nümayiş etdirib. Xüsusilə enerji, nəqliyyat, tranzit və yüksək texnologiyalar sahəsində müşahidə olunan inkişaf meyilləri iqtisadiyyatın şaxələndirilməsi və qlobal inteqrasiya proseslərinin gücləndirilməsi baxımından ötən həftə əhəmiyyətli olub.**

Azərbaycanın beynəlxalq enerji platformalarında iştirakı, xüsusən də 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisi (EGYPS 2026) çərçivəsində əldə olunan razılaşmalar enerji sektorunda əməkdaşlığın genişlənməsinə imkan yaradıb. Bu kontekstdə martın 30-da Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əl-Sisinin himayəsi ilə Qahirədə EGYPS 2026 işə başlayıb. Aprelin 1-dək davam edən tədbirdə Azərbaycan SOCAR-ın vitse-prezidentinin müavini Vitaliy Bəylərbəyovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Qeyd edək ki, konfrans enerji təhlükəsizliyi, dayanıqlı inkişaf, bərpaolunan enerji mənbələri və innovativ texnologiyaların tətbiqi mövzularında keçirilib. Tədbirdə 500-dən çox enerji şirkəti, həmçinin 350-dən çox spiker iştirak edib. Sərgi çərçivəsində 13 ölkənin milli pavilyonu təqdim olunub, çoxtərəfli əməkdaşlıq və investisiya imkanları müzakirə olunub. Müzakirələr fonunda SOCAR və Misirin Dövlət Neft Korporasiyası arasında çərçivə sazişi imzalanıb, bu isə tərəflər arasında enerji sahəsində əməkdaşlığın genişlənməsinə zəmin yaradıb.

Məlumdur ki, Azərbaycan beynəlxalq enerji əməkdaşlığında önəmli addımlar ataraq, strateji tərəfdaşlarla münasibətlərin gücləndirilməsi və enerji sektorunda yeni investisiya imkanlarının yaradılması istiqamətində uğurlar əldə edir. Bu baxımdan, Qahirədə imzalanan saziş neft və qaz məhsullarının Misir bazarına çıxışını asanlaşdıracaq və investisiya imkanlarını genişləndirəcək. Azərbaycan ilə Misir arasındakı enerji əməkdaşlığının daha çox dərinləşdirilməsi bu saziş vasitəsilə təmin olunacaq.

Enerji sahəsindəki uğurlarla yanaşı, SOCAR beynəlxalq ticarət və ixrac fəaliyyətlərində də əhəmiyyətli nəticələr əldə edir. Bu mənada SOCAR Türkiyə şirkətləri ixrac sahəsində mövqeyini gücləndirməkdədir. Ötən həftə İstanbulda keçirilən "2025 İxracatın Ulduzları" mükafatlandırma mərasimində SOCAR Türkiyə şirkətlər qrupundan "STAR Rafineri" 1-ci, "SOCAR Petrol Ticarət" isə 2-ci yerə layiq görülüb. Bu mükafat şirkətin mineral yanacaqlar kateqoriyasında yüksək ixrac nailiyyətlərini və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini təsdiqləyir.

❖ ❖ ❖

Keçən həftə Azərbaycan beynəlxalq nəqliyyat və rəqəmsal texnologiyalar sahəsində də fəaliyyətini nümayiş etdirib. Aprelin 1-də Parisdə keçirilən Beynəlxalq Nəqliyyat Forumunun 12-ci Nəqliyyat Statistikası Görüşündə Bakı şəhərinin "Rəqəmsal əkiz" layihəsi təqdim olunub. Tədbirdə məlumatların toplanması, inteqrasiyası və süni intellekt texnologiyalarının nəqliyyat sistemlərinin dayanıqlılığı, eləcə də optimallaşdırılmasında tətbiqi müzakirə edilib. Azərbaycan bu forumda həm də beynəlxalq əməkdaşlığı gücləndirərək dayanıqlı və gələcəyə yönələn nəqliyyat siyasətinin təşviqinə töhfə verib.



❖ ❖ ❖

Qeyd edək ki, Azərbaycan üzərindən Ermənistana yük daşımaları xeyli müddətdir fasiləsiz həyata keçirilir və bu, regionda ticarət-logistika əlaqələrinin mühüm tərkib hissəsini təşkil edir. Ölkə ərazisindən tranzit keçməklə Rusiyadan Ermənistana müntəzəm olaraq müxtəlif məhsullar, o cümlədən taxıl, gübrə və digər kənd təsərrüfatı məhsulları göndərilir. İndiyədək Azərbaycan vasitəsilə 23,5 min ton taxıl, 1000 tondan artıq gübrə və 68 ton qarabaşaq məhsulu daşınıb ki, bu da regional ticarət əlaqələrinin dayanıqlı və etibarlı olmasını göstərir. Həmin kontekstdə ötən həftənin əvvəlində ölkə ərazisindən tranzit keçməklə Rusiyadan Ermənistana 5 vaqondan ibarət, ümumi çəkisi 349 ton olan buğda göndərilib.

❖ ❖ ❖

Sirr deyil ki, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində iqtisadi, nəqliyyat və texnoloji əməkdaşlığın dərinləşdirilməsi istiqamətində keçirilən görüşlər regional inteqrasiyanın güclənməsinə hər zaman təkan verib. Nəqliyyat və logistika sahəsində xüsusilə tranzit daşımaların artması və rəqəmsal həllərin tətbiqi Azərbaycanın Orta dəhlizdə strateji mövqeyini daha da möhkəmləndirib. Bu mənada aprelin 1-2-də TDT hökumət başçılarının Bakıda keçirilən ikinci görüşündə üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın bir qədər də gücləndirilməsi, ticarət və enerji layihələrinin inkişafı, həmçinin regional nəqliyyat və logistik imkanların genişləndirilməsi məsələləri müzakirə olunub. Görüş çərçivəsində qarşılıqlı etimadın artırılması və birgə investisiya təşəbbüslərinin gücləndirilməsi məqsədilə bir sıra qərarlar qəbul edilib.

Beləliklə, ötən həftənin hadisələri göstərdi ki, Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar həm beynəlxalq əməkdaşlıq, həm də daxili inkişaf təşəbbüsləri sayəsində ölkənin dayanıqlılığını və rəqabət qabiliyyətini xeyli gücləndirib. Bu uğurlar gələcəyə yönələn strateji addımların və davamlı iqtisadi siyasətin təsirini nümayiş etdirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● "Molla Nəsrəddin" - 120

# Azərbaycan satirik mətbuatının zirvəsi

**Vaxt vardı mətbuat orqanları yalnız informasiya daşıyıcısı deyildi. Qəzet və jurnallar həm də öz dövrünün ictimai, siyasi, sosial və mədəni hadisələrini özündə əks etdirir, ictimai şüurun formalaşmasına və milli düşüncə tərzinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Bu səbəbdən hər mətbu orqanda nəşr olunduğu zamanın səsi, mənzərəsi vardı.**







Çünki hər bir qəzet və jurnal mətbuat aləminə müəyyən amacla qədəm qoyurdu. İlk sayında məslək yolu, qarşısına qoyduğu vəzifə və məqsədi oxuculara açıqlanırdı. Elə mətbu orqanları var idi ki, yalnız öz üzərinə götürdüyü vəzifələri yerinə yetirmir, həm də başqa qəzet və jurnallar üçün böyük nümunəyə çevrilir, məktəb yaradırdı. 1906-cı il aprelin 7-də nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı belə nadir mətbuat nümunələrindən biridir. Azərbaycan satirik mətbuatının ilki olan bu jurnal yeni bir məktəbin əsasını qoymuşdur.

Birinci sayının işıq üzü görməsinin 120-ci ildönümündə onun Azərbaycan ictimai fikrindəki əvəzsiz rolunu bir daha xatırlayarkən, ilk növbədə, vurğulamalıyıq ki, "Molla Nəsrəddin" cəmiyyətin aynası, xalqın səsi, dövrün ağrılarını kəskin satira vasitəsilə ifadə edən güclü tribuna olmağı bacarmışdır.

"Molla Nəsrəddin"in uğurunun əsas səbəblərindən biri müdiri və baş redaktoru Cəlil Məmmədquluzadənin jurnalın ətrafına dövrün ən qabaqcıl, mütərəqqi fikirli ziyalılarını, istedadlı qələm sahiblərini toplaması idi. Jurnalın səhifələrində Cəlil Məmmədquluzadə başda olmaqla, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Əli Nəzmi, Əbdürrəhim bəy Haqverdiyev və başqaları yalnız yazıçı, publisist, şair kimi deyil, həm də maarifçi və ictimai xadim kimi çıxış edərək "Molla Nəsrəddin"i güclü bir ideoloji və ədəbi platformaya çevirmişlər.

Jurnalın səhifələrində yer alan kəskin publisistik yazılar, felyetonlar və satirik şeirlərlə yanaşı, karikaturalar da dövrün sosial-siyasi problemlərinə toxunur, onun təsir gücünü daha da artırırdı. Rəssamların yaratdığı satirik təsvirlər sözün gücünü tamamlayır, oxucuya daha təsirli mesaj ötürürdü. Bu karikaturalar bəzən bir məqalədən daha çox təsir gücünə malik olurdu və cəmiyyətin eyiblərini açıq-aydın göstərirdi.

Jurnalın ən mühüm xüsusiyyətlərindən biri onun cəsarəti idi. O dövr mövcud olan senzura, dini fanatizm və sosial basqılara baxmayaraq, "Molla Nəsrəddin" cəmiyyətin ən ağrılı problemlərini açıq şəkildə qabardırdı. Qadın hüquqları, təhsil məsələləri, din xadimlərinin cahilliyi məmur özbaşınalığı kimi mövzular jurnalın əsas tənqid hədəfləri idi. Bu baxımdan, jurnal yalnız ədəbi deyil, həm də ictimai-siyasi mübarizə vasitəsi kimi çıxış edirdi.

"Molla Nəsrəddin" jurnalının əsas mövzusu cəmiyyətin sosial, mənəvi və təhsil problemlərinin satira və tənqid prizmasından işıqlandırılması idi. Jurnal gerilik, savadsızlıq, mövhumat, dini fanatizm, qadın hüquqsuzluğu, məmur özbaşınalığı və sosial ədalətsizlik kimi neqativləri kəskin ifşa edirdi. Xüsusilə xalqın maariflənməsi, dünyəvi təhsilin yayılması və azad düşüncənin formalaşdırılması jurnalın aparıcı ideya xəttini təşkil edirdi. "Molla Nəsrəddin" cəmiyyətdəki eyibləri satira hədəfinə çevirərək oxucunu düşündürür, onu dəyişməyə və yeniliyə açıq olmağa çağırırdı. Bu baxımdan, jurnal satiranı sadəcə ədəbi janr kimi deyil, ictimai islahatların mühüm vasitəsi kimi təqdim edirdi.

"Molla Nəsrəddin" jurnalının uğurunu şərtləndirən əsas amillərdən biri də onun üslubu idi. Jurnal sadə, anlaşıqlı və xalq danışıq dilindən istifadə edərək geniş oxucu kütləsinə müraciət edirdi. Yazılarda satira və yumor əsas yer tutur, istehza, kinayə və kəskin tənqid vasitəsilə cəmiyyətin nöqsanları ifşa olunurdu. Publisistik ruhla qələmə alınan məqalələrdə obrazlılıq, canlı dil, xalq deyimləri və atalar sözlərindən geniş istifadə olunurdu ki, bu da mətni həm təsirli, həm də yaddaqalan edirdi. Jurnalın üslubu eyni zamanda cəsarətli və prinsipial idi - müəlliflər heç bir sosial təbəqədən və ya mövqedən çəkinmədən həqiqəti açıq şəkildə ifadə edirdilər. Bu üslub "Molla Nəsrəddin"i həm düşündürücü, həm də oxunaqlı edən əsas xüsusiyyətlərdən biri kimi mətbuat tarixində saxladı.

"Molla Nəsrəddin" məktəbi Azərbaycan mətbuatına, eləcə də ədəbiyyatına və publisistikasına yeni nəfəs gətirmişdi. Bu məktəbin yetirmələri satiranı sadəcə gülüş vasitəsi kimi deyil, ciddi ictimai silah kimi istifadə etmişlər. Jurnalın təsiri ilə formalaşan yazıçılar və publisistlər sonrakı dövrlərdə də Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışlar. Bu mənada, "Molla Nəsrəddin" yalnız bir dövrün deyil, bütöv bir ədəbi ənənənin başlanğıcı kimi qiymətləndirilməlidir.

Əhəmiyyətli məsələlərdən biri də "Molla Nəsrəddin"in bütün qadağalara baxmayaraq, Azərbaycanın, hətta Qafqazın hüdudlarını aşması idi. Bu mətbu orqan İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrə də yayılır, böyük maraqla oxunurdu.

1931-ci ildə jurnalın fəaliyyətinə son qoyuldu. Onun yaratdığı məktəb isə uzun zaman davam etdi. Çünki 120 il öncə "Molla Nəsrəddin" jurnalı Azərbaycan mətbuatına xalqı milli oyanışa, ətalətdən, gerilikdən qurtulmağa, tərəqqiyə səsləmək üçün yola çıxmış və öz missiyasını layiqincə yerinə yetirmişdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● 2026 - Şəhərsalma və Memarlıq İli

# M.F.Axundzadə adına Milli Kitabxana həm bilik məbədimiz, həm də tarixi-memarlıq abidəmizdir





**Mikayıl Hüseynovun çoxşaxəli memarlıq fəaliyyəti Azərbaycan arxitekturasının təkmilləşməsi və yüksəlişi məsələləri ilə birbaşa bağlıdır. O, müasir Bakı memarlığının ən yaxşı nümunələrinin müəllifi olmuşdur. Həmin nümunələrin ideyası və ifadə üslubu indi də paytaxtımız üçün öz aktuallığını qoruyub saxlamaqdadır.**

Belə gözəl memarlıq abidələrindən biri də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasıdır. Dünya mütəxəssislərinin rəylərinə görə, kitabxananın hazırkı binası milli memarlığın ən möhtəşəm nümunələrindən biri hesab olunur. Mikayıl Hüseynov layihədə klassik memarlıq elementləri ilə milli memarlıq ənənələrini xüsusilə portal və eyvanlarda sintez etmişdir.

Binanın inşasına 1949-cu ildə başlanılmış və tikinti işləri 1959-cu ildə tamamlanmışdır. Kitabxana kollektivi yeni binaya 1960-cı ildə köçmüş və rəsmi açılış da həmin vaxt baş tutmuşdur. Mikayıl Hüseynov binanı layihələndirərkən Şərq elementlərini - tağları, sütunları, şəbəkələri modern strukturla birləşdirmişdir. Kitabxananın daxili planı isə elə qurulub ki, təbii işıq oxu zallarına maksimum dərəcədə daxil olsun. Bina tikilərkən o dövrün ən müasir ventilyasiya və yanğından mühafizə sistemləri ilə təchiz edilib. Mütəxəssislər tərəfindən binanın "Stalin ampiri" ilə Azərbaycan milli memarlığının sintezi olduğu xüsusi vurğulanır.

Binanın eyvanında yerləşən heykəllər Azərbaycanın mədəniyyət salnaməsini əks etdirir. Burada 9 dahi şəxsiyyətin - Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin,Üzeyir bəy Hacıbəylinin, Şota Rustavelinin, Aleksandr Puşkinin, Dmitri Mendeleyevin, Həsən bəy Zərdabinin, Səməd Vurğunun, Cəfər Cabbarlının heykəlləri var.

Milli Kitabxana binasının interyer dizaynı da binanın eksteryeri (xarici görünüşü) kimi məşhur memar Mikayıl Hüseynovun müəllifliyi və rəhbərliyi ilə hazırlanıb. O dövrdə memarlar binanın həm çöl görünüşünü, həm də daxili tərtibatını vahid bir ansambl şəklində layihələndirirdilər.

Mikayıl Hüseynov daxili məkanda Avropa klassisizmi ilə Azərbaycanın milli ornamentlərini birləşdirib. Tavanlarda və sütunların yuxarı hissələrində şəbəkə və nəbati naxışlardan geniş istifadə olunub. Əsas oxu zallarının daxili tərtibatı isə həm akustik rahatlığı, həm də estetik görünüşü təmin etmək üçün hündür tavanlar və geniş pəncərələrlə layihələndirilib. Zallardakı stollar və kitab rəfləri də xüsusi olaraq binanın üslubuna uyğun hazırlanıb.

İnteryerdə təbii daşlardan, mərmərdən və keyfiyyətli ağac materiallarından istifadə edilib. Bu, binaya həm möhkəmlik, həm də saray tipli möhtəşəmlik verir. Binanın daxilindəki bəzi divar rəsmləri və bəzək elementləri o dövrün ən yaxşı rəssam və ustaları tərəfindən Mikayıl Hüseynovun eskizləri əsasında işlənilib. Yeri gəlmişkən, qeyd edək ki, 2000-ci illərdən sonra aparılan təmir və bərpa işləri zamanı binanın ilkin memarlıq görkəmi və Mikayıl Hüseynovun müəllif ideyaları olduğu kimi qorunub saxlanılmışdır.

Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap materiallarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən kitabxana və dövlət kitabsaxlayıcısıdır. Bu məbəd Azərbaycanın ən möhtəşəm kitabxanası olmaqla yanaşı, Qafqazda və Avropada ən böyük milli kitabxanalardan biridir.

2024-cü ildə Milli Kitabxananın fonduna müxtəlif mənbələrdən 50 349 nüsxə ədəbiyyat daxil olub. Həmin ədəbiyyatın 43 354 nüsxəsi kitab, 6 995 nüsxəsi isə digər növ sənədlərdən ibarətdir. Bunun 21 265 nüsxəsi azərbaycan dilində, 16 296-sı rus dilində, 12 788-i isə digər dillərdə olmuşdur. Milli Kitabxananın Fondu 4 690 311 nüsxədən ibarətdir.

Kitabxananın ən dəyərli hissələrindən biri Nadir kitablar və kitabxana muzeyi şöbəsidir. Burada XV-XVI əsrlərə aid əlyazmalar, daşbasma üsulu ilə çap olunmuş qədim nəşrlər, dünyanın ən kiçik kitablarından sayılan miniatür nəşrlər saxlanılır.

2005-ci ildən Azərbaycan Milli Kitabxanası Avropa Milli Kitabxanaları Konfransına (CENL) üzv seçilib. Bu, kitabxananın rəqəmsal resurslarının Avropa elektron kitabxana şəbəkəsinə inteqrasiya olunması deməkdir.

Azərbaycan Xalq Maarif Komissarlığının 13 noyabr 1920-ci il tarixli qərarına əsasən yaradılan, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olan kitabxanaya 1939-cu ildə mütəfəkkir, dramaturq və maarifçi Mirzə Fətəli Axundzadənin adı verilmişdir.

Mikayıl Hüseynov öz işlərində daim milliliyə, ənənəçiliyə üstünlük verirdi. O, hər zaman çıxışlarında deyirdi: "Milli memarlıq ilk növbədə milli formadır, ənənədir". Milli memarlığa sadiqliyinə görə SSRİ Memarlar İttifaqı tərəfindən qınaq olunan M.Hüseynov tənqid və şərhlərə əhəmiyyət vermir, əsərlərində bu düşüncələrini geniş əks etdirirdi. Bakının mərkəzində yerləşən M.F.Axundzadə adına Milli Kitabxana unikal görünüşünə görə tarixi-memarlıq abidəsidir.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● Musiqi xadimlərimiz

# Əbədiyaşar musiqi, sınaqlarda keçən bəstəkar ömrü

**Bəstəkarların ömrü illərlə deyil, səslərlə ölçülür. Bu ömrün başlanğıcı bir notdan, davamı bir melodiyadan, sonu isə heç vaxt bitməyən bir sükutdan ibarət olur. Musiqi - adi qulaq üçün sadəcə səslərin ahəngi olsa da, bəstəkar üçün o, ruhun dili, zamanın yaddaşı, hisslərin ən saf ifadəsidir. Bu dili anlayan, onu dünyaya çatdıran insanlar isə seçilmişlərdir. Onlar 7 notun düzülüşü ilə insan qəlbinin ən dərin qatlarına toxuna bilirlər.**



Belə sənətkarların həyatı adi olmur. Onların həyatları illərlə yox, yaratdıqları əsərləri ilə ölçülür. Ömürlərini ilhamlarının gəlib-getməsi ilə yaşayırlar. Gecələri sükutun içində doğulan melodiyalara qulaq asaraq keçirirlər. Sevinc, kədər, sevgi və ayrılıqları da sözlə deyil, musiqi ilə danışır. Bəzən bir əsər onların bütün ömrünü ifadə edir, bəzən isə bir ömür bir neçə taktın içində əriyib yox olur. Amma bir həqiqət dəyişmir - yaşadıqları müddətdə musiqi yaradanları, bu dünyadan köçdükdən sonra isə musiqi yaşadır.

Bu gün haqqında söz açdığımız bəstəkar da məhz belə tale yaşayanlardandır. Onun həyatı sadəcə bioqrafik faktlar toplusu deyil, səsə çevrilmiş ömür, zamana hopmuş duyğu, yaddaşlarda yaşayan bir melodiyadır. Onun yaratdıqları yalnız dinlənilmir, insanın ruhunda hiss olunur, canında yaşanır, zaman keçdikcə daha dərin məna kəsb edir.

Qəmbər Muxtar oğlu Hüseynli belə bəstəkarlardandır. Onun həyatı və yaradıcılığı notlarda əbədiləşmiş ömür, səsə çevrilmiş tarix və nəhayət, Azərbaycan musiqisinin canlı xəzinəsidir.

1916-cı il aprelin 16-da Gəncədə dünyaya gəlmiş Qəmbər Hüseynli gənc yaşlarından xalq musiqisinə sonsuz məhəbbət göstərərək klassik muğamlarımızın əsasını dərindən öyrənmişdi. Bu ilk addımlar sonradan onun bəstəkarlıq fəaliyyətində böyük rol oynayacaq, milli musiqi irsimizi həm qoruyacaq, həm də yeni ifadə yolları ilə zənginləşdirəcəkdi. 1927-ci ildə Gəncə orta ixtisas musiqi məktəbinin tar sinfinə daxil olan gənc Qəmbər 1929-1934-cü illərdə Gəncə Pedaqoji Texnikumunda təhsil almış, 1934-cü ildə fərqlənmə diplomu ilə tar sinfini bitirərək Bakıya üz tutmuşdur. Bakı Musiqi Texnikumunda violonçel və bəstəkarlıq üzrə təhsil alaraq həm Qərb musiqi ənənələrini mənimsəmiş, həm də xalq və aşıq musiqisinin zənginliyinə dərindən yiyələnmişdi.

1939-cu ildə Qəmbər Hüseynli milli musiqimizin beşiyi olan Şuşa Musiqi Texnikumuna direktor təyin olunmuş, burada həm pedaqoji fəaliyyət göstərmiş, həm də gələcək nəslin musiqiçilərini yetişdirmişdir. Bu dövrdə onun musiqi irsində yeni səhifələr açan əsərlərdən biri də Sazçı Qızlar Ansamblı üçün hazırlanmış 55 ənənəvi aşıq havasıdır. Hər bir not, hər bir takt xalq musiqisinin ruhunu yaşatmaqla yanaşı, onu müasir musiqi ilə sintez edir, dinləyicini zamanın və məkanın sərhədlərini aşan musiqi səyahətinə aparır.

Bəstəkarın yaradıcılığı yalnız ansambllarla məhdudlaşmırdı. Qəmbər Hüseynli 300-ə yaxın mahnı və romansın müəllifi olmaqla uşaqlar üçün yazdığı mahnılarla böyük şöhrət qazanmışdır. 100-dən çox dildə səslənən və sevilən "Cücələrim" nəğməsi həm ölkədə, həm də dünya səhnələrində Azərbaycan musiqisinin simvoluna çevrilmişdir. Bu musiqi ilk dəfə Gəncə 20 nömrəli məktəbin xor kollektivi tərəfindən ifa olunmuş, sonra Bakı Mərkəzi Pioner və Məktəblilər Sarayının repertuarına daxil edilmiş, Türkiyə, Bolqarıstan, Macarıstan və digər ölkələrdə böyük uğur qazanmışdır.

Bəstəkar həmçinin klassik janrlara da müraciət etmişdir. Onun opera, romans, simli kvartet və teatr üçün yazdığı əsərləri Azərbaycan Musiqi Məktəbinin inkişafında müstəsna rol oynamışdır. 1951-1954-cü illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda bəstəkarlıq üzrə təhsilini tamamlayan Q.Hüseynli, Mir Mehdi Seyidzadənin librettosuna "Qızıl quş" operasını diplom işi kimi təqdim etmişdir. Bu əsər onun zəngin musiqi dilini və dramaturji həssaslığını nümayiş etdirirdi.

Bəstəkar yaradıcılığının pik dövrlərini təkcə musiqi aləmində deyil, həm də sovet ideoloji qaydalarının sərt nəzarəti altında olan mühitdə yaşamışdı. 1940-cı illərin əvvəlində - İkinci Dünya müharibəsi dönəmində və sonrakı illərdə sovet hakimiyyətinin repressiv maşını Azərbaycanda da geniş işləyirdi: ideoloji baxımdan "şübhəli" sayılan ziyalılar, yazarlar, musiqiçilər və elm adamları "xalq düşməni", "pantürkçü", "millətçi" kimi absurd ittihamlarla ən ağır cəzalara məruz qalmışlar. Bu qaranlıq dövrün təsiri Qəmbər Hüseynlinin də həyatında özünü göstərmişdi. Onun yaradıcılığı "ideologiya tələblərinə uyğunlaşmadığı" bəhanəsi ilə hədəfə alınmışdı. Hətta "Cücələrim" kimi nəğmə belə, bəzi rəsmi dairələr tərəfindən sovet estetikası ilə uzlaşmayan musiqi kimi qiymətləndirilmişdi. Bu ideoloji təzyiqlər nəticəsində bəstəkar repressiya predmetinə çevrilmiş və sovet hakimiyyətinin mədəni sahədə hökm sürən senzura və güclü nəzarəti şəraitində 1941-ci ilin dekabrında həbs olunmuşdu. Bu barədə bəstəkar özü Üzeyir bəy Hacıbəyliyə yazdığı məktubda qeyd etmişdi ki, həmin il repressiya dövründə o, qısa müddət həbs edilmişdi və bu, ideoloji səbəblərlə bağlı idi. Bəstəkarın həbsi qısa bir zamanı əhatə etsə də, bu "xəbərdarlıq" onun yaradıcılığına, psixoloji və fiziki vəziyyətinə ciddi təsir göstərmişdi. Q.Hüseynlinin yaradıcılığının bu çətin dövrü onun səhhətinə, sonrakı illərdə fəaliyyətinə mənfi təsir göstərmişdir. O, çətin sınaqlardan keçərək yenidən musiqi səhnəsinə qayıtsa da, ideoloji təzyiqlərin izləri artıq öz işini görmüşdü.

Qəmbər Hüseynlinin yaradıcılığında diqqətçəkən əsas məqam da onun zamanın çətin siyasi şəraitində, repressiyaların davam etdiyi bir dövrdə yaşamasına baxmayaraq, xalq musiqisinə xüsusi önəm verməsi, milli musiqimizi qorumaq və təbliğ etmək missiyasının davamı yönündə qətiyyətli fəaliyyətidir. Bəstəkar 1961-ci ildə Azərbaycan SSR-nin Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Qəmbər Hüseynli ilə bizi iki qərinəlik bir zaman ayırsa da, onun musiqi irsi bu gün də yaşayan bir abidə olaraq Azərbaycan xalqının qəlbində əbədi qalacaq.

Xalqı, Vətəni üçün ömür sürüb iş görənləri nə tarix unudur, nə də xalq. Zaman keçsə də, əbədi yaşamaq ömrü qazananlar layiq olduqları qiyməti alırlar. 1961-ci ilədə 45 yaşında dünyadan köçən sənətkarın 2007-ci ildə həyat və fəaliyyətindən bəhs edən "Qəmbər Hüseynli" adlı qısametrajlı sənədli film çəkilib. 25 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Onun adına Gəncədə park, musiqi məktəbi, mahnı teatrı təsis edilib. 2018-ci ilin yanvarında Gəncədə bəstəkarın heykəli ucaldılıb. Uşaq və xalq musiqisi üçün yaratdığı əsərlər hələ də Azərbaycan musiqi mədəniyyətinin əsas dayaqlarından biri olaraq sevilir və yeni nəsillərə ötürülür.

Qəmbər Hüseynli yalnız bəstəkar deyil, musiqidə yaşayan ömür, xalqın duyğularını və milli ruhunu notlara çevirmiş sənətkar tariximizin bir parçası, milli ruhumuzun daşıyıcısıdır. Onun yaradıcılığı illərlə, əsrlərlə davam edən bir melodiyanın davamıdır və hər əsərində Azərbaycan musiqisinin əbədi və saf gözəlliyini hiss etmək mümkündür. Q.Hüseynli bizə göstərdi ki, musiqi sadəcə səslərin düzülüşü deyil, bir xalqın qəlbinin nəğməsidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Mesenat" tamaşasının premyerası olacaq

**Aprelin 11-12-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin eyniadlı pyesi əsasında hazırlanan "Mesenat" tamaşasının premyerası olacaq.**

Teatrdan bildirilib ki, Azərbaycanın məşhur neft milyonçusu, ictimai xadim və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən ikihissəli musiqili dramın quruluşçu rejissoru Prezident mükafatçısı Samir Qulamovdur.

Tamaşada yalnız baş qəhrəmanın çətin və keşməkeşli taleyi deyil, eyni zamanda onun yaşadığı dövrün mürəkkəb ictimai-siyasi şəraiti, bolşeviklərin hiyləgər planları nəticəsində Bakı milyonçularına qarşı törədilən ailə faciələri də əks olunur.



Səhnə əsərinin bəstəkarı Əli Əliyevdir. Musiqi tərtibatında həmçinin Yohann Ştraus II (1825-1899), Salvatore Markezi (1822-1908) və Frederik Şopen (1810-1849) kimi dünya bəstəkarlarının əsərlərindən istifadə olunub.

# İntensiv yağışlar Bakıda fəsadlar törədib

## Bütün məsul qurumlar koordinasiyalı şəkildə işləyirlər






**Bakıda intensiv yağışlar fəsadlar törədib. Buna görə qurumlar gücləndirilmiş rejimdə işləyirlər.**

Aprelin 4-dən başlayaraq ölkə ərazisində intensiv xarakterli yağıntılı hava şəraiti davam edir. Milli Hidrometeorologiya Xidmətinin məlumatında bildirilir ki, Bakıda və Abşeron yarımadasında aprelin 5-6-da düşən yağıntının miqdarı 90 mm qeydə alınıb ki, bu da aylıq normanın 390 faizini təşkil edir. Yağan yağışlar isə bir sıra fəsadlar törədib.

Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyəti və onun tabeliyində olan strukturlar, rayon icra hakimiyyəti başçıları və onların aparatları gücləndirilmiş iş rejimində işləyirlər.

Bakı Şəhər İcra Hakimiyyətindən bu barədə verilən məlumata görə, Bakıətrafı qəsəbələrin kanalizasiya sistemi mövcud olmayan ərazilərində də subasma halları müşahidə edilir. Həmin yerlərdə də şəhərin kommunal xidmət əməkdaşları xüsusi vasitələrdən istifadə etməklə yağış sularını çəkib həmçinin zəruri hallarda insanları təxliyə ediblər. Ərazilərə su nasosları, xüsusi texniki qurğular və ehtiyac olan yerlərə ağır texnikalar cəlb olunub.

Yağan yağış ətraf mühitə də ziyan verib. Belə ki, aprelin 5-də axşamdan aprelin 6-sı səhərə kimi intensiv yağışla müşayiət olunan külək nəticəsində ağacaşma halları da müşahidə edilib. Bununla bağlı Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin operativ qrupları fasiləsiz xidmət göstəriblər. Birliyin əməkdaşları çağırış olan ərazilərə gələrək aşan ağacların götürülməsini təmin edib, lazımi tədbirlər görüblər.

Yaranmış vəziyyətlə bağlı yerlərdə BŞİH-nin monitorinq qrupu çalışır. Onlar su yığılan əraziləri, problemli ünvanları müəyyənləşdirir, aidiyyəti qurumlara məlumat verirlər.

Beləliklə, intensiv yağan yağışın törətdiyi fəsadları aradan qaldırmaq üçün Bakı şəhərinin bütün məsul qurumları koordinasiyalı şəkildə işləyirlər.

*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Ölkəmizin öndərliyi ilə TDT qlobal güc mərkəzinə çevrilir
İlham ƏLİYEV: "Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək"
TDT-nin Bakı görüşü gələcəyin strategiyasını müəyyən etdi
Azərbaycanın humanitar diplomatiyası sərhəd tanımır
Aprel döyüşləri Azərbaycanın hərbi gücünün ilkin təsdiqi oldu
Neft qiymətləri öz tarixi rekordunu yeniləyə bilərmi?
Mina terrorçuluğu bütün bəşəriyyət üçün ağrılı problemdir

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Axios nəşri: *"İran, ABŞ və vasitəçilər 45 günlük atəşkəsi müzakirə edirlər"*

**ABŞ, İran və bir qrup regional vasitəçi müharibəyə son qoymaq üçün bir addım ola biləcək mümkün 45 günlük atəşkəsin şərtləri ilə bağlı intensiv danışıqlar aparır. Bu barədə xəbər verən Axios nəşri ABŞ, İsrail və region ölkələrindəki dörd mənbəyə istinad edir.**



ABŞ Prezidenti Donald Trampın İrana Vaşinqtonun şərtlərinə əməl etməsi üçün verdiyi 10 günlük müddət dünən başa çatmalı idi. Lakin bazar günü o, gözlənilmədən vaxtı daha 20 saat uzadaraq şərq vaxtı ilə saat 20:00-da yeni bir müddət elan edib.

Axios-a verdiyi müsahibədə Tramp ABŞ-nin İranla "aktiv danışıqlar" apardığını və son tarixdən əvvəl razılığa gəlinə biləcəyini təsdiqləyib. "Yüksək ehtimal var, amma əgər onlar razılaşma əldə etməsələr, oradakı hər şeyi məhv edəcəyəm", - deyə ABŞ lideri bildirib. Prezident həmçinin razılaşma əldə edilməsə, İranı əsas mülki infrastrukturuna zərbə endirəcəyi ilə hədələyib. Tehran isə İsrail və Fars körfəzi ölkələrindəki infrastruktura zərbə endirməklə cavab verəcəyi barədə xəbərdarlıq edib.

"Jerusalem Post" qəzetinin məlumatına görə, ABŞ və İsrail İranın enerji obyektlərinə qarşı kütləvi zərbələr üçün əməliyyat planını yekunlaşdırıblar. Vəziyyətlə tanış olan iki mənbə belə bir planın mövcudluğunu təsdiqləyərək onun davam edən danışıqlar və Tehranın mövqeyi ilə bağlı artan qeyri-müəyyənlik fonunda hazırlandığını açıqlayıb. Bu mənbələrə görə, sənəddə ayrı-ayrı enerji mərkəzlərinə məhdud zərbələrdən tutmuş İran iqtisadiyyatına xidmət edən infrastrukturun əhəmiyyətli bir hissəsini sıradan çıxara bilən daha geniş əməliyyata qədər bir neçə variant nəzərdə tutulur. Lakin mənbələr vurğulayırlar ki, planlaşdırmanın tamamlanması onun dərhal həyata keçirilməsi demək deyil.

Məhz buna görə də Prezident Donald Trampın ultimatumu daha 20 saat uzatmaq qərarı diplomatik kanallara son günlərdə İrana göndərilən təklifləri dəqiqləşdirmək üçün vaxt vermək məqsədi daşıyır. Pakistan, Misir və Türkiyə vasitəçiləri, eləcə də Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff və İranın xarici işlər naziri Abbas Əraqçi arasında birbaşa mübadilələr vasitəsilə çatdırılan bu təkliflərə hələlik Tehranın razılığı alınmayıb.

ABŞ rəsmiləri iddia edirlər ki, Vaşinqton İrana müvəqqəti atəşkəs və gərginliyi azaltmaq məqsədilə tədbirlər üçün bir neçə variant təqdim edib. Lakin mənbələrə görə, İran tərəfi onlardan heç birini qəbul etməyə hazır olmadığını bildirib. Bu vəziyyətdə ilkin uzatma Tehranı ən azı 45 günlük atəşkəs üçün təklif olunan parametrləri nəzərdən keçirməyə inandırmaq üçün əlavə saatlar almaq cəhdi kimi qəbul edilir. Bildirildiyinə görə, danışıqlar üçün daha çox vaxt lazım olarsa, atəşkəsin uzadılması ehtimalı var. İkinci mərhələ isə müharibəyə son qoymaq üçün yekun razılaşmanı əhatə edə bilər.

Vasitəçilər hesab edirlər ki, Hörmüz boğazının tam açılması və İranın yüksək zənginləşdirilmiş uranla bağlı problemin həll yolu yalnız yekun razılaşmadan sonra əldə oluna və yalnız ikinci mərhələdə həll edilə bilər. Onlar vasitəçilərin İranın boğaz və nüvə ehtiyatları ilə bağlı görə biləcəyi etimad tədbirləri üzərində işlədiklərini deyirlər. Lakin iki mənbə İran rəsmilərinin cəmi 45 günlük atəşkəsin əvəzində bu təsirdən imtina etməyə hazır olmadığını bildirir. Bu iki məsələ İranın danışıqlarda əsas sövdələşmə üstünlüyüdür. İki məlumatlı mənbəyə görə, İran rəsmiləri 45 günlük atəşkəs qarşılığında onlardan tamamilə imtina etməyə hazır deyillər. Nəzərdən keçirilən bir variant, İranın ilk mərhələdə hər iki cəbhədə məhdud addımlar atmasıdır və ABŞ atəşkəsin yeni bir hücumdan əvvəl müvəqqəti fasiləyə çevrilməyəcəyinə zəmanət verir.

Məlumata görə, İran rəsmiləri vasitəçilərə açıq şəkildə bildiriblər ki, onlar Qəzza və ya Livandakı kimi vəziyyətlə qarşılaşmaq istəmirlər, çünki orada atəşkəs kağız üzərində mövcuddur, ABŞ və İsrail istənilən vaxt başlaya bilirlər.

Vasitəçilər həmçinin ABŞ tərəfindən İranın bəzi tələblərini təmin edə biləcək digər etimad tədbirləri üzərində işləyirlər. Hesabata görə, Vaşinqton və Tehran arasında danışıqlarda iştirak edən vasitəçilər İran rəsmilərinə danışıqlarda əlavə taktiki addımlar üçün vaxt qalmadığını bildiriblər və növbəti 48 saatın razılığa gəlmək və ölkənin genişmiqyaslı dağıdılmasının qarşısını almaq üçün son şans olduğunu vurğulayıblar. Lakin vəziyyətlə tanış olan bir mənbənin sözlərinə görə, vasitəçilər danışıqların uğursuzluğa düçar olacağı halda, İranın təkcə İsrailə deyil, həm də onun regional müttəfiqlərinə zərər vermək qabiliyyətini nümayiş etdirmək məcburiyyətində qalacağından getdikcə daha çox narahatlıqlarını ifadə edirlər. Vasitəçilərin dediyinə əsasən, bu, "onilliklər ərzində Körfəz infrastrukturu üçün ən dağıdıcı ssenariyə" səbəb ola bilər.

Onlar vurğulayırlar ki, bu, təkcə İran obyektlərinə deyil, həm də Fars körfəzi ölkələrindəki neft terminallarına, nasos stansiyalarına, duzsuzlaşdırma zavodlarına və digər vacib obyektlərə potensial zərbələrə aiddir. Bu obyektlər hətta ortamiqyaslı zərbələrə son dərəcə həssasdır. Milyonlarla insanın həyatına təsir edən bu sistemlərə edilən hər hansı bir hücum neft tədarükünü, su təchizatını poza və bütün region üçün ciddi iqtisadi nəticələrə səbəb ola bilər.

İran rəsmiləri ən azı ictimaiyyət qarşısında hansısa bir güzəştə getməkdən imtina edərək çox sərt mövqe tutmaqda davam edirlər. Bazar günü İslam İnqilabı Keşikçiləri Korpusunun hərbi- dəniz donanması Hörmüz boğazındakı vəziyyətin heç vaxt müharibədən əvvəlki vəziyyətə qayıtmayacağını bəyan edib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Küləklər şəhərində bağ salan, çiçək yetişdirən bağbanlar

**Bakı yalnız böyük binaları və küçələri ilə deyil, həm də parkları, bağları-bağçaları ilə gözəl və cəlbedicidir. Bu yaşıl məkanlar şəhərin nəfəsidir, insanlar burada istirahət edir, uşaqlar oynayır, təbiət ilə ünsiyyət qururlar. Gözəlliyi yaradan, onu qoruyub saxlayanlar isə bağbanlardır.**



Bağban torpağın səsini eşidən insandır. O, səhərin ilk işıqları ilə oyanır, şəhər hələ yuxuda ikən parkların səssizliyinə addım atır, bağların təzə çiçəklərinə və yaşıllıqlarına toxunur, torpağın nəmlənmiş qoxusunu nəfəsinə çəkir. Hər bir fidan bağbanın diqqət və qayğısı ilə böyüyür, hər çiçək onun əllərində həyat tapır. Əlləri torpağa toxunduqca həyat oyanır, solğun budaqlar yenidən canlanır, toxumlar ümidə çevrilir.

Bağban hər gün səhərdən axşama qədər park və bağların qulluğundadır. Çiçəkləri əkir, ağacları sulayır, otları biçir və kağız parçalarını toplayaraq parkların təmizliyini təmin edir. Məsələn, yaz aylarında müxtəlif güllər əkir, çiçək kolları salır, payızda isə yarpaqları təmizləyir və torpağı gələcək mövsüm üçün hazırlayır. Üstəlik, parkın estetik görünüşünü qorumaq üçün rəng və formaya diqqət yetirir. Hər bitkinin xüsusi qulluq tələb etdiyini bilmək, fəsillərə uyğun tədbirlər görmək bağbanın bilik və bacarığından asılıdır.



Bağban üçün hər hansı bir çiçək, sadəcə, bitki deyil, o, zəhmətin, səbrin və sevginin bəhrəsidir. Çiçəklərə su verərkən onlarla danışır, ağaclara qulluq edərkən dilini anlayır. Külək yarpaqları yellədikcə sanki təbiət onun əməyinə təşəkkür edir. Lalənin zərifliyi, qızılgülün cazibəsi, rəngarəng gül kollarının pıçıltısı və hətta otların rəqsi - hər şey bağbanın zəhməti ilə möhtəşəm bir orkestrə çevrilir.

Bağbanın işi sadə fiziki əməkdən çox səbirdir, məsuliyyətdir, sevgidir. Yazda əkilən gül bir ay sonra açanda, payızda toplanan yarpaqlar torpağa qayıdanda bağbanın əməyi çox aydın hiss olunur. Şəhərin yaşıllığı bağbana borcludur. Parkların və bağların aləlvan rəngi, çiçəklərin qoxusu, ağacların səsi bağbanın əli ilə şəhərin ritmini yaradır.

Onlar görünməz qəhrəmanlar kimi heç bir mükafat tələb etmədən, yalnız təbiətin və insanların xoşbəxtliyini düşünərək çalışırlar. Biz parkda oturub dincələndə, uşaqların gülüşünü eşidəndə və çiçəklərin açdığını görəndə bağbanın zəhmətini, sevgisini və səbrini anlayırıq. Hər təbəssüm və gülüş, hər açan gül, hər sükunət anı bağbanın diqqət və qayğısının əksidir.

Ona görə də hər birimiz bu yorulmaz insanın zəhmətini dəyərləndirməli, onun qabarlı əllərinə, işıqlı gözlərinə hörmətlə yanaşmalı və minnətdar olmalıyıq. Çünki o qabarlı əllər torpağı canlandırır, işıqlı gözlər isə hər çiçəyin, hər ağacın həyatını izləyir. Bizim diqqətimiz və təşəkkürümüz bağban əməyinə verilən ən gözəl dəyərdir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*




# Ağdərədə istismar müddəti başa çatmış yararsız döyüş sursatları məhv ediləcək

Aprelin 6-10-da istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən məlumat verilib.

"Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq", - deyə məlumatda bildirilir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova əzizi

**MƏMMƏDQULU BABAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**
Tiraj 3596
Sifariş 454
Qiyməti 60 qəpik